# TƏHSİL
# LÜĞƏTİ

**Bakı 2010**

**Orijinal adı: «Education Glossary»**

Lüğətin ilk variantı Açıq Cəmiyyət İnstitutu Yardım Fondunun Təhsilə Dəstək Proqramı tərəfindən 2003-cü ilin fevralında nəşr edilmişdir. Mövcud variant isə təhsil sahəsinə aid bir sıra yeni termin və anlayışlar da əlavə olunmaqla Müasir Təhsil və Tədrisə Yardım Mərkəzinin (MTTYM) "Təhsil Siyasəti Forumu" layihəsi çərçivəsində təkrar nəşr edilir.

**Tərcüməçi:** Elçin İbadov
**Tərtibçilər:** Hüzürə Ağayeva, Nailə İsmayılova
**Məsləhətçilər:** Ülviyyə Mikayılova, Elmina Kazımzadə, Lamiyə Şərəfxanova, Yuliya Kərimova, Raziyə İsayeva (Müasir Təhsil və Tədrisə Yardım Mərkəzi)
**Redaktorlar:** Yadigar Cəfərli, Azərbaycan Respublikası Elmlər Akademiyası, filologiya üzrə fəlsəfə doktoru
Vəfa Yaqublu, Bakı Slavyan Universiteti
Həşimova Nərgiz, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası
**Texniki redaktor:** Arzu İsmayılova
**Layihənin ideya müəllifi:** Elmina Kazımzadə

MTTYM kitabın tərcümə və çapında göstərdiyi dəstəyə görə Açıq Cəmiyyət İnstitutu Yardım Fonduna təşəkkürünü bildirir.

İSBN 10 - 9952-436-17-3

İSBN 13 - 978-9952-436-17-4

© Müasir Təhsil və Tədrisə Yardım Mərkəzi, 2010

# Mündəricat

Ön söz.......................................................................................... 3

Termin və anlayışlar ....................................................................... 4

İstinadlar ......................................................................................... 64

# Ön söz

*Hörmətli Oxucu!* Globallaşma nəticəsində milli təhsilimizin beynəlxalq sistemə inteqrasiya etməsi dilimizin yeni təhsil terminləri ilə zənginləşməsinə səbəb olur.

Sizlərə təqdim olunmuş "Təhsil lüğəti"ndə son illər təhsil sahəsində istifadə edilən, lakin Azərbaycan dilinin leksikasında hələ tam sabitləşməmiş bir sıra yeni termin və anlayışların izahı verilir.

Müasir milli təhsil prosesində istifadə edilən termin və anlayışların tərcüməsi və izahı verilən bu lüğət təkcə pedaqoji fəaliyyətlə məşğul olanlar üçün deyil, həm də cəmiyyətin ən aktual problemlərindən biri olan təhsilə maraq göstərən ictimaiyyətin müxtəlif təbəqələri üçün nəzərdə tutulub.

"Təhsil lüğəti" pedaqoqlar, valideynlər, tədqiqatçılar, jurnalistlər, bir sözlə, təhsil sahəsindəki yeniliklərə maraq göstərən bütün oxucular üçün nəzərdə tutulmuşdur.

İnanırıq ki, bu lüğət təhsil sahəsindəki müzakirələr, məlumatlandırma kampaniyaları zamanı tərəflər arasında səmərəli ünsiyyətin təmin edilməsi baxımından da faydalı olacaq.

**Professor, Əməkdar incəsənət xadimi Validə Məmmədova**

# A

**Abituriyent (University /College entrant**) – ali və ya orta peşə-ixtisas təhsili müəssisələrinə qəbul olunmaq üçün təhsil haqqında müvafiq dövlət sənədi təqdim edən şəxs.

**Açıq (ictimai) imtahan / (Public Examination) -** Mərkəzi, yaxud əyalət səviyyəsində təhsil sisteminin müəyyən pilləsində olan şagirdlər üçün təklif edilən 2 mərhələli imtahan. İctimai imtahanın keçirilməsində əsas məqsəd ayrı-ayrı şagirdlərin müvəffəqiyyət səviyyəsini müəyyən etməkdən, yaxud şagirdlərin təhsil sisteminin növbəti pilləsi üçün seçilməsindən ibarətdir.

**Açıq sonluqlu tapşırıq (Open-ended task)** – Bir neçə mümkün cavabı olan tapşırıqlar. Əsasən "Nə üçün?", "Nəyə görə?", "Necə?" və s. sualları ilə başlanan bu tapşırıqlar şagird və tələbələrin qazandıqları bilik və bacarıqlardan nə dərəcədə faydalandıqlarını təyin etməyə kömək edir. Açıq sonluqlu tapşırıqlara nümunələr: "Bu ( fikir, hadisə, əşya, hərəkət, əlamət və s.) haqda nə bilirsiniz?", "Nə üçün bu haqda çox bilmək istərdiniz?", "Bu (hadisə, hərəkət və s.) necə baş verir?" və s.

**Adaptiv test (Adaptive testing) –** Sualları imtahan edilənin müvafiq sahə üzrə bilik səviyyəsinə uyğunlaşdırılmış test metodu. Adaptiv testdə sualın çətinlik dərəcəsi imtahan edilənin əvvəlki suala verdiyi cavabın düzgün, yaxud yanlış olmasından asılıdır. İmtahan edilənin düzgün cavablarının sayı artdıqca test sualları da çətinləşir.

Müasir dövrdə adaptiv test, əsasən, kompüter texnologiyalarının köməyilə həyata keçirilir və "Adaptiv Kompüter Testi" (AKT) adlanır.

**Addım-addım (Step by Step - SBS)** – Açıq Cəmiyyət İnstitutu Yardım Fondu tərəfindən əsası qoyulan və maliyyələşdirilən şəbəkə layihəsi.

"Addım-Addım" Proqramı uşaqlar üçün anadan olduqları gündən on yaşınacan nəzərdə tutulmuş hərtərəfli təhsil islahatı proqramıdır. Uşaqyönümlü fərdiləşdirilmiş təlim metodologiyalarını nəzərdə tutan bu proqram cəmiyyət və ailənin məktəbəqədər tərbiyə müəssisələrinə və ibtidai məktəblərə cəlb edilməsinə, ailənin təhsil prosesində fəal iştirakına, məktəb və valideynlərin alternativ proqramlar arasından seçim edə bilmələrinə imkan yaradır.

"Addım-addım" layihəsi, əsasən, demokratiyaya keçid dövrünü yaşayan ölkələrdə reallaşdırılır və bu məqsədlə müəllimlər, köməkçi müəllimlər, ailə əlaqələndiriciləri, metodistlər, psixoloqlar və məktəb direktorları üçün təlim seminarları keçirilir.

**Adi namizəd (Regular Candidate) -** Əsasən, Asiya qitəsində silsilə imtahanlarda iştirak etmək üçün qeydiyyatdan ilk dəfə keçən namizədlərə verilmiş ad. Fərdi namizədlər və təkrar imtahan verən şəxslər isə "qeyri-formal" namizədlər hesab edilir.

**Ağ sənəd/ (White paper)** – Hər hansı məsələ üzrə rəsmi dövlət sənədi; adətən yeni qanunun qəbulu ərəfəsində hökumət planlarının, siyasət strategiyasını açıqlandığı istiqamətləndirici xarakterli sənəd. Adətən Yaşıl (Açıq) sənədin arxasınca gələn sənəddir. Yaşıl sənəd siyasi məsələləri əhatə edir və məsləhət etmək məqsədi ilə dövlət tərəfindən ictimaiyyətin müzakirəsinə təqdim olunur.

**Ailə savadlanması (Family literacy)** – Şagirdlə birgə onun üzvü olduğu ailənin də savadlanmasına yönəlmiş proqram. Proqram ümumilikdə 3 komponentdən ibarətdir:

*1) övladların (şagirdlərin) savadlanması; 2) valideynlərin savadlanması; 3) övladlarını savadlanmağa həvəsləndirmək üçün ailənin digər yaşlı üzvlərinin savadlandırılması.*

**Akademik fənlər (Academic disciplines) –** Təhsil müəssisəsində tədris edilən konkret fənn üzrə təlim, təhsil və tədqiqatın cəmləndiyi istiqamət.

**Akademik çıxarış (Academic transcript)** – Tədris prosesi müddətində şagirdin (tələbənin) tədris planı çərçivəsində aldığı qiymətlərin məcmusundan ibarət təsdiq edilmiş rəsmi sənəd.

**Akademiya (Academy)** - müxtəlif sahə və istiqamətlər üzrə ali və əlavə təhsil proqramlarının həyata keçirildiyi ali təhsil ocağı və ya fundamental və tətbiqi elmi tədqiqatların aparıldığı elmi müəssisə.

**AKT (CAT) -** Adaptiv kompüter testi / təlimi. (bax. **Adaptiv test**)

**Akkreditasiya (Accreditation)** – təhsil müəssisəsinin fəaliyyətinin dövlət təhsil standartlarına uyğunluğunun və onun statusunun müəyyənləşdirilərək təsdiqlənməsi proseduru.

**Ali təhsil (Higher Education) -** Ali ixtisas təhsili proqramlarını həyata keçirən tədris müəssisələri (ali kollec, institut, konservatoriya, akademiya, universitet və s.) tərəfindən verilən təhsil. Ali təhsil kursunun məzmununa uyğun olaraq məzunlara ali ixtisas dərəcəsi verilir.

**Alfa (Kronbax) əmsalı (Coefficient (Cronbach) Alpha) -** Test tapşırığının verilməsində eynitiplilik (homogen) prinsipinə riayət edilməsi üçün ümumiləşdirilmiş əmsal (bax: **Daxili Ardıcıllıq**).

**Alt-test (Sub-test)** – Oxşar xüsusiyyətlərə, yaxud funksiyalara görə seçilmiş test. Ayrıca qiymətləndirilən hər alt testin nəticələrinə uyğun olaraq imtahan edilənə onun tapşırığı hansı şəkildə yerinə yetirməsinə dair qısa məlumat təqdim olunur.

**Alternativ qiymətləndirmə (Alternative assessment) -** yazılı və şifahi imtahanlarda ənənəvi qiymətləndirmə ilə yanaşı tətbiq edilə bilən alternativ üsul. Şagird (tələbə) qarşısında qeyri-müəyyən sualları cavablandırmaq, qeyri-müəyyən problemləri həll etmək, müxtəlif üsullarla təcrübi bacarıq və qabiliyyətləri nümayiş etdirmək tələbi qoyula bilər.

**Amil (Factor) –** Bir prosesin, hadisənin hərəkətverici qüvvəsi, səbəbi. Məsələn, fərziyyə bacarığı test tapşırıqlarının yerinə yetirilməsinə maraq oyadan amil kimi qiymətləndirilə bilər.

**Analitik qiymətləndirmə (Analytic scoring)** – Şagird (tələbə) fəaliyyətinin bir-birindən asılı olmayan müxtəlif göstəricilər üzrə qiymətləndirilməsi.

Ümumi təəssürata əsaslanan qiymətləndirmədən fərqli olaraq, analitik qiymətləndirmə üsulunda ballar hər bir göstərici üzrə ayrıca hesablanır. Məsələn, ədəbiyyat dərsində yazılan inşanın balları aşağıdakı göstəricilərə əsasən hesablana bilər: əvvəllər qazanılmış biliklərdən istifadə səviyyəsi, inşa yazısının ümumi prinsipinə riayət edilməsi, öz fikrini əsaslandırmaq məqsədilə ilkin mənbələrdən olan materiallardan istifadə və struktur-tərtibat / kompozisiya.

**Anlamanı yoxlayan suallar (Concept–check questions) -** Şagirdin (tələbənin) yeni dərsi, yaxud tapşırığın şərtini anlayıb-anlamadığını müəyyənləşdirmək məqsədilə müəllim tərəfindən yoxlayıcı sualların verilməsi. Xarici dilin tədrisində mətnin mənasını, əsas ideyanın öyrənənlər tərəfindən dərkini müəyyənləşdirən suallar.Məs., "Kim...? Nə vaxt baş verib...? Harada olub...? Niyə...? Necə...?".

**Apelyasiya (Appeal) –** İmtahan edilən tərəfin öz bilik və bacarıq səviyyəsi ilə bağlı imtahan keçirən orqanın qərarına qarşı gələn hüquqi etiraz.

Apelyasiya prosedurları nəticənin obyektivliyini müəyyənləşdirmək məqsədilə inzibati yoxlamanın aparılmasından, təkrar imtahanın keçirilməsindən, nəhayət, imtahan keçirən orqanın qərarına qarşı məhkəmə qaydasında iddia qaldırılmasından ibarət ola bilər.

**Aprobasiya sınağı (Field Test) –** Qiymətləndirmə tapşırıqlarının səmərəliliyini öyrənmək məqsədilə onların pilot qrupda həmin tapşırıq müəllifləri tərəfindən sınaqdan keçirilməsi.

**Attestat (School Leaving Certificate)** – təhsil müəssisəsini bitirən tələbənin (şagirdin) müəyyən təhsil pilləsini bitirməklə qazandığı rütbəni təsdiq edən rəsmi sənəd.

**Attestasiya (Assessment)** – (lat. dilindən ***attestatio*** – *şəhadətnamə*) - hər bir təhsil pilləsi və səviyyəsində təhsilalanların təlim nailiyyətlərinin və təhsilverənlərin fəaliyyətinin qiymətləndirilmə qaydası.

**Asanlıq indeksi (Facility value) -** Tapşırığın asanlıq səviyyəsini 0-dan 1-ə qədər şkalada müəyyən edən statistik göstərici; bəzən ***çətinlik dərəcəsi*** və ya ***p göstəricisi*** kimi adlandırılır. Asanlıq indeksi **0.0** olan tapşırıq ən çətin, asanlıq indeksi **1.0** olan tapşırıq isə ən asan tapşırıq hesab edilir.

**Aspirantura (Postgraduate Study)** – (lat. dilindən ***Aspiro*** - *cəhd edirəm, yaxınlaşmağa çalışıram*) - elmi işçilərin hazırlanma forması. Əksər xarici ölkələrdə aspiranturaya uyğun təhsil universitet daxilində xüsusi mərkəzlərdə həyata keçirilir. Aspirantura təhsili aspirant tərəfindən yerinə yetirilmiş elmi-tədqiqat işinin müdafiəsi və müvafiq elmi dərəcənin (adətən doktor) alınması ilə yekunlaşır.

**Audiovizual materiallar (Audiovisual materials)** – müasir tədris prosesində çox geniş yayılmış ekran və səs avadanlıqlarından ibarət olan xüsusi texniki dərs vəsaitləri. Bura diaproyeksiyalar (diafilm və diapozitivlər), epiproyeksiyalar (episkoplar vasitəsilə kağızda yazılmış və ya çəkilmiş şəkil, çertyoj və s. ekranda nümayişi), kodproyeksiyalar, səs ləvazimatı, tədris kino və televiziya filmləri, audio/video lentlər, kompakt/rəqəmsal disklər və s. daxildir.

**Avrodik (EURYDICE) -** Əsası 1980-cı ildə qoyulmuş, 1995-ci ildən etibarən "Sokrat" Təhsildə Birlik Hərəkatı proqramının tərkib hissəsi kimi fəaliyyət göstərən EURYDİCE Avropada təhsil üzrə informasiya şəbəkəsidir. EURYDİCE təhsil sistemlərinin ümumi və fərqli xüsusiyyətlərinə xüsusi diqqət yetirən müşahidəçi rolunu oynayır, milli təhsil sistemləri üzrə müqayisəli məlumatlar təqdim edir.

**Avropa Ali Təhsil Mühiti (European Higher Education Area) -** 2010-cu ilədək Avropa daxilində ali təhsil müəssisələrinin əməkdaşlıq əlaqələrini inkişaf etdirmək məqsədilə irəli sürülmüş proqram.

Avropa Ali Təhsil Məkanının qurulmasına dair sənədə imza atan 47 ölkədə hazırda ali təhsil sistemi üzrə strukturların uyğunlaşdırılması istiqamətində tədbirlər davam etdirilir və "Boloniya prosesi" çərçivəsində nəzərdə tutulan məqsədlər silsiləsi bu ölkələr tərəfindən dəstəklənir.

**Avropa Kredit Transferi Sistemi (European Credit Transfer System)** – Tələbə mobilliyini asanlaşdırmaq, tələbələrin xaricdə aldıqları ali təhsil haqqında diplomun həm öz ölkələrində, həm də bütün Avropa məkanında tanınmasına nail olmaq üçün Avropa Birliyi tərəfindən yaradılmış sistem. Bu sistemin əsas məramı kredit və qiymətləndirmə məsələlərində Avropa ölkələri miqyasında vahid standartlar müəyyənləşdirmək, şəffaflığa nail olmaq, beləliklə, Avropa təhsil məkanında inteqrasıyanı gücləndirməkdən ibarətdir. Bu baxımdan, Avropa Kredit Transferi Sistemi ali təhsil sahəsində Avropa səviyyəsində "ortaq dil" kimi qiymətləndirilir.

Sokrat/Erasmus proqramı (1989-1996) çərçivəsində yaradılmış bu sistem, Avropa Birliyinə və Avropa İqtisadi Məkanına daxil olan ölkələr üzrə 145 ali təhsil müəssisəsinin cəlb olunduğu pilot layihədə 6 il müddətində sınaqdan keçirilmiş, 1997/98-ci illərdə Müəssisə Müqaviləsinin təqdimatı ilə bütün Avropa universitetlərinə Avropa Kredit Transferi Sistemində iştirak etmək imkanı vermişdir.

**Avropass (Europass)** – 2004-cü il 15 dekabr tarixində Avropa Şurası və Milli Europass Mərkəzləri şəbəkəsi tərəfindən qəbul edilmiş ikidilli sənəd forması.

Şəxslərin bilik, bacarıq, ixtisas və təcrübələrinə dair məlumatların bütün Avropa ölkələrində asanlıqla, aydın başa düşülməsini təmin etmək məqsədilə tərtib edilmiş Europass beş sənədi özündə birləşdirir: Tərcümeyi-hal, Dil Pasportu, Mobillik, Attestata Əlavə, Diploma Əlavə.

Birinci iki sənəd şəxsin özü, digər üç sənəd isə müvafiq səlahiyyətli təşkilatlar tərəfindən doldurulur. Europass sənədlərində qazanılmış ixtisasların məzmunu, keyfiyyəti, əldə edilmiş beynəlxalq təcrübə və s. haqqında məlumat verilir. Bu sənədlərin verilməsinə nəzarətin təmin olunması və tanıdılması, ayrı-ayrı ölkələrdə müvafiq dövlət və özəl qurumların ətraflı məlumatlandırılması, verilən bütün sənədlərin surətinin arxivləşdirilməsi, Avropa Milli Europass Mərkəzləri ilə əlaqəli fəaliyyət göstərilməsi Milli Europass Mərkəzlərinin vəzifələrinə daxildir.

**Avropa Tədqiqat Mühiti (European Research Area (ERA)) -** 2000-ci ilin yanvarında Avropa Şurası tərəfindən "Avropa Tədqiqat Mühitinə doğru" adı altında dərc edilən sənəddə irəli sürülmüş ideyadır.

Programın məqsədi Avropanı aparıcı iqtisadi bilik məkanına çevirmək və qarşılıqlı əməkdaşlıq əsasında bu regionda tədqiqat üçün münbit şərait yaratmaq, AŞ-na üzv olan ölkələrin tədqiqatçı-alimləri arasında əməkdaşlığın inkişafı hesabına Avropa məkanında azad tədqiqat siyasətini həyata keçirməkdir.

# B

**Bacarıq/səriştə (Proficiency)** – Konkret sahədə biliyin lazımi səviyyədə əldə olunması və onun təcrübədə nümayiş etdirilməsi.

**Bacarıq/səriştə testi (Competency Test) -** Şagirdin müəyyən edilmiş minimum standart bilik və bacarıqlara yiyələnməsi nəticəsində növbəti sinfə keçmək, məktəbi bitirmək, təhsildəki nailiyyətlərini təsdiqləyən hər hansı rəsmi sənəd almaq hüququna malik olmasını müəyyənləşdirmək üçün keçirilən test.

**Bacarıq testi (Power Test) -** Sürət testindən fərqli olaraq, qiymətləndirmənin şagirdin test tapşırığını yerinə yetirdiyi müddətdən deyil, onun konkret sahədə tətbiq etdiyi bilik və bacarıqların keyfiyyətindən asılı olduğu test. (bax: **Sürət Testi**).

**Balans, tarazlıq (Balance) -** Konkret nəticələri müəyyənləşdirmək məqsədilə verilmiş tapşırıqların "ideal" testə və ya test parametrlərinə uyğunluq səviyyəsi.

**Beynəlxalq Bakalavriat Təşkilatı, BBT (International Baccalaureate Organization, (IB/O)** – 1968-ci ildə Cenevrədə yaradılan və 3-19 yaşlı orta məktəb şagirdləri üçün ingilis, fransız və ispan dillərində ikiillik tədris kursu təşkil edən qurum. BBT orta məktəblərə 3 proqram təklif edir:

- *Diplom Proqramı*
- *Orta Yaş Təlimi Proqramı*
- *İbtidai Yaş Təlimi Proqramı*

Milli sistemin ən yaxşı elementlərini özündə ehtiva edən bu beynəlxalq ümumi təhsil planı şagirdlərə öz ölkələrinin təhsil sisteminin tələblərini yerinə yetirmək imkanı verir.

**Bənd təhlili (Item analysis) -** Müvafiq test üsulu ilə müxtəlif xarakterli fərdlər arasında səciyyəvi fərqləri üzə çıxarmaqla şagirdlərin (tələbələrin) güclü və zəif cəhətlərini müəyyənləşdirmək metodu.

**Bərabərləşdirmə (Alignment)** – Standartlar, tədris planları, tədris materialları, təlim və qiymətləndirmə metodları arasında birbaşa əlaqənin təmin olunması.

**Bilik (Knowledge) -** düşüncə ilə bağlı idrak fəaliyyəti; psixikanın dərketmə bacarığına xas olan cəldlik, dəqiqlik, dərinlik, genişlik, yaradıcılıq və s. kimi ümumiləşmiş xüsusiyyətləri əhatə edir.

**Bilmək, Bilmək İstəmək, Öyrənmək (Know, Want to Know, Learn, KWL)** – 1986-cı ildə Dona Oql tərəfindən müxtəlif tədris fənləri üçün tərtib edilən bir-biri ilə əlaqəli 3 mərhələli cədvəl.

*I mərhələdə* - şagirdlərin yeni mövzu ilə bağlı ümumi bilikləri nəzərdən keçirilir;

*II mərhələdə* - şagirdlərin yeni mövzuya aid düşüncə və fərziyyələri suallar vasitəsilə ifadə edilir;

*III mərhələdə* - şagirdlərin əldə etdikləri məlumatı sual-cavab etməklə yeni mövzuya yekun vurulur.

**Birbaşa metod (Direct method)** – Təlim prosesində müəllimin şifahi yanaşmaya üstünlük verməsi. Birbaşa metodun tətbiqi zamanı real şəraitə yaxın söhbət, rol oyunları, sorğu-sual və cavablandırma tədricən genişlənən nəzəri biliklərin hesabına inkişaf etdirilir.

**Birbaşa təlimat (Direct instruction) -** Müəllim tərəfindən idarə edilən proqramlaşdırılmış təlim üsulu. Bu təlim üsulunda müəllim tərəfindən məqsəd təyin edilir, material seçilir, təlim prosesinin tempi müəyyənləşdirilir. *Nümayiş, istiqamətləndirən təcrübə, əks tərəfə verilən şərh* və *müstəqil təcrübə* bu təlim prosesinin əsas mərhələlərini təşkil edir.

**Birgə / kooperativ öyrənmə (Cooperative learning)** – Qarşıya qoyulmuş konkret praktiki məsələləri həll etmək məqsədilə müxtəlif bilik səviyyəli şagird və ya tələbələrin 2-5 nəfərlik kiçik interaktiv qruplarda birgə fəaliyyət göstərməsi.

Bu təlim metodu öyrənənlərdə təşkilatçılıq, tədqiqatçılıq, müstəqillik, cavabdehlik və s. kimi keyfiyyətlər formalaşdıraraq, onlarda ünsiyyət mədəniyyəti vərdişlərini inkişaf etdirir.

**Birgə təlim (Peer tutoring/teaching)** – Şagirdlərin qarşılıqlı kömək əsasında öyrənməsini, müəllimlərin isə qarşılıqlı kömək əsasında öyrətməsini nəzərdə tutan təlim metodu.

**Birtərəfli dərketmə (Monological (one-dimensional) thinking) -** Dərketmə prosesinin yalnız bir nöqteyi-nəzər yaxud bir araşdırma çərçivəsində baş verməsi. Məsələ çoxtərəfli olsa da, şəxs birtərəfli düşünə bilər.

**Birtərəfli problemlər (Monological (one-dimensional) problems) -** Yalnız bir nöqteyi-nəzər, yaxud bir araşdırma çərçivəsində həll olunan problemlər. Bu problemlər və onların həllində istifadə edilən vasitələr "mono-məntiqi" adlanır.

**Biserial korrelyasiya (bir-birindən asılılıq/münasibət) (Biserial Correlation) -** Həqiqi dixotomik və fasiləsiz dəyişmə arasında qarşılıqlı əlaqəni göstərmək üçün istifadə edilən statistik metod. Çox vaxt test cavabları və ümumi test balları arasında korrelyasiyanı qiymətləndirmək məqsədilə istifadə edilir.

**Biserial-nöqtə korrelyasiyası (Point-biserial Correlation) -** Həqiqi dixotomik dəyişmə (məsələn, sualın düzgün/səhv cavabı) və fasiləsiz dəyişmə (məsələn, testin yerinə yetirilməsi üçün ümumi bal) arasında qarşılıqlı əlaqəni göstərmək üçün tapşırığın analizində istifadə edilən korrelyasiya forması.

**Bitirmə/başa çatdırma dərəcəsi (Completion rate) -** Təhsil ilinin ilkin fazasına daxil olanların sayı ilə son fazaya qədər davam edənlərin sayı arasındakı faiz nisbəti.

**Blum təsnifatı (Bloom's Taxonomy) -** Bilik, anlama, tətbiq etmə, təhlil, sintez və dəyərləndirmə kimi dərketmə proseslərinin iyerarxiyasını təsvir etmək üçün Benjamin Blum tərəfindən təklif edilmiş ardıcıl nizamlanmış sxem.

**Boloniya prosesi (Bologna process) -** Əsası 1987-ci ildə Avropa İttifaqında *"Socrates/Erasmus"* proqramının təsis olunması ilə qoyulmuş və məqsədi Avropa Ali Təhsil Məkanının yaradılması olmuşdur.

1988-ci ildə İtaliyanın Boloniya şəhərində *"Maqna Charta Universitatum"* sənədi imzalanmış, 1998-ci il 25 may tarixində Sorbona Universitetinin qurulmasının 800 illik yubileyində *"Sorbona Bəyannaməsi"* qəbul olunmuş, 1999-cu il 19 iyun tarixində isə 29 Avropa ölkəsinin təhsil nazirləri *"Boloniya Bəyannaməsi"*nə imza atmışlar. *"Boloniya Bəyannaməsi"*ndə 2010-cu ilə qədər ortaq bir Avropa Ali Təhsil Məkanının (EHEA) formalaşdırılması üçün bir sıra fəaliyyət prinsipləri müəyyənləşdirilmişdir. 25 mart 2001-ci il tarixində *"Höteborq Tələbə Deklarasiyası"* imzalanmış, bu istiqamətdə sonuncu iclaslar isə 2001-ci il 19 may tarixində Praqada, 2003-cü il 19 sentyabr tarixində Berlində keçirilmişdir. Praqa Konfransında 2010-cu ilə qədər Avropa Ali Təhsil Məkanının formalaşdırılması müddəaları yenidən nəzərdən keçirilmiş, 2005-ci ildən etibarən 45 ölkə, o cümlədən 2005-ci ilin mayından Azərbaycan da Boloniya prosesinə qatılmışdır.

Boloniya prosesi aşağıdakı prinsiplərin həyata keçirilməsini müəyyənləşdirir:

- *hamının başa düşdüyü və qəbul etdiyi təhsil dərəcələrinə (Bakalavr, Magistr) aparan sistemin yaranması;*
- *əsasən iki pilləli Bakalavr (BA) və Magistr (MA) təhsil sisteminin tətbiqi;*
- *Avropa Kredit Transfer Sisteminin (ildə 60 kredit yığmaq) tətbiqi;*
- *mobilliyin təmin olunması (məs. " Erasmus" proqramı üzrə);*
- *təhsildə keyfiyyətin təmin olunması sahəsində Avropa ölkələrinin əməkdaşlığı;*
- *ali təhsildə Avropa modeli və ali təhsilə ömürboyu yiyələnmək prinsipi;*
- *cəmiyyətdə ali təhsil müəssisələri və tələbələrin rolunun artırılması;*
- *Avropa Ali Təhsil Məkanına dünyada maraq oyadılması;*

- *Avropa Ali Təhsil Məkanının Avropa Elmi-Tədqiqat Məkanına inteqrasiyası, yəni 3-cü təhsil pilləsi - Fəlsəfə Doktoru (Ph.D.) elmi dərəcəsinin Boloniya təhsil sistemi kimi qəbul edilməsi.*

**Böyük səy tələb edən imtahan (High Stakes Examination)** – Hazırlaşmaq üçün şagird, müəllim və valideynlərdən böyük səy və vəsait tələb edən imtahan və ya sınaq. Ali məktəbə qəbul imtahanı böyük səy tələb edən imtahana nümunə, qazanılan uğur isə böyük karyeranın başlanğıcı sayıla bilər.

**Böyük səy tələb edən test (High Stakes Testing) -** Nəticələri şagird, tələbə və müəllimlər üçün böyük əhəmiyyət kəsb edən test proqramı. Bu test proqramları təhsil alanlara növbəti sinfə (pilləyə) keçmək, təhsil müəssisəsini bitirmək haqqında şəhadətnamə (diplom) vermək məqsədilə təşkil edilir.

**Buraxılış imtahanları sisteminin islahatı (Matura reform)** – Əsasən milli azlıqların yaşadığı və islahat mərhələsində olan bəzi Avropa ölkələrində təlimin nəticələrinin qiymətləndirilməsində şəffaflıq, etibarlılıq və səmərəliliyin təmin olunması məqsədilə 3 mərhələdən ibarət buraxılış imtahanları sisteminin yenidən qurulması.

**Buzları əritmə (Ice-breaker) -** İlk dərs günündə müəllimin şagird və tələbələrlə səmimi ünsiyyət yaratması üçün, və ya dərs vaxtı gərginliyi azaltmaq məqsədilə qısa müddət ərzində istifadə etdiyi təqdimat forması.

**Bütöv bal hesablanması (Holistic Scoring)** – Həm ümumi təəssürat, həm də toplanmış ballar əsasında aparılan qiymətləndirmə metodu. Ümumi təəssürata əsaslanan ənənəvi qiymətləndirmədən fərqli olaraq, bütöv bal hesablanmasında qiymətləndirən şəxs özünün ümumi təəssüratını ballarla ifadə edilmiş qiymət göstəricisi ilə müqayisə edir və yekun nəticələrə hansı qiyməti verəcəyini belə bir müqayisə əsasında müəyyənləşdirir.

**Bütöv qiymətləndirmə (Holistic Assessment)** – Şagirdin (tələbənin) yerinə yetirdiyi tapşırığın hər bir aspektinin tək-tək təhlil edilərək qiymətləndirilməsi ilə deyil, onun göstərdiyi yekun nəticələrin ümumi qiymətləndirilməsi yolu ilə həmin şagirdin (tələbənin) yiyələndiyi biliklər haqqında müəllim tərəfindən fikir yürüdülməsi.

## C

**Cavaba əsaslanan qiymətləndirmə (Performance-based assessment)** - Birbaşa, sistematik müşahidənin nəticələri. Nəzəri biliklərə əsaslanan qiymətləndirmədən fərqli olaraq, şagirdin (tələbənin) cavabını qiymətləndirmək üçün müəyyən vaxt müddətində aparılan müşahidə onun əməli vərdiş və bacarıqlarına yönəldilir.

## Ç

**Çarpaz-əlaqəli fənlər - (Cross-curricular)** Müxtəlif fənlərin məzmunu arasında əlaqə və eyniliklərin tapılmasına, əsas biliyin fərqli şəkildə öyrədilməsinə əsaslanan yanaşma.

**Çətinlik dərəcəsi (Level of Difficulty) -** (bax: **Asanlıq indeksi** (**Facility value**)

**Çoxdillilik (multilingualism)** - Ana dilindən əlavə iki və daha çox dildə sərbəst danışmaq bacarığı.

**Çoxmədəniyyətli təhsil (Multicultural education)** – etnik, milli-mədəni, gender, əlillik və s. kimi bir sıra sosial müxtəlifliklər arasında bərabərliyi təmin edən təhsil siyasət və təcrübəsi.

**Çoxmənalılıqdan irəli gələn səhv (Ambiguity error)** – Eyni qiymət meyarının ayrı-ayrı qiymət verən şəxslər (yoxlayanlar) tərəfindən fərqli şəkildə şərh edilməsi nəticəsində meydana çıxan səhv.

**Çoxməntiqli dərketmə (Multilogical thinking) -** Məsələləri hərtərəfli yanaşma prinsipilə nəzərə almaqla düşünmə bacarığı.

**Çoxməntiqli problemlər (Multilogical (multi-dimensional) problems)** – Bir neçə təhlil metodu olan problemlər. Çoxməntiqli problemlərin həlli yolları haqqında sərbəst düşünə bilən şəxs çoxtərəfli yanaşma qabiliyyətinə malik hesab edilir.

**Çoxsahəli qavrama (Multiple intelligences) -** Hovard Qardnerin problemlərin həlli və yeni ideyaların yaradılmasında insanların istifadə etdikləri genişhəcmli bacarıqların təsviri üçün irəli sürdüyü nəzəriyyə.

Çoxsahəli qavrama nəzəriyyəsinə görə, insan zehni *musiqi, hərəkət, məntiqi-riyazi, linqvistik, məkani, fərddaxili, fərdlərarası* və *naturalist* kimi müxtəlif qavrama qabiliyyətlərinə malikdir ki, bu da onların ayrı-ayrılıqda, eləcə də digər istedad sahələri ilə əlaqəli şəkildə tətbiq edilməsinə geniş şərait yaradır.

**Çoxsaylı cavab imkanına malik tapşırıq (Multiple-response Item) -** İki və daha artıq düzgün cavab variantı olan tapşırıq növü.

**Çoxsaylı seçim (Multiple choice) -** Çoxlu sayda bəndlərdən ibarət olan və hər bənddən sonra çoxlu sayda alternativ cavablardan təşkil olunmuş test və həmin testə verilən cavab forması.

**Çoxsəviyyəli modelləşdirmə (Multilevel Modelling)** – Şagird, sinif və məktəbin səviyyəsi üzrə göstəricilərin təhlili.

## D

**Daha zəif mərhələli öyrənmə (Lower order learning)** – Təkrar, əlaqələndirmə və çalışmalar əsasında öyrənmə üsulu. Təlim və tədrisdə belə bir öyrənmə üsulunun müxtəlif variantları tətbiq edilir.

**Daxili ardıcıllıq (İnternal Consistency)** - 1. Test tapşırıqlarının eynilik/oxşarlıq dərəcəsi; 2. Testin iki hissəsi üzrə qiymətlərin müqayisə olunması.

**Davamiyyət səviyyəsi (Attendance rate) -** Tədrisə cəlb edilmiş şagirdlərin **(**tələbələrin**)** sayının orta gündəlik davamiyyətə bölünməsi ilə hesablanan faiz nisbəti.

**Davranış fənləri / elmləri (Behavioral studies/sciences) -** İnsan orqanizminin ətraf mühitə reaksiyasının öyrənilməsindən bəhs edən bütün fənləri özündə əks etdirən ümumi bölmə.

**Davranış intizamsızlığı (Behaviour disorder) -** Şəxsin qəbul edilmiş sosial davranış norma və qaydalarını pozması. Davranış intizamsızlığı nümayiş etdirən şəxslə cəmiyyət üzvləri arasında konfliktlərin yaranması labüddür.

**Davranış nəzəriyyəsi (Behaviorism)** - Psixologiyada nizam-intizamın rolunu əsas götürən və psixologiyanı davranış fənni kimi öyrənən nəzəriyyə.

**Davranış uyğunlaşması (Behavior accommodation)** - Müəyyən edilmiş qaydalara və gözlənilən davranışa əsasən motivasiya və razılaşmaların uyğunlaşması.

**Deduktiv səbəb (Deductive reasoning)** - Ümumi müddəalardan xüsusiyə doğru müəyyənləşən səbəb.

**Dekonsentrasiya (Deconcentration)** - Cavabdehlik məsuliyyətinin idarəetmə sisteminin müxtəlif səviyyələri arasında bölünməsi. Bu zaman səlahiyyət və məsuliyyət yuxarıdan aşağılara doğru paylanır.

**Dəqiq təlimat (Explicit instruction)** - Şagirdlərin yeni bilik və bacarıqlar əldə etməsinə kömək məqsədilə müəllim tərəfindən dəqiq və düzgün təlimatın verilməsi.

**Dərəcə şkalası (Rating Scale) -** Tapşırığın yerinə yetirilmə səviyyəsinin təsviredici sözlərlə ifadə olunmasına əsaslanan şkala. Nailiyyət səviyyəsini göstərmək üçün tapşırığın yerinə yetirilmə keyfiyyətindən istifadə olunur (məsələn: qabaqcıl, orta, naşı). Bu şkala hər yerinə yetirmə səviyyəsi üzrə konkret sözlərlə ifadə oluna bilər (bax***:*** **Diapazon Deskriptorları***)*.

**Dərketmə bacarıqları üzrə test (Cognitive Test) -** İnsanın öyrənmə qabiliyyəti və üslubunun müəyyənləşdirilməsi üçün tətbiq edilən qiymətləndirmə vasitəsi. Bu vasitədən, əsasən, tədris prosesinin konkret şagirdə uyğunlaşdırılması məqsədilə zəruri məlumatların əldə edilməsi üçün istifadə olunur.

**Dərrakə (Intelligence)** - Ağıl, düşüncə, şüur, anlama; dərketmə qabiliyyəti.

**Dərs (Lesson) –** Məktəbdə təlim, öyrətmə və öyrənmə prosesi, tədris işi. Müəllim konkret zaman daxilində siniflə konkret fənn üzrə məşğul olur. İstifadə olunan vasitələrdən asılı olaraq, dərsin mühazirə, açıq, izahlı, virtual dərs və s. kimi müxtəlif növləri tətbiq edilə bilər.

**Dərsin planı (Lesson Plan)** - dərs zamanı dərs vaxtını düzgün bölüşdürə bilmək üçün müəllim və şagird arasında qarşılıqlı münasibətin planlanması. Dərsin planlanmasının əsası kimi müəllimin tədris materialını şagirdlərə çatdıra bilmək üçün məqsədlər, tapşırıqlar, prinsiplər, metodlardan düzgün istifadə edilməsi çıxış edir. Dərsin planı konspekt şəklində çıxış edir.

**Dərsin strukturu (Lesson structure)** - Hər müəllimin planlaşma işini asanlaşdırmaq və səmərəli etmək üçün dərsin strukturu kimi anlayış mövcuddur. Dərsin strukturu dedikdə, onun bütün elementləri və elementlərin təşkil olunma ardıcıllığı nəzərdə tutulur. Müəllimin tətbiq etdyi yanaşmadan asılı olaraq, dərs aşağıda verilmiş elementlərdən ibarət ola bilər:

- Qısa başlanğıc tapşırığı. Belə tapşırıq şagirdlərin cari biliklərini öyrənmək və yeni biliklərə motivasiya qurmaq məqsədilə verilir.
- Dərs üçün müəyyən edilmiş təlim məqsədlərinin açıqlanması və izah olunması.
- Öyrənmə prosesi: müəllimin veridiyi izahatlar, istifadə etdiyi təqdimatlar, modellərin və nümunələrin göstərilməsi, qrup və ya bütöv siniflə işlərin aparılması, tətbiqi xarakterli tapşırıqların yerinə yetirilməsi.
- Refleksiya. Şagirdlər tərəfindən öyrəndiklərinin nümayiş etdirilməsi, bir-birinə və müəllim tərəfindən verilən əks-əlaqə, növbəti addımların müzakirəsi. Dərs sturkturunun bu elementi müəllimin dərs üçün müəyyən etdiyi təlim məqsədlərinə uyğun olaraq həm dərsin sonunda, həm də dərsin digər mərhələlərində tətbiq olunması səmərəli hesab olunur.

**Dərs ili (School year) -** Təlim prosesinə xüsusi mərasimlərlə (məs: dövlət bayramları, yay tətili və s.) əlaqədar qısa fasilələrlə müvəqqəti ara verilməsi ilə müşayiət edilən 32 - 40 həftəlik təlim müddəti.

**Dərslik (Textbook)** – Təhsil müəssisələrində təlim məqsədləri üçün istifadə olunan kitab.

**Dəst (Battery) -** Vahid blokda təqdim edilməsi planlaşdırılan bir neçə test qrupunun birləşməsi. Bu cür birləşmə, müxtəlif fənlər üzrə biliklərin vahid test bloku ilə qiymətləndirilməsinə imkan yaradır. Bu zaman əlavə fənn blokları üzrə balların qiymətləndirilməsi isə vahid qiymət əsasında aparıla bilər.

**Dəyişiklik və yeniliyin idarə edilməsi (Management of change and innovation) -** Tədris işini təkmilləşdirmək, şagirdlərin (tələbələrin) bilik, bacarıq və şəxsi inkişafını yaxşılaşdırmaq üçün təhsil müəssisəsində yeniliyin tətbiqi prosesi.

*Dəyişiklik yeniliyə* nisbətən daha fundamental anlayışdır. Elmi ədəbiyyatlarda bu söz həmişə "*yaxşılaşdırma* (*təkmilləşdirmə*)" mənasını verir. Dəyişikliyin idarə edilməsi isə daim yenilik tələb edir.

**Dəyişkənlik (Variability) -** Bölgü vaxtı qiymətlərin, yaxud göstəricilərin adətən orta göstəriciyə nəzərən paylanması.

**Diaqnostik şaxələnmə (Diagnostic branching)** - Özünü təlimatlandırma. Sistem öyrənənə onun seçməli olduğu alternativ cavabları təqdim edir. Nə öyrənmək istədiyini anlamadığını başqalarının yanında istəmədən etiraf etməli olan şəxslər üçün bu, seminar/treyninq probleminin həlli baxımından xüsusilə faydalı bir yoldur.

**Diaqnostik test (Diagnostic Test)** – Güclü, yaxud zəif cəhətlərin müəyyənləşdirilməsi və təhlili üçün tətbiq olunan test. Təhsildə problemləri olan şagirdlərin (tələbələrin) müəyyənləşdirilməsi məqsədi güdən diaqnostik testin nəticələrinə əsaslanaraq problemin aradan qaldırılması istiqamətində tədbirlər görülür.

**Didaktik təlim (Didactic instruction) -** Nəqletmə vasitəsilə təlim. Didaktik təlim prosesində müəllim şagirdə (tələbəyə) mövzu üzrə nə düşünməli olduğunu çatdırır. Şagirdin vəzifəsi isə müəllimin dediklərini yadda saxlamaq və tələb olunanda ondan istifadə etməyi bacarmaqdır.

**Dilin inkişafı (Language development) -** Digər dillərlə qarşılıqlı əlaqə və elmi-texniki inkişafla bağlı olaraq dildə baş verən dəyişikliklər.

**Dil oyunu (Language game) -** Spesifik kontekstlərdə, yaxud dil oyunları zamanı sözlərin funksiyasından yeni mənanın əmələ gəlməsi.

**Diplom (Diploma)** - *(fr.* ***Diplôme****, yun.* ***Díplōma – ikiqatlanmış sənəd****,* ***diplóō – iki yerə qatlayıram)****.* 1) ali və ya ali-ixtisas təhsil müəssisəsini bitirmək haqqında, elmi dərəcə və ya ad verilməsi barədə sənəd. 2) Müəssisə, təşkilat və ya vətəndaşın müəyyən fəaliyyəti həyata keçirtmək üçün verilən sənəd (məs. ticarət). 3) Müxtəlif məzmunlu müsabiqə, yarış, sərgi və s. nailiyyətlər üçün mükafat.

**Diploma əlavə (Diploma supplement) -** Ali təhsil haqqında diploma əlavə olunmaqla keçilmiş fənlər, onların növü, səviyyəsi, statusu və s. haqqında məlumatları özündə əks etdirən sənəd. Beynəlxalq təhsil sahəsində şəffaflığın inkişafı, müvafiq ixtisas dərəcələrinin ölkələr tərəfindən qarşılıqlı surətdə tanınması işini asanlaşdırmaq məqsədilə məzunlara diploma əlavələrin verilməsi Avropa Birliyi, Avropa Şurası və UNESCO kimi beynəlxalq qurumlar tərəfindən dəstəklənir. Diploma əlavə sənədi əsasən, iki dildə tərtib edilir.

**Direktor (Director / Principal) -** Məktəb və digər təhsil ocaqlarının fəaliyyətinə rəhbərlik edən şəxs.

**Disleksiya – oxu qabiliyyətinin pozulması (Dyslexia) -** Oxu, yazı, orfoqrafiya s. sahəsində bir-birinə təsir edən çətinliklərin birləşməsi. Bu çətinliklər sürətdə, qısamüddətli yaddaşda, uzlaşmada, dinləmə və görmə qabiliyyətində, nitqdə və s. görünə bilər.

**Dispersiya / dəyişiklik (Variance) -** Qiymət sırasında ümumi dəyişkənlik göstəricisi. Orta göstəriciyə nəzərən standart kənarlaşmanın kvadratı və ya kvadrat kənarlaşmaların orta göstəricisi.

**Dissertasiya (Dissertation) -** Elmi dərəcə almaq üçün təqdim edilən elmi əsər, tədqiqat işi.

**Distant təhsil (Distance learning) -** Tədris prosesinin virtual rejimdə, ayrı-ayrı məkanlardan müəllim və şagird (tələbə) arasında informasiya texnologiyalarının köməyi ilə yazışmalar əsasında təşkil olunduğu formal təhsil üsulu.

**Divergent fikir (Divergent thinking)** – Qeyri-standart yanaşma nəticəsində müəyyən məsələnin bir neçə həllinin verilməsi, çoxşaxəli düşüncə növü.

**Doktorantura (Doctoral studies)** – ali təhsilin ən yüksək səviyyəsi, doktorluq elmi dərəcəsinin alınmasını təmin edən yüksək səviyyəli elmi-pedaqoji kadr hazırlığı forması.

**Dövlət məktəbi (Public school)** - Hökumət tərəfindən yaradılan, idarə olunan və maliyyələşdirilən məktəb.

**Düşüncə mühiti (Domain of thought)** - Düşüncənin müxtəlif məqsəd və nəticələrə doğru istiqamətlənməsi. Düşünmə dairəsi məqsəd və nəticədən asılı olaraq daima dəyişir.

**Düzəlişlərlə təlim (Remedial teaching)** - Öyrənmə çətinliklərini təcrübədən keçirərkən şagirdlərə (tələbələrə) göstərilən köməyin xüsusi forması. "Müəllimin köməyi, inteqrasiya və xüsusi ehtiyaclar" kimi terminlərın geniş yayılmasından sonra bu təlim metodundan istifadə qismən məhdudlaşdırılmışdır.

# E

**Effektivlik (Effectiveness)** - Öyrənən tərəfin təlimə olan ehtiyacını müsbət təsirlərlə təmin edən məktəb, müəllim, tədris vəsaitləri və s. aid ümumi əlamət.

**Effektiv (Səmərəli) məktəblər (Effective schools)** – Təhsildə əldə etdiyi nəticələrlə təhsil alan şagirdlərə müsbət təsir göstərən məktəblər.

**Effektiv müəllim (Effective teacher**) - Təlimdə nəzərdə tutulmuş nəticələrə uğurla nail olan müəllim.

**Effektiv təlim (Effective teaching)** - Şagird və tələbələrin təlimdə nəzərdə tutulmuş nəticələri uğurla əldə etmələrinə yönəlmiş təlim.

**Ehtimal əmsalı (Guessing Parameter**) - Aşağı bilik səviyyəsinə malik şagirdin (tələbənin) hər bir sualı təsadüfən düzgün cavablandırması ehtimalı. Bu ehtimal ayrı-ayrı tapşırıqlar üzrə fərqli ola bilər. Ehtimal əmsalı bu amilləri nəzərə alan modelin yaradılmasına imkan verir.

**Ehtiyacların qiymətləndirilməsi (Needs assessment) -** Xüsusi vəziyyətdə məqsəd və şərtlərin əlaqəli şəkildə dəyərləndirilməsi; məqsədlərin çatışmayan cəhət və mümkün dəyişikliklərlə əlaqəli təhlili.

**Ekskursiya (Field trip)** – Şagirdlərin (tələbələrin) fənn üzrə təcrübi bacarıqlarının inkişafı məqsədilə keçirilən məktəbdənkənar təcrübi iş.

**Eksperimental təhsil (Experimental education)** - Ənənəvi sinifdaxili təlimdən fərqli olaraq, təcrübə, ekskursiya, interna və ya təcrübü yönümlü digər layihələrə əsaslanan təhsil.

**Ekvivalent formalar (Equivalent Forms)** – Eyni, yaxud oxşar məzmun və mürəkkəblik dərəcəsinə malik olan, konkret qrup üçün çox yaxın orta qiymət göstəricisi müəyyənləşdirən iki və ya daha çox test formalarından biri.

**Emosional narahatlıq (Emosional disorder)** – Şagirdlərin (tələbələrin) yüksək utancaqlıq, həyəcan və asılılıq kimi göstəricilərlə səciyyələnən narahatlıq hissi.

**Emosional və Davranış Çətinlikləri (Emosional and Behavioral Difficulties (EBD)** - Sosial, emosional və davranış inkişafı cəhətdən əlavə köməyə ehtiyacı olan şagirdlərin (tələbələrin) bu problemini təsvir edən ümumi ad.

**Empirik yanaşma (Empirical approach)** – İdrak üçün məntiqi təhlil və nəzəri ümumiləşdirmənin rolunu azaltmaqla yalnız hissi qavrayışa, təcrübəyə söykənən yanaşma.

**Erkən yaş dövrü (Infancy) –** Hər bir ölkədə uşaqların erkən yaş dövrünü müəyyən edən meyar mövcuddur ki, bu baxımdan da erkən yaş dövründə uşaqların sağlamlığı, qidalanması, inkişafı,

psixo-sosial qayğının göstərilməsi, məktəbəqədər təhsilin inkişafı sahəsində səylərin əlaqələndirilməsi, bu sahədə vahid sistemin yaradılması və s. mühüm əhəmiyyət kəsb edir.

**Erkən yaşlı uşaqların təhsili (Early Childhood Education)** - Uşaqlar üçün ibtidai təhsilə başlamazdan əvvəl məktəbəqədər müəssisə, uşaq bağçası, körpələr evi və s. tərəfindən həyata keşirilən təhsil proqramları.

**Esse (Kiçik inşa testi) (Essay Test) –** İmtahan iştirakçılarından suallara yazılı formada cavab verməyi tələb edən test. Cavablar qısa, yaxud geniş formada ola bilər. Yazılı test tapşırıqları fikri ifadə etmək, həmçinin fənn üzrə bilikləri tətbiq etmək bacarığını, məlumatı təşkil və təqdim etmək, öz fikir və nöqteyi-nəzərini ifadə etmək, orijinal yazı yazmaq kimi bacarıqları yoxlamaq məqsədi güdür.

**Etalon (Anchor) –** Hər hansı bir şeylə müqayisə üçün ən dəqiq ölçü nümunəsi. Qiymətləndirən şəxs şagirdin (tələbənin) yerinə yetirdiyi tapşırığı konkret etalonla müqayisə edərək, onu, misal üçün, 1-dən 5-ə qədər olan şkala üzrə qiymətləndirmək üçün, həmin şkalanın hər bir səviyyəsini əks etdirən etalonlardan istifadə edir. Böyük Britaniyanın təhsil müəssisələrində “etalonlar”, adətən, “yazılı iş nümunələri”, yaxud “müqayisə nümunələri” adlandırılır.

**Etalon tapşırıqlar (Anchor items)** – İki (yaxud daha çox) test variantının sistematik şəkildə əlaqələndirilməsi üçün istifadə edilən və oxşar xüsusiyyətlərə malik tapşırıqlar. Hər iki testdəki etalon sualların cavablarının təhlili və statistik metodlar vasitəsilə verilən qiymətlər bütün variantlar üzrə uzlaşdırılır.

**Etibarlılıq (Reliability)** - Qiymətləndirmə nəticələrinin asılı olduğu bilik və bacarıq səviyyəsinin dəqiq müəyyən edilməsi. Etibarsız sayılan qiymətləndirmə həqiqi hesab edilə bilməz.

**Etnik mənsubiyyət (Ethnicity)** – Milli xüsusiyyətlərin əsası; ictimai münasibətlər sistemində milli azlığın irqi, dini, mədəni və s. baxımdan səciyyəvi əlamətləri.

**Ev tapşırığı (Homework) –** Fənn üzrə müəyyən edilmiş məsələlərlə əlaqədar müəllim tərəfindən şagirdlərə (tələbələrə) verilən və sinifdən kənarda yerinə yetirilməsi nəzərdə tutulan tələb. Ev tapşırıqları şagirdin (tələbənin) oxu, yazı, danışıq, yadda saxlama, problemi həll etmə və s. vərdişlərinin inkişafına, təcrübi bacarıqlarının təkmilləşməsinə yönəlir.

Ev tapşırıqlarının müntəzəm verilməsi və onların yerinə yetirilmə səviyyəsinin qiymətləndirilməsi təlimin bütün dövrləri üçün xarakterikdir.

**Evə baş çəkmələr (Home visits) -** Məktəb pedaqoji heyətinin şagirdlərin (tələbələrin) evlərinə baş çəkərək onları öz ev mühitlərində öyrənməsi.

**Evdə təlim (Home schooling) –** Təhsil müəssisələrində həyata keçirilən tədrisdən fərqli olaraq, təlimin xüsusi qayğiya ehtiyaci olan şagirdlərə (tələbələrə) ev şəraitində verilməsi.

## Ə

**Ədalət prinsipi (Equity) -** Düzgün, ədalətli, azad təhsil siyasəti və təcrübəsi.

**Ədalətsiz imtahan təcrübəsi (Malpractice) -** İmtahan norma və qaydalarına zidd olaraq imtahan edilənə ədalətsiz şəkildə üstünlük verilməsi, yaxud əksinə, imtahan edilənin məqsədli şəkildə çətin vəziyyətə salınması ilə müşahidə olunan qanun pozuntusu.

**Əks əlaqə (Feedback) -** Qiymətləndirmənin nəticələri barədə nəzəriyyəçi-pedaqoqlara, qiymətləndirmə siyasətini müəyyən edən şəxslərə və b. təqdim edilən müsbət xarakterli müntəzəm hesabat. İmtahan götürən şəxslərin müəllimlər üçün hazırladığı hesabat əks əlaqəyə nümunə sayıla bilər.

**Əks-mərkəzləşmə (Decentralization)** - İnkişafın bütün istiqamətlərinə təsir gücünə malik olan, genişmiqyaslı siyasi, iqtisadi, inzibati və s. dəyişiklikləri əhatə edən siyasət. Məktəbin fəaliyyətinə dair qərarvermə səlahiyyətinin mərkəzləşmiş səviyyədən yerli səviyyəyə keçməsi əks-mərkəzləşməyə nümunə ola bilər.

**Əks təsir effekti (Backwash Effect)** – Qiymətləndirmə mexanizminin tədris prosesinə mənfi, yaxud müsbət təsiri.

Məsələn, yalnız məhdud sayda faktlara dair biliklərə qiymət verildiyi imtahanların sonda materialın mexaniki şəkildə əzbərlənməsinə gətirib çıxarması mənfi əks təsir kimi qəbul olunur.

Laboratoriya tapşırıqları üzrə təcrübi bacarıqları qiymətləndirən imtahanın şagirdləri təcrübi fəaliyyətə və analitik düşüncəyə həvəsləndirməsi isə müsbət əks təsir kimi nəzərdən keçirilə bilər.

**Əqli model (Mental model) –** Əsas söz nümunələrinin məkani ardıcıllığını təhlil etmək və mətnin strukturuna uyğunluğunu müəyyənləşdirməklə mətni işləmə sxemi.

**Əlaqə / korrelyasiya (Correlation)** – Müqayisə edilən anlayışların bir-biri ilə münasibət və asılılığı.

**Əlaqə nisbəti (Contact ratio)** - Məktəbin müstəsna hüququndan asılı olaraq, bir və ya iki həftə ərzində dərs saatlarının orta rəqəm nisbəti. Nisbət həftəlik və ya iki həftəlik dərs cədvəlindəki ümumi saatların faizi və ya onluq kəsr kimi ifadə olunur.

**Əlavə dəyər (Value added) -** Öyrənənlərin məktəb tərəfindən əlavə material ilə təmin edilməsi dərəcəsini bildirmək üçün istifadə edilən termin.

**Əlavə imtahan** (**Supplementary Examination) -** Əsas imtahandan sonra şagirdə (tələbəyə) lazımi nəticəni əldə edə bilmədiyi fənlər üzrə təkrar imtahan vermək imkanının yaradılması.

**Əlçatanlıq (buraxılış, çıxış) (Access) -** İnsanların ehtiyacı olan müxtəlif məlumat və xidmətləri qanunvericiliyə uyğun şəkildə əldə edə bilmək hüququ.

**Əlillik (Disabilities)** – Fərdin qabiliyyətlərinin inkişafı prosesinin müvafiq normalara uyğun gəlməməsi. Bu uyğunsuzluq özünü *fiziki, ictimai, emosional, münasibət, davranış, idraki* istiqamətlərdə göstərə bilər.

**Əminlik intervalı (Confidence interval) -** Ümumi göstəricinin əldə ediləcəyinə əminlik dərəcəsinin hüdudları; həmin hüdudların müəyyən etdiyi orta göstəricidən kənarlaşmanı bildirmək üçün standart vahidlərlə ifadə edilən ara məsafə.

**Əsas fənn (Core subject)** - Tədris kursunda bütün tələbələr üçün icbari olan fənn.

**Əsas tədris məşğələləri (Core academics) -** Orta məktəblərdə tədrisi tələb olunan fənlər. Bura əsasən, ana dili, tarix, riyaziyyat, kimya, fizika, biologiya və s. daxildir.

**Əsas tədris planı / kurikulum toplusu (Core curriculum)** – Məktəblərdə bütün şagirdlər (tələbələr) tərəfindən öyrənilməsi tələb edilən biliklərin əsas hissəsi.

**Əsas təhsil (Basic Education)** – cəmiyyətdə yaşaya bilmək üçün qaydaların, bilik və bacarıqların öyrənilməsinə yönələn və bir çox hallarda məcburi olan təhsil; əmək fəaliyyətinə başlamazdan əvvəl alınmış və yetkinlik yaşında təhsilin davam etdirilməsinə istiqamətlənmiş təhsil. Müxtəlif təhsil sistemlərində əsas təhsilin müddəti fərqli ola bilər, məs., Azərbaycanda əsas təhsil pillələri 1- 9 və 1-11-ci siniflər hesab edilir.

## F

**Fəal təlim - (İnteractive learning)** - Şagirdlərin fəal idrak fəaliyyətinə əsaslanan və təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitində həyata keçirilən təlim. “İnteraktivlik” termini

“dialoq, qarşılıqlı təsir və ya əlaqə” deməkdir; çox vaxt “interaktiv təlim metodları”, “problem-dialoq”, “problemli”, “evristik təlim *(yaradıcı təfəkkürün formalaşdırılması)*” anlayışlarından da istifadə olunur. Fəal (interaktiv) təlim – tədrisin və idrak fəaliyyətinin təşkili və idarə olunması metodlarının məcmusudur. Bu təlim üçün aşağıdakı cəhətlər səciyyəvidir:

- *müəllim tərəfindən şüurlu surətdə (iradi olaraq) idraki problem situasiyasının yaradılması;*
- *problemin həlli prosesində şagirdlərin fəal tədqiqatçı mövqeyinin stimullaşdırılması;*
- *şagirdlər üçün yeni və zəruri olan biliklərin müstəqil kəşfi, əldə edilməsi və mənimsənilməsi üçün şəraitin yaradılması.*

**Fəaliyyət mərkəzləri (Activity centers) -** Sinfin müxtəlif tədris materiallarının yerləşdirildiyi guşəsi.

**Fəaliyyət tədqiqatı** (**Action research**) **-** Tədqiqatçının konkret məsələ ilə bağlı real ictimai vəziyyəti öyrənərək öz tədqiqatının nəticələrini təkmilləşdirmək məqsədilə apardığı araşdırma. Təhsildə muəllimin peşəkar təcrübəsinə aid təşkil etdiyi araşdırma növüdür və aşağıdakı mərhələləri əhatə edir: pedaqoji təcrübəyə aid məsələnin müəyyənləşdirilməsi, planlaşdırma, fəaliyyət, monitorinq, qiymətləndirmə (refleksiya).

**Fəxri ad və ya dərəcə (Honorary degree)** – Elmi-pedaqoji təcrübə və fəaliyyəti ilə fərqlənən şəxslərə, eləcə də dünya elm və təhsilinin inkişafında xüsusi xidmətləri olan xarici ölkələrin alim və ictimai xadimlərinə ali təhsil müəssisəsi tərəfindən müəyyən edilmiş qaydada verilən akademik fəxri ad / dərəcə.

**Fənn (Subject)** - hər hansı bir elm və ya elmlər toplusunun didaktik əsaslandırılmış sistemi. Məzmunu təlim, tərbiyə, təhsil ilə birbaşa bağlı olan fənn elmə xas olan materialın konkret təqdim edilməsini göstərir.

**Fərd (İndividual)** - 1) vahid təbiət varlığı olan insan *Homo sapiens* növünün nümayəndəsidir. *Fərd* anlayışı öz-özlüyündə insanın insan növü ilə əlaqəsini göstərir; 2) insan cəmiyyətinin ayrıca götürülmüş nümayəndəsi hesab edilir.

**Fərdi Tədris Proqramı (FTP) (İndividualized Education Program (IEP)) -** Tədris planı və təlimat strategiyalarının fərdin inkişaf səviyyəsinə, maraq və ehtiyaclarına istiqamətləndirilmiş öyrənmə üsuluna əsasən tərtibi.

**Formal təhsil (Formal education)** - Yüksək səviyyədə müəssisələşdirilərək, strukturlara bölünmüş və təhsilin nəticələrinə dair rəsmi sənədin verilməsi ilə başa çatan təhsil.

**Formativ qiymətləndirməsi (Formative assesment)** - Müəllimin şagirdin (tələbənin) güclü və zəif cəhətlərini müəyyən etməklə onun şəxsiyyət və xasiyyətinin inkişafı üçün apardığı ən əhəmiyyətli və yaradıcı qiymətləndirmə forması.

*Formativ qiymətləndirmə* tədirs prosesi zamanı baş verən qiymətləndirmə növüdür. Formativ qiymətləndirmə müəyyən olunmuş göstəricilər əsasında şagirdlərin bilik və bacarıqlarının formalaşma səviyyəsini müəyyənləşdirməyə imkan yaradır və tədris prosesinin düzgün istiqamətləndirilməsinə kömək edir. Formativ qiymətləndirmə zamanı şagirdin daha irəliyə addım atması üçün müəllimlər tərəfindən ehtiyaclar müəyyənləşdirilir.

**Fotomexaniki orijinal-maket (Camera-Ready Copy (CRC) -** İmtahan tapşırığının çap edilmiş və imtahan masasına qoyulmuş son variantı.

## G

**Gender meylliliyi (Gender bias)** – Cinsi mənsubiyyətindən asılı olaraq qadın və kişilərə qarşı şüurlu yaxud təhtəlşüura əsaslanan, qərəzli, yaxud diskriminativ xarakter daşıyan fərqli davranış. *Gender meylliliyi* anlayışına seçki qanunvericiliyində, işə qəbul qaydalarında və ya təhsil ocaqlarında xüsusi diqqət yetirilməlidir.

**Gimnaziya (Gymnasium) -** Əsasən humanitar sahədə istedad və qabiliyyəti ilə fərqlənən şagirdlər üçün təmayüllər üzrə fənlərin daha dərin öyrənilməsini təmin edən ümumtəhsil müəssisəsi. Təhsilin konkret istiqamətindən asılı olaraq, gimnaziya şagirdin seçdiyi ixtisas üzrə lazımi ümumtəhsil fənləri və əsas kursları mənimsəməsinə şərait yaradır.

**Giriş (pedaqoji karyeranın ilkin mərhələsi) (Induction)** – Pedaqoji fəaliyyətə başlamazdan əvvəl pedaqoji fakültə tələbələrinə və gənc muəlimlərə dəstək məqsədi ilə təhsil siyasəti, təcrübəsi və muəllim peşəkar normalarının öyrədildiyi başlanğıc mərhələyə aid kurs və ya proqram.

**Gizli xüsusiyyətlər nəzəriyyəsi (Latent Trait Theory) -** (bax: **TCN - Tapşırığa Cavab Nəzəriyyəsi.**)

**Gizli kurikulum (Hidden curriculum) -** Öyrədilmiş tədris proqramının formal quruluşundan kənarda uşaqlara təsir edən bütün məktəb təcrübələri.

**Göstərici (Indicator) -** Məktəb və ya şagirdlərin göstəriciləri haqqında məlumat əldə edən statistika. Statistik göstərici standartlarına ibtidai təhsil göstəricisi kimi şagird nailiyyətlərinin təqdimatı daxildir. İkinci dərəcəli göstəricilərdə şagirdlərin davamiyyət, çeviklik, dərsburaxma, məktəbi bitirmə, təkrar sinifdəqalma və məktəbi yarımçıq tərketmə kimi statistik məlumatlar əks etdirilir.

**Göstərici/səmərəlilik meyarı (Performance criteria)** – Şagirdin (müəllim, direktor və ya məktəbin) qiymətləndirilməsinə dair standartlar. Bu meyarlar qiymətləndirən tərəfin obyektiv olmasına imkan yaradır, qiymətləndirilən tərəfi isə gözlənilən məlumatlarla təmin edərək onlara daha səylə və məqsədyönlü çalışmaq üçün mühüm tövsiyələr verir.

**Güzəştə getmə xətası (Leniency Error)** – İmtahan edənin müəyyən amillərin təsiri altında qiymətləndirmə zamanı imtahan edilənə üstünlük vermə meyli. *(*bax*:* **Görünüş Effekti***)*.

## H

**Hekayə / rəvayət xəritəsi (Story map) - 1.** Mətndə hadisələrin ardıcıllıqla uzlaşmasını göstərən vaxt sırası. **2.** Ardıcıllıq hesaba alınmadan mətndə hadisələr və anlayışlar arasında məna əlaqələrini göstərən semantik xəritə.

**Hekayə metodu (Story method)** - İlk dəfə XIX əsrin sonlarında təqdim edilmiş bu oxu təliminə əsasən, tələbələr mətnin hissələri ilə işləməzdən əvvəl bütün mətni öyrənirdilər.

**Hesabat (Accountability)** – Təhsil prosesində iş fəaliyyətində əldə edilmiş nəticələrin onların tamlığı, keyfiyyət və səmərəliliyi baxımından nəzərə alınması.

**Hesablama meyarları (Scoring criteria) -** Şagirdin tapşırığa verdiyi cavabı xarakterizə etmək üçün ona verilən qiymətin hesablanma qaydaları. Hesabat meyarları qiymətləndirmə şkalalarını, nəzarət-yoxlama cədvəllərini, suallara düzgün cavabları və s. bu kimi qiymətləndirmə vasitələrini özündə birləşdirə bilər.

**Hesablama / Qiymətləndirmə açarı (Scoring Key) -** Test olunan şəxsin cavablarının müqayisə edildiyi standart. Düzgün və ya gözlənilən cavabların siyahısı (bax: **Qiymətləndirmə Sxemi**).

**Heyət / Kontingent (Cohort) -** Eyni tədris, yaxud qiymətləndirmə kateqoriyasına aid şagird qrupu. Məsələn, "riyaziyyat öyrənən bütün şagirdlər", yaxud "iyunda biologiyadan imtahan vermiş bütün namizədlər" heyət və ya kontingent sayıla bilər.

**Həmkar rəyi (Peer review)** – Müəllimin fəaliyyəti, tətbiq etdiyi təlim metodları və əldə etdiyi nəticələrin digər bir müəllim tərəfindən qiymətləndirilməsi. Həmkar rəyi adətən qiymətləndirilən müəllimin peşəkarlıq səviyyəsinin artırılması, fəaliyyətinin təkmilləşdirilməsi məqsədi daşıyır.

**Həqiqi qiymət (True Score) -** Tam uyğun olan sonsuz sayda testlərin keçirilməsi zamanı verilən orta qiymət. Bu, təcrübi effektin əldə olunmadığı, yaxud test prosesində imtahan edilənin dəyişdirildiyi vaxt tətbiq edilir.

**Histoqram** (**Histogram) -** Statistik məlumatları əks etdirən cədvəl. Müxtəlif sıxlıqlı qiymətlərin və ya qiymət qrupunun göstərilməsi üçün şaquli sütunlardan istifadə etməklə bölgü sıxlığının qrafiki təsviri.

## X

**Xüsusi qayğıya ehtiyaci olan uşaq (Child with disabilities) –** Fiziki, yaxud əqli geriliyi olan uşaq (bax: **Uyğunlaşdırma** və ya **Tətbiq edilmə**).

**Xüsusi qayğıya ehtiyacı olan şagird (Student with disabilities)** - Fiziki, yaxud əqli geriliyi olan və tədris prosesində xüsusi yanaşma tələb edən şagird.

**Xüsusi təhsil (Special education)** - İntellektual, fiziki, sosial, yaxud emosional inkişafına görə digər həmyaşıdlarından fərqlənən şagirdlər üçün xüsusi məktəb təlimi.

## İ

**İbtidai məktəb (Primary school)** - 5-7 yaşından 8-10 yaşına qədər olan şagirdlər üçün nəzərdə tutulmuş təhsil müəssisəsi. Təhsil sistemləri arasındakı müxtəlif cəhətlərdən asılı olaraq ayrı-ayrı ölkələrdə ibtidai məktəblər fərqli ola bilər. İbtidai məktəb, əsasən, 6-8 sinifdən ibarət olur. Aşağı ibtidai siniflərdə təlim sinif müəllimləri, yuxarı ibtidai siniflərdə isə fənn müəllimləri tərəfindən həyata keçirilir.

**İcbari təhsil (Compulsory education)** – Müvafiq qanunvericiliyə əsasən uşaqların və yeniyetmələrin müəyyən yaş həddinə qədər təhsilə məcburi cəlb edilməsi. Azərbaycan və əksər ölkələrdə natamam orta təhsil hesab edilən icbari təhsil müddəti doqquz ildir.

**İcma təhsili/məktəbləri (Community education/schools)** – Xaricdə yayılmış bu məktəblər yerli hökumət tərəfindən maliyyələşdirilən təhsil müəssisələridir. İcma məktəblərinə daxil olmaq üçün orta məktəb təhsili haqqında şəhadətnamə tələb olunur. İcma məktəblərinin qarşısında duran məqsədlər - ətraf mühit hadisələri və yeni texnologiyaları öyrətməklə orta təhsilli tələbələrin biliklərində olan nöqsanları aradan qaldırmaq, onları təhsilin sonrakı pillələrinə daxil olmağa hazırlamaqla yanaşı, yerli icmanın ehtiyacı olan sahələrdə çalışmaqlarına yardım etməkdir.

**İcma təşəbbüsləri\hərəkatı (Grassroots) -** Yerli səviyyədə siyasi, yaxud sosial dəyişiklik fəaliyyətinə kütləvi şəkildə başlamağa can atan geniş əhali qrupu.

**İctimai elmlər (Social sciences) -** Cəmiyyət və ictimai münasibətləri öyrənən elmlər. Psixologiya, sosiologiya, antropologiya, dilçilik, iqtisadiyyat, coğrafiya və s. elmlər ictimai elmlərə aiddir.

**İctimailəşdirmə (Socialization)** – Fərdin ictimai norma, tələb və dəyərləri mənimsəyərək, cəmiyyətə inteqrasiya olunması.

**İdarəçilik (Governance) –** Konkret istiqamət üzrə məqsədlərin müəyyənləşdirilməsi və həmin məqsədlərə çatmaq üçün aparılan fəaliyyətin təşkili və nəzarətdə saxlanması.

**İdraki inkişaf / təkamül (Cognitive development / growth)** - Biliklərin formalaşması, bunun əsasında insanın hərəkətlərinin məqsəd və motivlərinin meydana gəlməsi.

**İdraki öyrənmə modelləri (Cognitive Learning models)** - Öyrənənlə ətraf mühit arasında qarşılıqlı əlaqənin nəticəsi kimi meydana çıxan və əqli struktur dəyişikliklərinə təsir edən öyrənmə modelləri.

**İxtisaslaşmış məktəb (Magnet school)** – Konkret təmayüllər üzrə xüsusi tədris planı təklif edən və müasir maddi-texniki bazası olan ibtidai, yaxud orta məktəb.

**İkidilli təhsil (Bilingual education) -** Ana dilində danışmayan şagirdlərə (tələbələrə) təlim prosesində eyni vaxtda həm ana dili, həm də xarici dil öyrədilməsini nəzərdə tutan təhsil proqramı.

**İlkin qiymət (Raw Score)** – Düzgün cavablandırılan test tapşırıqlarının, yaxud toplanılan balların sayına görə imtahan edilən şəxsə verilən ilkin qiymət. Digər göstəricilər də nəzərə alınmaqla, ilkin qiymətdə düzəlişlər edilə bilər.

**İlkin test (Pre-test) -** Real imtahanda veriləcək tapşırıqların *səmərəliliyi* və *çətinlik dərəcəsini* müəyyənləşdirmək üçün həmin tapşırıqların pilot qrupda sınaqdan keçirilməsi.

**İmtahan (Examination)** – Təhsil müəssisəsi tərəfindən təyin edilmiş vaxtda keçirilən yazılı və ya şifahi qiymətləndirmə.

**İmtahan Mərkəzi (Examination Centre) -** İmtahanların keçirilməsi üçün rəsmi qaydada seçilmiş və adətən, təhsil müəssisələrinin binasında yerləşən məkan.

**İmtahan riski (Stake (of an examination**) – İmtahan nəticələrindən asılı olaraq imtahan edilənin qazandığı, yaxud itirdiyi imkanlar. Uğurlu nəticələri iştirakçılara böyük imkanlar qazandıran imtahanlar adətən güclü rəqabətlə müşayiət olunur və iştirakçılardan böyük səy tələb edir.

**İmtahan edilənin yazılı işi (Script) –** İmtahan edilənin doldurduğu cavab kartı (vərəqəsi).

**İndikator / göstərici (Indicator)** - Təhsil indikatoru olaraq, statistik göstərici məktəb və ya şagird fəaliyyətinin nəticələrini özündə əks etdirir və müvafiq standart normalarına cavab verir.

Əsas təhsil göstəricilərinə şagirdlərin öyrənmə səviyyəsi, ikinci dərəcəli təhsil göstəricilərinə isə dərsə davamiyyət, məzunların sayı, dərsdən yayınma səviyyəsi və s. kimi məsələlər daxildir.

**İnduktiv əsaslandırma (Inductive reasoning) -** Xüsusi hallardan və nümunələrdən əldə edilən ümumi nəticələr. İrəli sürülən mülahizələrin doğru olduğu güman edilsə də, onların həqiqi olub-olmamasına əminlik yoxdur.

**İnkişafa uyğun təcrübə (Developmentally appropriate practice, DAP)** – Hər bir şagirdin (tələbənin) inkişaf səviyyəsinin artması üçün faydalı çalışma və tədris materiallarından fərdi istifadə etməsi.

**İnklüziya (Inclusion)** – Məktəbdə təhsil alan bütün şagirdlərin tədris prosesinə cəlb edilməsi və onların təliminin təkmilləşdirilməsinə, bu məqsədlə məktəb təcrübəsinin hərtərəfli tədqiqinə və inkişafına yönəlmiş daimi prosesdir. Məs: Xususi qayğıya ehtiyacı olan uşaqların sağlam həmyaşıdları ilə birlikdə eyni məktəb və siniflərdə eyni program ilə təhsil almaq hüququnu təmin edən tədris modeli. Bu üsul *xüsusi qayğı və bərabərliyə yönəlmiş* məkan və programların tətbiqini inkar edərək, bütün şagirdlər üçün bərabər tədris şəraiti yaradır.

İnklüziya yanaşması təkcə fiziki qüsurlarla deyil, irqi ayrıseçkilik, gender və sosial təbəqələşməyə qarşı yanaşma və strategiyaların tətbiqini də nəzərdə tutur.

**İnklüziv Təhsil (Inclusive Education)** – Sağlamlığından, bacarığından, ailə vəziyyətindən, irqindən, dinindən, asılı olmayaraq bütün uşaqların təhsil prosesində və həyatda bərabərhüquqlu iştirakını təmin edən təhsil növü.

*İnklüziv təhsil* modelinə valideyn himayəsindən məhrum, kimsəsiz, çətin tərbiyə olunan, içki və narkomaniya kimi zərərli vərdişlərə meylli olan, təhsildən kənarda qalan, hüquqları pozulan, zorakılığa məruz qalan uşaqların cəlb olunması nəzərdə tutulur.

Bu təhsil xususi qayğıya ehtiyacı olan uşaqların nəinki sağlam həmyaşıdları ilə birlikdə təhsil almasına, həm də onların ümumi inkişafına, öz fiziki imkanlarına inamına, psixoloji maneələrin öhdəsindən gəlmələrinə yardım göstərir.

*İnklüziv təhsil* aşağıdakı 8 prinsipə əsaslanır:

*1) İnsanın dəyəri onun bacarıqları və nailiyyətləri ilə ölçülmür;*
*2) Hər bir insan hiss etmək və düşünmək qabiliyyətinə malikdir;*
*3) Hər bir insan ünsiyyət hüququna malikdir;*
*4) Bütün insanların bir-birinə ehtiyacı vardır;*
*5) Əsl təhsil yalnız real qarşılıqlı munasibətlər zəminində həyata keçirilə bilər;*
*6) Bütün insanlar öz həmyaşıdlarının köməyi və dostluğuna ehtiyac duyurlar;*
*7) Bütün təhsilalanların nailiyyətlərinin artması onların nə edə bilmədikləri ilə deyil, əksinə, nə etməyi bacardıqları ilə ölçülür.*
*8) Müxtəliflik və rəngarənglik insanın bütün cəhətlərini inkişaf etdirir.*

**İnnovasiya (İnnovation) -** müxtəlif təşəbbüs və elmi tədqiqatlar əsasında formalaşan mütərəqqi xarakterli, səmərəli yenilik və ixtiralar.

**İnsan Haqları Təhsili (Human Rights Education, (HRE) -** İnsan haqlarının tarixi və qanunauyğunluqlarının, insanların münasibət və davranışlarının öyrənilməsinə yönəlmiş təlim.

**İntellektual test (Intelligence Test) –** Fərdin öyrənmə bacarığını və ya intellektual bacarıqlarını üzə çıxarmaq məqsədilə tətbiq edilən test. İntellektual bacarıqlar dedikdə, qarşılıqlı münasibətləri duymaq, anlamaq, assosasiya yaradan fikirləri yada salmaq bacarığı və s. nəzərdə tutulur.

**İnteraktiv bacarıqlar (Interactive skills).** Qarşılıqlı ünsiyyətə əsaslanan interaktiv bacarıqlar təlim prosesində söhbət və dialoq rejimində fəaliyyəti təmin edir.

İnteraktiv təlim metodları biliklərin hazır şəkildə verilməsini deyil, şagirdlərin bu bilikləri birlikdə axtarıb tapmalarına yardımı nəzərdə tutur; bu zaman müəllim təşkiledici, əlaqələndirici, istiqamətverici və məsləhətverici, şagirdlər (tələbələr) isə təcrübəçi, tədqiqatçı və yaradıcı subyektlər kimi fəaliyyət göstərirlər.

**İnteqrativ kurikulum (Integrated curriculum) -** Tematik vahiddə birləşmiş iki və daha çox sahənin müzakirə predmeti.

**İnterpretasiya, şərh etmə (Interpretation) -** Test üzrə qiymətləndirmənin şagirdlərə (tələbələrə) izah edilməsi. Burada məqsəd onların qiymətləndirmənin hər bir mərhələsini, qiymətləndirməyə dair anlayışların mahiyyətini başa düşmələrini təmin etməkdir. Şərhetmə zamanı şagird (tələbə) məsələn, faiz nisbəti dedikdə, düzgün cavab verilən tapşırıqların faiz nisbətinin deyil, standart qrupda konkret həddən aşağı nəticələr göstərən şagirdlərin faiz nisbətinin nəzərdə tutulduğunu öyrənir.

**İntizam (Discipline)** – Təlim prosesində həm öyrədən, həm də öyrənənlər üçün ümumi davranış qaydalarını müəyyən edən normaların məcmusu.

**İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (Organization for Economic Co-operation and Development, OECD)** – 1948-ci ildə Fransada yaradılmış təşkilat. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı yüksək iqtisadi gəlirlərə və **İnsan İnkişafı İndeksinə** (**Human Development Index - HDI**) malik 30 ölkəni özündə birləşdirir və üzv ölkələrin forumu kimi fəaliyyət göstərir. Bu təşkilat müxtəlif dövlətlərin təhsil sistemlərində aparılan elmi tədqiqatlarla əlaqədar hesabatlar nəşr etdirməklə təhsil siyasətinə dəstək verir.

**İstedadlı uşaqlar (Gifted children) -** Öz qabiliyyətlərinə görə yüksək nailiyyət göstərən uşaqlar. Bu uşaqların inkişaf perspektivləri xüsusilə onların intellektual, akademik, bədii yaradıcılıq sahələrindəki potensial imkanları və uğurlarının səviyyəsi ilə müəyyən olunur. Onlarda yaradıcı təfəkkür və yaradıcı təxəyyülün inkişaf səviyyəsi bu uğurların başlıca rəhni kimi qiymətləndirilir. Vaxtilə psixologiya elmi istedadı qabiliyyətlərin inkişafı üçün zəruri olan anatomik-fizioloji imkanlar kimi nəzərdə tuturdu. Bu anlam tədricən köklü surətdə dəyişildi: hazırda istedad fəaliyyətin səmərəli şəkildə icrası üçün şərt olan qabiliyyətlərin özünəməxsus kompleksi kimi başa düşülür.

**İstehsalat təcrübəsi (Field study)** - peşə-ixtisas təhsilinin mütləq tərkib hissəsi, təhsil alanların konkret ixtisas hazırlığı üçün müvafiq standartlara uyğun praktiki fəaliyyəti.

**İstiqamətləndirici kəşf (Guided discovery)** - Müəllimin yönəldici suallar verməklə istiqaməti müəyyənləşdirməsi, bilik və təcrübəsini məhz bu istiqamət üzərinə yönəltməsi.

**İştirak nisbəti (Participation rate)** - Məktəbyaşlıların qeydiyyat sayının həmin yaş səviyyəsində olan əhali qrupunun ümumi sayına nisbəti.

**İz qoymadan açılması mümkün olmayan paket (Tamper-evident Packaging)** - İmtahan materiallarının yerləşdirilməsi üçün nəzərdə tutulmuş plastik zərflər. Bu zərfləri iz buraxmadan yenidən bağlamaq mümkün deyil.

## J

**Jurnalistika modeli (Journalism model)** – İnformasiyaların əhəmiyyətlilik dərəcəsinə görə bir-birini izləməsinə əsaslanan yazılı model. Bu model üstün informasiya seçiminin öyrədilməsi təlimində faydalıdır. Jurnalistika modeli bəzi mənbələrdə *Çevrilmiş Piramida* da adlanır.

## K

**Kampus (Campus)** - müvafiq maddi-texniki baza və infrastruktura malik tələbə şəhərciyi şəklində təhsil kompleksi.

**Karusel metodu (**Carousel Method**) -** Bu üsula *Fırlanğıc (Karusel) Metodu* adının verilməsi, bir neçə şagird və ya tələbədən ibarət işçi qrupların müəyyən bir məsələnin həlli üzərində növbə ilə işləyərək öz rəylərini ifadə etməsi ilə izah edilir. Məqsəd - müzakirələrdə bütün şagirdlərin fəal iştirakını təmin etməklə daha çox nəticələr əldə etməkdir.

**Kənarlaşma (Deviation)** - Qiymətləndirmə üçün müəyyən edilmiş meyardan fərqlənən göstərici.

**Kəşf metodu (Discovery method)** – Şagirdlərin yaddaşını elmi biliklərlə zənginləşdirmək və onların təfəkkürünü inkişaf etdirmək məqsədilə, daha çox bilik, bacarıq və vərdişlər mənimsənilməsinə, şəxsi keyfiyyət və qabiliyyətlər qazanılmasına yönəlmiş metod.

Kəşf metodunun tətbiqi zamanı şagird – “kəşf edən”, “tədqiqatçı” mövqeyində; müəllim isə “vasitəçi”, “bələdçi”, “aparıcı” mövqeyindədir.

Şagirdlər təlim prosesinin tamhüquqlu iştirakçısı kimi problemli məsələləri fəal tədqiqat və kəşflər yolu ilə müstəqil həll edir, hadisələrin səbəb-nəticə əlaqə və qanunauyğunluqlarını araşdıraraq, nəticə çıxarmağı, dərin ümumiləşdirmələr aparmağı öyrənirlər.

Müəllim isə metodiki kömək göstərərək tədqiqat üçün şərait yaradır və onu planlı şəkildə istiqamətləndirir.

**Klassik tapşırıq / sual statistikası (Classical Item Statistics) -** Testdə iştirak edən qrupdan asılı olaraq, həmin qrupun cavablarının təhlili yolu ilə test elementinin xüsusiyyətini (yəni tapşırıqların mürəkkəblik dərəcəsi və seçim imkanını) xarakterizə edən statistika. (bax: **TOV**).

**Komenius proqramı (Comenius Programme)** – Şagird, tələbə və müəllim heyətinin müxtəlif mübadilə programlarında iştirakını təmin edən Avropa Şurası Sokrat/Erasmus Proqramı çərçivəsində fəaliyyət göstərən 3 hissəli təhsil layihəsi.

Burada məqsəd məktəblər arasında transmilli əməkdaşlığı müdafiə etməklə, məktəb təhsili sektoruna daxil olan kadrların peşəkar inkişafına imkan yaratmaqla Avropa məktəb təhsili sistemini təkmilləşdirməkdən, keyfiyyət meyarlarını gücləndirməkdən ibarətdir.

**Kommunikativ yanaşma (Communicative Approach) -** Səhvlərin düzəldilməsindən daha çox fəal ünsiyyətə cəlb etmə prinsipinə əsaslanan və əsasən, xarici dillərin tədrisi zamanı geniş istifadə edilən öyrətmə üsulu.

**Kompüter biliyi (Computer skills)** - Texnoloji təhsilin bir hissəsi olan kompüter biliyinin tərkibinə aşağıdakı bilik və bacarıqlar daxildir:

- *hesablama texnologiyası və informatikanın əsas anlayışlarına bələd olmaq;*
- *kompüter texnologiyasının əsas quruluş və funksional bacarıqlarına yiyələnmək;*
- *müasir əməliyyat sistemləri və onların əsas komandalarını mənimsəmək;*
- *müasir proqram (Norton Commander, Windows) və onların fayl genişlənmələrini bilmək;*
- *ümumi təyinatlı əməliyyat vasitələrinin əsas funksiyalarını bilmək;*
- *ən azı bir mətn redaktorunda işlətməyi bacarmaq;*
- *proqramlaşdırma alqoritmi, dili və paketi barədə ilkin təsəvvürə malik olmaq;*
- *utilitar məqsədli tətbiqi proqramların ilkin istifadə təcrübəsini qazanmaq* və s .

**Konstruktivizm (Constructivism)** – Mürəkkəb fikir və terminlərin minimuma endirilərək ideyanın məzmunlu şəkildə izahına əsaslanan yanaşma.

Başlıca vəzifə formal sistemdə baxılan obyekt və onlar haqqındakı fikirlərin ardıcıl qurulmasından ibarətdir. Təlimdə konstruktivizm tərəfdarlarının iddia etdiyinə görə, öyrənmə prosesinə ideya məzmununun açılması, habelə şagirdlərin inamı böyük təsir göstərə bilər.

**Köməkçi müəllim (Resource teacher)** - İbtidai və orta məktəblərdə xüsusi qayğıya ehtiyacı olan şagirdlərin təhsili ilə məşğul olan yardımçı müəllim.

**Kriteriya (Benchmark) -** Təlimin müxtəlif pillələrində, yaxud konkret yaş dövrlərində dövlət tərəfindən təyin edilmiş biliklərin kurikulum vasitəsilə bütün təhsil alanlara eyni səviyyədə öyrədilməsini təmin edən təhsil standartları.

**Kriteriyaya əsaslanan test (Criterion-Referenced Test, (CRT)** – Konkret meyarlara əsasən biliklərin hansı səviyyədə əldə edildiyini yoxlamaq məqsədilə keçirilən test.

**Kritik nöqtə (Cut-off Point)** – Qiymətləndirmə prosesində iştirakçının test üzrə keçid balını toplayıb-toplamadığının müəyyənləşdiyi həlledici an. (bax: **Qiymət həddi**)

**KR / Kuder-Riçardson düsturları (Kuder-Richardson (KR) Formulas) -** Test iştirakçısının hər bir test tapşırığı üzrə əldə etdiyi nəticələrə əsaslanan KR düsturları testin etibarlılığını müəyyən etmək üçün tətbiq olunur.

**Kurikulum (Curriculum)** – *Kurikulum* təlim prosesilə bağlı bütün fəaliyyətlərin təşkilini əks etdirən konseptual sənəddir.

*Kurikulum* termini geniş mənaya malik olub milli təhsil məqsədlərindən şagirdlərin gündəlik fəaliyyətinə qədər olan prosesləri əhatə edir. *Kurikulum* təhsilalanlar üçün zəruri bilik sahələrini, mövcud tədris planı və proqramlarını, şagirdə verilən tələbləri, müəllim və məktəb qarşısında duran vəzifə və onların konkret həlli yollarını özündə birləşdirir. *Kurikulum* müasir dərs modeli əsasında hər bir fənnin konkret məqsəd, məzmun, tədris-təlim fəaliyyəti, metodiki təminat və texniki təchizatını əks etdirir.

*Kurikulum* ictimai-siyasi, mədəni və sosial həyatın qloballaşdığı və universallaşdığı, informasiya-kommunikasiya texnologiyalarının rolunun artdığı, rəqabətin gücləndiyi müasir dövrdə öz fəaliyyətini hər bir təhsil alanın müstəqil qərarlar qəbul etməsi üçün zəruri bacarıq və təhsil səviyyəsinə malik olmasına, cəmiyyətin inkişafında əsas hərəkətverici qüvvə kimi formalaşmasına yönəltmişdir.

*Kurikulum* ümumi təhsil pillələrində tədris fənləri arasındakı qarşılıqlı əlaqə və ardıcıllığı təmin etmək; fənlərin məzmununu cəmiyyətin tələbatına uyğun olaraq daim təkmilləşdirməklə yeniləşdirmək; çevik, interaktiv təlim texnologiyaları və nəticəyönümlü fənn kurikulumları hazırlamaq vəzifələrini qarşıya qoymuşdur.

Təlim mühiti və təhsil fəaliyyətinin səmərəli, inkişafetdirici və qabaqlayıcı xarakterini təmin etmək; təhsil pillələri üzrə bilik, bacarıq və vərdişləri müəyyənləşdirmək; şagird nailiyyətlərinin obyektiv qiymətləndirilməsi üçün tövsiyələr hazırlamaq və s. kimi vəzifələr də *Milli Kurikulum sənədində* öz əksini tapmışdır.

**Kurikuluma əsaslanan meyar (Curriculum-based measurement (CBM)** – Şagird nailiyyətlərini qiymətləndirmək üçün onun sinif kurikulumunu anlama səviyyəsinin meyar olaraq müəyyənləşdirilməsi.

**Kurikulum idarəetməsi (Curriculum management)** – Kurikulumun təşkili və inkişafı prosesinin həyata keçirilməsi.

**Kurikulum inkişafı (Curriculum development)** - Təhsil məqsədlərinin qısa və dürüst ifadəsi, tədris ehtiyaclarının təmin edilməsi, təlimatlandırma imkanlarının inkişaf etdirilərək qiymətləndirilməsi.

**Kurikulum qiymətləndirilməsi (Curriculum evaluation)** - Təlim kurslarının keyfiyyəti ilə bağlı rəyin formalaşması məqsədilə faktların toplanması və təhlili.

**Kurikulum nəzarəti (Curriculum control)** - Kurikulumla bağlı qərarların məktəb daxilində qəbulu, yaxud xarici maraqların təsiri ilə təlimin valideyn, yerli icma və ya bütövlükdə cəmiyyət tərəfindən məhdudlaşdırılması.

**Kurikulum nəzəriyyəsi (Curriculum theory)** - Məktəb proqramı elementləri arasındakı qarşılıqlı əlaqələrin göstərilməsi, bu proqramın istifadə, inkişaf və qiymətləndirilməsini istiqamətləndirən müddəaların vəhdəti.

*Tayler (1949)* kurikulum nəzəriyyəsi aşağıdakı məntiqi əsaslar üzərində qurulmuşdur:

- *Məktəb təhsilinin məqsədləri;*
- *Bu məqsədlərə nail olmaq üçün öyrənmə təcrübələrinin seçilməsi;*
- *Effektiv təlimatlar üçün öyrənmə təcrübələrinin təşkil olunması;*
- *Öyrənmə təcrübələrinin effektivliyinin qiymətləndirilməsi.*

**Kurikulum planlaşdırma modeli (Curriculum planning model)** - Qərar qəbul etmənin bir neçə növünü və səviyyəsini tələb edən mürəkkəb ictimai proses. Bu prosesi müzakirə etmək və uyğunlaşdırmaq ehtiyacı onun əsas aspektlərini təqdim etmək üçün müvafiq modellərin istifadəsini tələb edir.

**Kurikulum tərtibatı (Curriculum design)** – Təhsil mütəxəssisləri, hətta valideynlər tərəfindən müvafiq kurs üzrə hazırlanmış material və çalışmalar toplusu.

**Kurikulumun təşkili (Curriculum organization)** – Kurikulum proqramının ümumi təhsil prinsipləri əsasında vahid qaydada təşkil olunması.

**Kütləvi Təhsil Sisteminə İntegrasiya (Mainstreaming) -** Fiziki, yaxud əqli cəhətdən imkanları məhdud olan şagird və tələbələrin kütləvi təhsil müəssisələrində tipik şagirdlərlə birgə təhsil alması üçün şəraitin yaradılması.

**Kvartil (Quartile) -** Ümumi faiz nisbətinin dörd kateqoriyaya bölünməsi: məsələn, 0-25 faiz nisbəti, 26-50 faiz nisbəti.

**Kvintil (Quintile) -** Ümumi faiz nisbətinin beş kateqoriyaya bölünməsi: məsələn, 0-20 faiz nisbəti, 21-40 faiz nisbəti.

## Q

**Qabiliyyətlər (Aptitude)** – Şəxsiyyətin bu və ya digər fəaliyyət növünü müvəffəqiyyətlə icra etmək üçün şərt sayılan fərdi psixi xassəsi. Qabiliyyətlər şəxsiyyətin fərdi-psixoloji xüsusiyyəti olub

müəyyən fəaliyyətin müvəffəqiyyətli icrasının şərtini təşkil edir və onun üçün zəruri olan bilik, bacarıq və vərdişlərə yiyələnmə dinamikasındakı fərqlərdə ifadə olunur.

İnsan müəyyən qabiliyyət keyfiyyətlərinə malik olmaqla bu və ya digər fəaliyyəti uğurla yerinə yetirir, səmərəli nəticələr əldə edir. Qabiliyyətlər insanın elə psixoloji xüsusiyyətləridir ki, onlardan asılı olaraq bilik, bacarıq və vərdişlərə yiyələnmək işində müvəffəqiyyət əldə edilir. Ancaq qabiliyyətlərin özü bilik, bacarıq və vərdişlərin mövcudluğundan ibarət deyildir. Psixoloji tədqiqatlar və pedaqoji təcrübə göstərir ki, bəzən əvvəllər müəyyən bir fəaliyyət sahəsində öz bacarıqsızlığı ilə başqalarından fərqlənən bir şəxs təlim nəticəsində vərdiş və bacarıqlara çox surətlə yiyələnərək sənətə sahib olmaq yolunda hamını ötüb keçir. Onda başqalarına nisbətən daha artıq qabiliyyət üzə çıxır.

Bütün pedaqoji qabiliyyətləri şərti olaraq 3 qrupda birləşdirmək olar: şəxsi qabiliyyətlər, didaktik qabiliyyətlər, təşkilati-kommunikativ qabiliyyətlər.

**Qalma nisbəti (Survival rate)** – Konkret müddət üzrə nəzərdə tutulmuş təhsil prosesinin son mərhələsində qeydə alınan şagirdlərin (tələbələrin) ümumi sayının prosesin son mərhələsindəki ümumi saya nisbəti.

**Qapalı sonluqlu tapşırıqlar/testlər (Close-ended tasks)** – Konkret standart cavabı olan test tapşırıqları.

**Qeydiyyat (Registration) -** İmtahanda iştirak etmək üçün müraciət edən şəxslər haqqında məlumatların kağız, yaxud elektron məlumat bazasına daxil edilməsi.

**Qeydiyyata alma nisbəti (Enrolment ratio, net)** – Konkret ərazidə yalnız məktəb səviyyəsinə uyğunluq meyarına görə qeydiyyata alınmış uşaqların sayının həmin yaş qrupuna aid uşaqların ümumi sayına nisbəti.

**Qeyri-formal təhsil (Non-formal education)** – Müxtəlif kurs, dərnək və fərdi məşğələlərdə əldə olunan və dövlət tərəfindən rəsmi sənədin verilməsi ilə müşayiət olunmayan təhsil forması.

**Qeyri-rəsmi təhsil (Informal education) –** Şəxsin təhsil müəssisələrindən kənarda, müstəqil surətdə əldə etdiyi təhsil. Bu təhsil ömür boyu davam edən məqsədyönlü, sistematik, təkmilləşməyə yönəlmiş fəaliyyət olaraq kütləvi informasiya vasitələrinin və müasir informasiya texnologiyalarının güclü təsiri altındadır.

**Qeyri-rəsmi bilik** (**Informal knowledge**) – Uşaqların məktəbdən kənarda təcrübə vasitəsilə fənn haqqında əldə etdikləri bilik.

**Qəbul (Admission) -** Təklif edilən təlim kursunda iştirak etmək üçün müraciət etmiş şəxsin kursda iştirakına imkan yaradılması.

**Qiymət** (**Grade) -** 1. Qiymətləndirmənin nəticələrini əks etdirmək üçün istifadə olunan kateqoriya. Qiymət hərflərlə (A, B, C, D və s.), rəqəmlərlə (1, 2, 3 və s.), yaxud da sözlərlə (Əla, Çox yaxşı, Yaxşı, Kafi, Pis və s.) ifadə oluna bilər.

**Qiymət (Appraisal) -** Dəyərləndirmə sənədi, yaxud nümunəsi.

**Qiymət, bal (Score) -** Tapşırığın yerinə yetirilməsinin müəyyən edilmiş şkala, yaxud təsnifat üzrə qiymətləndirilməsi.

**Qiymət həddi (Grade Threshold) –** İki nəticə arasında müqayisə yaradan qiymət həddi. Məsələn, əgər **A** qiymətinin həddi **81** faiz olarsa, bu zaman **80** faiz toplamış şagirdlər **B**, **81 faiz** toplamış şagirdlər isə **A** qiyməti alacaqlar. (bax: **Kritik Qiymət**).

**Qiymətə nail olmaq üçün öyrətmə (Measurement-driven Instruction) -** Nəticənin son dərəcə əhəmiyyətli olduğu situasiyalarda tədris təcrübəsinin xarakterini müəyyənləşdirmək üçün meyarlarla əlaqəli tədbirlərdən istifadə.

**Qiymətləndirmə (Evaluation)** – Şagirdin (tələbənin) bilik, bacarıq və vərdişlərinin tədrisin məqsəd və vəzifələrinə uyğunluğunu, yaxud uyğunsuzluğunu təsdiq edən üsul və nəticə. Qiymətləndirmə yoxlamanı tamamlayan pillə olaraq tədrisdə əks əlaqəni təmin edir, müvəffəqiyyətsizliyin səbəblərinin müəyyən edilməsinə, tədris fəaliyyətinin təşkilinə imkan yaradır. Müəllim cavabda səhvlərin səbəblərini aşkara çıxarır, tələbəyə yeni dərsi öyrəndiyi zaman nəyə diqqət yetirəcəyinə yardım edir. Qiymətləndirmədə əsas tələblər - *obyektivlik, qiymətin şüurluluğu, dərk olunması*; əsas göstəricilər isə - *biliyin tamlığı, dərk olunması, şüurluluğu, tətbiqi* və *ifadə olunması*dır.

**Qiymətləndirmə (Assessment)** – Fərdin davranışı yaxud xasiyyətinin təyin olunması üçün aparılmış uzunmüddətli müşahidə əsasında əldə edilən nəticə. Belə bir qiymətləndirmə öyrənmə, təsvir etmə, qeyd etmə (yazma), hesablama və s. ən müxtəlif qabiliyyətlər üzrə informasiyalara əsaslanır.

**Qiymətləndirmə komponenti (Assessment component)** – Kompleks qiymətləndirmənin tərkib hissələrindən biri. Qiymətləndirmə komponentləri fəndən asılı olaraq dəyişir. Məsələn, təbiət elmləri üzrə imtahanda qiymətləndirmə komponentləri nəzəri biliklərin və təcrübi bacarıqların, dilçilik elmi üzrə - nitq, dinləmə, oxu və yazı qabiliyyətinin üzə çıxarılmasından ibarət ola bilər.

**Qiymətləndirmə şkalası (Scoring Scale) -** Ən pis səviyyədən ən yaxşı səviyyəyə qədər keyfiyyət səviyyələri formasında ifadə edilmiş qiymətləndirmə meyarları. Bu meyarlar şagirdin işi barədə *tək bir parametr,* məs., “əsas ideyanın aydınlığı” parametri üzrə fikir yürütmək üçün istifadə olunur. Şkalalar tək bir keyfiyyət çərçivəsində bir neçə cizgini birləşdirə bilər. Şkaladakı qiymətləndirmə səviyyələri nöqtələrlə göstərilir və hər səviyyə həmin nöqtələrə çatmaq üçün məzmun və ya bacarıqların keyfiyyət xüsusiyyətlərini əks etdirir.

**Qiymətləndirmə uyğunlaşması (Assessment accommodation)** - Məzmunda düzəliş etmədən qiymətləndirmənin aparılması qaydasında dəyişiklik etməklə şagirdlərin (tələbələrin) qiymətləndirmə strategiyasında iştirakına kömək etmək. Ən ümumi qiymətləndirmə uyğunlaşmasına vaxtın və cədvəlin tərtibi, təqdimat və cavab, ətraf mühit/şərait və s. daxildir.

**Qiymətləndirmədə görünüş xətası (Halo Rating Error) -** Fərdin konkret xüsusiyyətlərinin qiymətləndirilməsi haqda ümumi təəssüratın müsbət effekti.

**Qiymətləndirmə məqsədi (Assessment objective)** – Qiymətləndiriləcək tədris nəticəsinin imtahan planında və ya test spesifikasiyası cədvəlində formulla qısa ifadəsi. Məsələn, namizədin vuranlara ayrıla bilən kvadrat tənliklərin kökünü tapmaq bacarığının nümayişi $(x+a)(x+b)=0$ formasında yerinə yetirilməlidir. Burada, **a** və **b** – bütöv rəqəmlərdir.

**Qiymətləndirmə modelləri (Assessment models)** – Qiymətləndirməni həyata keçirmək üçün tətbiq edilən modellər. Təhsil sistemində üç məlum qiymətləndirmə modelindən istifadə olunur: a) *norma ilə əlaqələndirmə* modeli - bir şagirdin nəticəsi seçilmiş qrup etalonunun nəticəsi ilə müqayisə edilir; b) *meyarla əlaqələndirmə* modeli - hər bir şagirdin nəticəsi standart və ya meyarla müqayisə edilir; c) *artım və ya inkişaf* modeli - hər bir şagirdin nəticəsi həmin şagirdin zaman çərçivəsində iki nöqtə arasındakı müddətdə inkişaf səviyyəsinin analiz olunması ilə qiymətləndirilir. Qiymətləndirmə həmin şagirdin əsas ideyanı başa düşməsi, bilik bazasının genişliyi və hər hansı bir bacarığa yiyələnmə dərəcəsi baxımından aparılır.

**Qiymətləndirmə paketi (Assessment package)** – Bir və ya bir neçə komponentdən ibarət ümumi qiymətləndirmə sxemi. Qiymətləndirmə paketi bir neçə komponentdən ibarət olduqda, ümumi bacarıq göstəricisi adətən ayrı-ayrı komponentlər üzrə balların cəmlənməsi yolu ilə əldə edilir. (bax: **Qiymətləndirmə Komponenti və Ümumiləşdirmə**).

**Qiymətlərin hesablanması üçün optik cihaz (Optical Mark Recognition, OMR)** – Qiymətlərin xüsusi formada hesablanması üçün optik oxuyucu. Bu cihaz şagirdlərə müxtəlif cavab variantları olan suallara cavablarını avtomatik şəkildə daxil etmək imkanı yaradır.

**Qiymətləndirmə sxemi (Marking Scheme) -** Şagirdlərin cavablarına əsasən qiymətlərin verilməsinə dair göstərişlər. Bu göstərişlər obyektiv və yarıobyektiv tapşırıqlar üçün təfərrüatı ilə, açıq və subyektiv tapşırıqlar üçün isə ümumi təsvir kimi təqdim edilə bilər (bax: **Diapazon Deskriptorları**).

**Qiymətləndirmə tapşırığı (Assessment task) -** Şagirdlərə öz bilik və bacarıqlarını nümayiş etdirmək imkanı vermək məqsədilə xüsusi olaraq işlənib hazırlanmış tapşırıq. Belə bir tapşırıq bir, yaxud bir neçə öyrətmə/qiymətləndirmə məqsədinin reallaşmasına yönəldilməlidir.

**Qiymət verən (Rater) -** Konkret meyarlara istinadən şagirdin (tələbənin) nəticəsinə qiymət verən şəxs.

**Qiymət verənin etibarlılığı (Rater Reliability) -** İki və daha çox qiymət verənin rəyinin üst-üstə düşmə dərəcəsi.

**Qiymət verənlərin hazırlanması (Rater Training) -** Qiymətləndirmə prosesində şəffaflıq, etibarlılıq və səmərəliliyin təmin olunması üçün qiymət verənlərin hazırlanması prosesi.

Qiymət verənlər konkret qiymətləndirmə meyarları ilə tanış edilir. Təlimçi ilə namizədlər arasında aparılan açıq diskussiyalar qiymətləndirmə meyarları və işin yerinə yetirilmə standartlarının aydınlaşmasına kömək edir. Həmçinin, bu diskusiyalar sayəsində qiymət verənlər şagird işinin qiymətləndirilməsində meyarları tətbiq etmə təcrübəsinə yiyələnirlər. Qiymət verənlərin hazırlanması çox vaxt onların etibarlılığının qiymətləndirilməsini də özündə birləşdirir. Belə ki, qiymət verənlər şagirdlərin işini qiymətləndirmək üçün bu mərhələdən də keçməlidirlər.

Böyük Britaniyada bu prosesi *qiymət verənlərin standartlaşdırılması* adlandırırlar.

**Qovluq (Portfolio)** - Dərs ili ərzində şagirdin (tələbənin) fəaliyyətinə, tədrisdə qazandığı uğur, yaxud uğursuzluqlara dair materialların müəllim və ya şagirdin özü tərəfindən toplandığı qovluq. Qiymətləndirmə alternativ üsul kimi bu materiallar üzrə də aparıla bilər.

**Qrup işi (Group work**) – Müəllimin qrup halında yerinə yetirmək üçün şagirdlərə (tələbələrə) verdiyi tapşırıq.

**Qruplaşmış təhlil (Cluster analyses)** - Mürəkkəb faktların strukturunu müəyyən etmək üçün tətbiq edilən müxtəlif riyazi üsulların ümumi toplusu.

**Qrup metodu (Group method) –** Şagirdləri (tələbələri) öz ideyalarını başqaları ilə bölüşməyə və müzakirə etməyə həvəsləndirmək üçün onların kiçik qruplarda müzakirələrə cəlb edilməsi metodu. Bu interaktiv metod vasitəsilə başqalarının məlumatı necə qəbul etmələrini və aydınlaşdırmalarını görmək olar.

**Qrup şəhadətnaməsi (Group Certificate) -** Namizədlərdən bir neçə fənn üzrə müəyyən edilmiş sayda imtahanların verilməsini tələb edən imtahan sistemi. Şəhadətnamənin verilməsi əvvəlcədən müəyyən edilmiş meyarların namizəd tərəfindən yerinə yetirilməsindən asılıdır.

**Qrup təlimi (Team teaching)** - Eyni bir fənn və ya mövzunun iki və daha artıq müəllim tərəfindən tədris edilməsi metodu. Müəllimlər tam qrupa təlim keçməyi növbələşdirə və ya qrupu müəllimlər arasında növbə ilə bölmə və siniflərə ayıra bilərlər.

## L

**Layihə formasında çalışma (yaxud Layihə işi) (Project work)** - Spesifik bir mövzu üzrə tapşırığın sona çatdırılmasına yönələn və yerinə yetirilməsi əsasən dərsdənkənar vaxtlarda nəzərdə tutulan çalışma.

**Leksik yanaşma (Lexical Approach) -** Qrammatik strukturlardan fərqli olaraq, dilin leksik vahidlər əsasında analiz edilməsi. İngilis dilinin tədrisi üçün nəzərdə tutulan bir çox müasir dərslik və tədris materialları məhz leksik yanaşma əsasında hazırlanır.

**Leonardo da Vinçi proqramı (Leonardo da Vinci programme) -** Avropa Birliyinin üzv dövlətləri tərəfindən dəstəklənən peşə təhsili siyasətinin yerinə yetirilməsi üçün fəaliyyət proqramı. Leonardo da Vinçi Proqramı üç əsas məqsəd irəli sürür: professional peşə inteqrasiyasını irəlilətmək; təlimin keyfiyyətini inkişaf etdirmək və təlimə yardımçı olmaq; təlim xidmətini yeniliyə doğru genişləndirmək.

**Liderlik (Leadership) –** İnsanların könüllü dəstəyini istənilən məsələdə səfərbər edə bilən, şəxsi keyfiyyətə əsaslanan bacarıq. Məktəb liderliyi dedikdə, təhsil müəssisəsindəki mövcud insan resursları və maddi-texniki imkanların müəssisənin səmərəli fəaliyyətinin təmin olunmasına, şagird müvəffəqiyyətinin yüksəldilməsinə doğru istiqamətləndirilməsi, pedaqoji heyətin qərarvermə prosesində iştirakının təmin olunması, gələcək fəaliyyətlə bağlı strateji vəzifələrin müəyyən edilməsi və bu vəzifələrin həyata keçirilməsinə rəhbərlik və s. başa düşülür.

**Likert şkalası (Likert Scale) -** Respondentin konkret bir fikrə münasibətini öyrənmək üçün istifadə edilən beşballı şkala. Məsələn, respondentlərə sorğu vərəqəsindəki mühakiməni oxumaq və aşağıdakı variantlardan birini seçmək təklif oluna bilər: “Tamamilə razıyam”, “Razıyam”, “Nə razıyam, nə də etiraz etmirəm (Neytral münasibət)”, “Razı deyiləm” və ya “Qətiyyən razı deyiləm”.

**Liqa cədvəli (League Table) -** İmtahanların nəticələrinə və başqa göstəricilərə görə məktəblərin reytinq (dərəcələmə) cədvəlini bildirən termin. Hazırda Böyük Britaniyada bu termin bir qədər mənfi təəssürat yaradır və onun əvəzinə “məktəblərin səmərəlilik cədvəli” termini işlədilir.

**Lisenziya (License)** - təhsil fəaliyyətinə dövlət tərəfindən verilən xüsusi rəsmi razılıq.

**Lisey (Lyceum)** - ümumi və tam orta təhsil səviyyələrində istedadlı şagirdlər üçün müvafiq təmayüllər üzrə təhsil xidmətləri həyata keçirilən ümumtəhsil müəssisəsi.

**Lissabon Konvensiyası (Lisbon Convention**) - Avropa regionunda ali təhsil üzrə diplomların tanınmasını asanlaşdırmaq məqsədilə 1997-ci il 11 Aprel tarixində qəbul edilmiş konvensiya. Konvensiya ali təhsil müəssisələri və tədris edilən proqramların qiymətləndirilməsi üzrə informasiya təminatı yaradır və təqdim edilən informasiyalar Lissabon Konvensiyasının şərtlərinin yerinə yetirilməsinə güclü şəkildə təsir edir.

# M

**Material uyğunlaşdırması (Material accommodation)** Tədris vasitələri və materiallarının fərdin ehtiyacına uyğunlaşdırılması. Bu proses, kitabları, tədris məqsədilə nəzərdə tutulmuş oyuncaqları, müxtəlif fəaliyyət növlərini əks etdirən vərəqələri və s. əhatə edə bilər.

**Mentor (Mentor) –** Təhsil müəssisələrində pedaqoji təcrübə keçən tələbə-müəllimlərə, həmçinin pedaqoji fəaliyyətə yeni başlayan müəllimlərə kömək üçün təhkim edilən bilikli və təcrübəli məsləhətçi-müəllim.

**Metod (Mode) −** Praktiki və nəzəri biliklərin dərkedilməsi və müəyyən tapşırığın həllinə istiqamətlənmiş vəzifələr. Pedaqogikada təlim və tədris metodları problemin həlli yolları və təsnifatının əsas xüsusiyyəti kimi çıxış edir.

**Meyarlar (Criteria) –** İşin şagird tərəfindən yerinə yetirilməsi keyfiyyətinin müəyyən edilməsi məqsədilə istifadə olunan tövsiyə, qayda, xüsusiyyət yaxud parametrlər. Meyarlar şagirdin cavabı və ya işinin nəticəsində məhz nələrə qiymət verildiyini göstərir. Meyarlar xolistik, analitik, ümumi, yaxud konkret ola bilər. Qiymətləndirmə bölgüləri meyarlara əsaslanır, meyarların mənası və istifadə olunma qaydalarını müəyyənləşdirir.

**Meyarlar üzrə etibarlılıq (Criterion-Related Validity) -** Testin meyar göstəricilərinə uyğunluq dərəcəsi (bax: **Etibarlılıq**).

**Meyl (Bias)** – Dil, din, etnik mənsubiyyət, cins, yaş və s. kimi amillərə əsasən bir qrupun digərindən üstün tutulması meyli.

**Məcburi razılıq (Acquiescence)** – Şəxsin dixotik testlərdəki düzgün fikirlərlə "razılaşmaq" (doğru-səhv fikirlərin müəyyən edilməsi), qiymət şkalasında orta göstəriciləri seçmək qabiliyyəti. Qeyd etmək lazımdır ki, məcburi razılıq vəziyyətində olduğu kimi, insanın şəxsiyyəti testlə qarşılıqlı münasibətdə olaraq "cavab üslubunu" (tamamilə ölçülən bacarığın səviyyəsindən asılı olan silsilə cavabları deyil) təqdim edirsə, testin "etibarlılığı" aşağı düşür.

**Məcburi seçim qiyməti (Forced-Choice Assessment) –** Tapşırığa, yaxud suala verilən cavab və ya təlimatların cavab üçün açar rolunu oynayan sözün qarşısında yerləşdirildiyi test. Burada qiymətin verilməsi üçün fikir yürüdülməsi tələb edilmir, çünki tapşırığın ancaq bir düzgün cavabı olur. Məcburi seçim imkanına malik cavab/qısa cavab qiymətləndirilməsinə misal olaraq çoxlu seçim imkanı olan, özündə düzgün/səhv cavabı birləşdirən, bəzi sözlərin əvəzinə boşluqların göstərildiyi və cütlüklərlə yerinə yetirilən tapşırıqları qeyd etmək olar. (bax: **Obyektiv Test**).

**Mədəni məhrumiyyət (Cultural deprivation)** - Ailə, etnik, sosial mənsubiyyət, ətraf mühit və s. amillərdən irəli gələn məhdudiyyətlərə görə məktəb mədəniyyətini mənimsəmək imkanından məhrumluq.

**Məharət testi (Mastery Test) -** Müəyyən bir sahə üzrə əldə edilmiş məharətin səviyyəsini müəyyənləşdirən test. Belə bir test xüsusilə konkret sahə üzrə ilkin bacarıqların hansı şəkildə mənimsənildiyini öyrənmək üçün faydalı hesab edilir.

**Məktəb (School)** – Sosial təsisat, cəmiyyət, şəxsiyyət və dövlətin təhsilə olan tələbatını ödəmək üçün qurulmuş ictimai-dövlət sistemi.

**Məktəbdənkənar test (External test)** – Şagirdlərin (tələbələrin) hazırlığı üçün məktəbdənkənar qaydada hazırlanan, nəzarət edilən və tətbiq olunan test.

**Məktəb effektivliyi (School effectiveness**) - Qoyulmuş məqsədə çatmaq üçün mümkün olan tədris məqsədlərinin həyata keçirilmə dərəcəsi. Ən effektiv məktəblərin səciyyəvi xüsusiyyətləri *idarəetmə və liderlik, məktəb siyasəti, ev tapşırıqlarına münasibət, məktəbin əxlaqi ideyaları, davamiyyət* və bu kimi cəhətlərdir.

**Məktəb-icma əlaqələri (School community links) -** İcmanın həyat tərzini inkişaf etdirmək, ona öyrənməyə mane olan sosial problemləri aradan qaldırmaq məqsədilə ailə, icma lideri, müəllim və müvafiq xidmət mütəxəssisləri ilə məktəb arasında əlaqələrin təmin olunmasına yönəlmiş cəhdlər.

**Məktəb əsaslı idarəetmə (School-based management)** - Məktəb islahatına dair qərar qəbul etməyə məktəb səviyyəsində daha çox əhəmiyyət verən meyl, istiqamət. Əvvəllər məktəb siyasəti dövlət və bölgələr səviyyəsində qurulurdusa, müasir dövrdə bu termin hər məktəbin öz müstəqil, fərdi qərar və siyasətini qəbul etməsi kimi başa düşülür.

**Məktəb əsaslı kurikulumun inkişafı (School-based curriculum development)** – Kurikulumun məktəb səviyyəsində hazırlanması və inkişafı prosesi. Bu prosesin həyata keçirilməsi məktəb və müəllimlərə verilən sərbəstliyin dərəcəsindən asılıdır. Kurikulum tapşırıqlarının həddi və tempinin tənzimlənməsi, şagirdlərlə intensiv əlaqələrin təmin olunması, ətraf mühit və mədəniyyətdən kurrikulum resursu kimi istifadə məqsədilə sərbəstliyin yaradılmasına ehtiyac vardır.

**Məktəb İnkişafı Planı (School Development Plan)** - Məktəbin kurikulum, təşkilat, heyət və resurs ehtiyaclarını təkmilləşdirməyi aydınlaşdıran proses və plan. Bu təkmilləşmələri həyata keçirmək üçün müvafiq fəaliyyətin təmin edilməsi mühümdür. Belə fəaliyyət məktəb direktorunun müəllimlər, hökümət üzvləri, icma daxilindəki məsləhətçilər və b. ilə əməkdaşlığı mühitində daha yaxşı nəticə verir.

**Məktəb islahatı (School reform)** - Məktəblərin təkmilləşdirilməsinə yönəlmiş bir sıra cəhdləri əhatə edən ümumi termin. İslahat cəhdləri məktəbin necə idarə olunmasından başlayaraq siniflərdə hansı tədris planının öyrədilməsi məsələsinə qədər tədrisin bütün aspektləri üzərində cəmlənmişdir.

**Məktəb muxtariyyəti (School autonomy)** - Məktəb, onun idarəetmə strukturu, rəhbərlik və müəllim heyətinin təhsil fəaliyyəti və imkanların idarəedilməsi haqqında qərar qəbul edə bilmə dərəcəsi. Bu qərarlar tədris planı, kapital qoyuluşu üstünlüyü, təsdiqetmə, heyətin təyinatı və fəaliyyətin digər bütün aspektləri üzrə qəbul edilə bilər.

**Məktəbdə psixoloq xidməti (School psychological service)** - Şagirdlərin psixoloji tərbiyəsinə yardım üçün məktəbdə mütəxəssislərin iştirakı ilə yaradılmış xidmət. Bu xidmət çərçivəsində şagirdlərin tələbat və ehtiyaclarının təhlili, kurrikulum daxilində fərdi proqramlar üçün məsləhətlərin verilməsi, məktəb və valideynlərə yardımın təşkili və s. vəzifələr də yerinə yetirilir.

**Məktəb səviyyəli qiymətləndirmə (School-based Assessment, (SBA)) -** Şagirdlərin nəticələrinin məktəb tərəfindən qiymətləndirilməsi. Məktəb səviyyəsində qiymətləndirmə imtahan paketinin tərkib hissəsi kimi nəzərə alına, alınan qiymətlər açıq imtahanın nəticələrinə daxil edilə bilər.

**Məktəb təlimində deseqreqasiya (Desegregation in schooling)** - Şagirdlərin inteqrasiyası vasitəsilə irqi, milli, dini, cinsi təcrid hallarının aradan qaldırılması prosesi.

**Məktəb yaşlı əhali (School-age population)** - İcbari təhsil üçün qanunla müəyyən edilmiş yaş həddində olan əhali qrupu.

**Məktəbdən yayınan uşaqlar (Out of school children)** - Məktəb yaşında olan, lakin icbari təhsil üçün qeydiyyatdan keçməyən uşaqlar.

**Məktəbəqədər təhsil (Pre-school education)** – Məktəb yaşına çatmamış uşaqların məktəbəqədər tərbiyəsi məqsədini əsas tutan təhsil. Məktəbəqədər tərbiyə müəssisələrinə daxildir: körpə evləri, körpə evləri-bağçalar, uşaq bağçaları, ailə-bağçalar, məktəb-bağçalar, bağça-internatlar, uşaq evləri, ahıl evləri yanında uşaq evləri-internatlar, əqli və fiziki cəhətdən geriliyi olan uşaqlar üçün məktəbəqədər tərbiyə müəssisələri və s. Məktəbəqədər təhsil uşaqların intellektual, fiziki və psixoloji inkişafında, potensial imkanlarının üzə çıxarılmasında, məktəbə hazırlanmasında, onlarda mədəni keyfiyyətlərin, müstəqillik, yaradıcılıq, təşəbbüskarlıq hisslərinin və həyati bacarıqların formalaşmasında mühüm rol oynayır. Danılmaz həqiqətdir ki, maddi sərvətlərin insan kapitalına çevrilməsinin təməli məhz məktəbəqədər təhsil müəssisələrində qoyulur.

**Məktəbəqədər tərbiyəçi müəllim (Pre-school assistant)** – Məktəbəqədər təhsil müəssisəsində vəzifəsi uşaqlara qayğı göstərməkdən, onların öyrənmə fəaliyyətinə yardım etməkdən ibarət olan müəllim.

**Məktəbdənkənar fəaliyyət (Extra-curricular)** – mədəni-maarif, digər təşkilatlar tərəfindən şagirdlər ilə keçirilən təlim-tərbiyə işləri; şagirdlərin asudə vaxtının dəyərləndirilməsi, nəzarətsizlik ilə mübarizə. Məktəbdənkənar fəaliyyət şagirdlərin maraqlarını nəzərə almaqla onların könüllü iştirakı, aktivliyi və müstəqilliyi üzərində həyata keçirilir və onlarda liderlik, komandada işləmək bacarığı, yaradıcılıq və s. vərdişləri inkişaf etdirir.

**Məqsədlərin taksonomiyası (Taxonomy of objectives)** – Təlim məqsədlərinin şəbəkəli (iyerarxik) və ya sistemli təsnifatına taksonomiya deyilir.

**Məlumat bankı (Data bank)** - İstifadə üçün faydalı olan məlumatların toplandığı baza. Bu termin kompüter texnologiyalarının vasitəsilə istifadəsi mümkün olan məlumat ehtiyatı kimi də başa düşülür.

**Məlumatların hazırlanması / məlumat xidmətləri (Data processing/information services)** – Təhsildə məlumat bazası idarəetmə sistemlərinin yaradılması məqsədilə müvafiq məlumatların

toplanması, sistemləşdirilməsi, emalı. Həmin məlumatların qorunması, mübadiləsi, onlardan operativ qaydada istifadəyə imkan yaradan proqram təminatının formalaşdırılması, məlumatların idarə edilməsi və s. məsələlər də bu prosesə aiddir.

**Məlumat İdarəetmə Sistemi (Management İnformation Sistem, MIS)** Məlumat İdarəetmə Sistemi tədris müəssisəsi daxilində məlumatın toplanması, işlənməsi, təhlili, təqdim olunması və istifadəsini idarə edən struktur və üsulların kompleksi.

**Məlumat lövhəsi (Message board) –** Auditoriyanı maraqlandıra biləcək məlumat və yaxud elanların şagird (tələbə), müəllim yaxud məktəb rəhbərliyi tərəfindən yerləşdirilməsi üçün nəzərdə tutulmuş yer.

**Məlumat\Bildiriş lövhəsi (Bulletin board) -** Müəllimləri və şagirdləri (tələbələri) məlumatlandırmaq və istiqamətləndirmək üçün müvafiq materialların – məlumat, bülleten, broşüra, buklet, kitabça və jurnalların yerləşdirildiyi lövhə.

**Məqsədli idarəetmə (Management by Objective, MBO) -** Daha yüksək keyfiyyət və nəticələr əldə etmək üçün məqsədləri ayrı-ayrı idarəedənlər tərəfindən müəyyən olunan yanaşma.

**Mərkəzdəyişmə (Decentration)** - Fərdin öz şəxsi əqli perspektivlərindən çəkinərək başqasının fikrini qəbul etməsi prosesi.

**Mərkəzləşdirilmiş yoxlama (Centralized Marking) -** Məktəblərdən, yaxud imtahan mərkəzlərindən daxil olan bütün yazılı imtahan işlərinin vahid yoxlama məkanına təqdim edildiyi inzibati qayda.

**Məsrəflərin təhlili (Cost analysis)** – Mövcud resurslardan daha səmərəli istifadənin təmin olunması üçün, məqsədin əldə edilməsinə sərf olunan vaxt və vəsaitlərin mümkün qədər azaldılması imkanlarının nəzərdən keçirildiyi təhlil.

**Məzmunun etibarlılığı (Content validity) -** Testin məzmununun verilən davranış sahəsini əks etdirdiyini nümayiş etdirməklə əldə edilən etibarlılığın təsdiqlənməsi. Açıq imtahanların keçirilməsində məzmunun yüksək etibarlılıq dərəcəsinə nail olması üçün bütün tapşırıqlar tədris planına daxil olan biliklərin, təsəvvürlərin və bacarıqların yoxlanılmasına yönəlməli, müxtəlif bacarıq və mövzuların yoxlanılması üçün müəyyən edilmiş tapşırıqların balansı test xüsusiyyətlərinə uyğun olmalıdır (bax: **Etibarlılıq**).

**Məzun (Graduate) -** Tədris kursunu müvəffəqiyyətlə bitirən şəxs.

**Mikrotədris (Microteaching) -** Dərs prosesində analiz və təlimat üçün adətən videoyazı şəklində olan qısa, spesifik tədris epizodlarından istifadə üsulu.

**Milli azlıq (Ethnic minority)** – Milli mənsubiyyətinə və sayına görə icmanın əsas əhalisindən fərqlənən qrup.

**Milli normalar (National Norms) -** Yerli seçimdən fərqli olaraq, ümummilli seçimdə orta və ya adi nəticələri əks etdirən test qiymətlərinin əhatəsi.
*Qeyd*: Milli normalarda seçim həcmi və dərəcəsi kimi məsələlərlə əlaqədar ciddi fərqlər mövcuddur.

**Milli qiymətləndirmə (National Assessment) -** Milli təhsil standartlarının müəyyən olunması üçün reprezentativ (təmsil olunan) şagird seçimi ilə həyata keçirilən qiymətləndirmə.

**Miqyas/şkala (Scale) -** 1. Verilmiş birləşmələr sırasında kəmiyyəti ölçmək üçün hər hansı vasitə və ya təqdimat. Məsələn, metr miqyası, xəritə miqyası. 2. Ölçü standartı. 3. Cavabların düzgünlük dərəcəsini müəyyənləşdirmək üçün tapşırıq və ya testlərin qiymət sıraları (məsələn, Veksler Qavrama Şkalası). 4. Şkala üzərində yerləşdirmə.

**Modul (Module) -** Xüsusi məqsədli, son qiymətləndirmə formalı müəyyən müddət üzrə təyin olunmuş iş bölməsi. Moduldan ibarət kurslar xüsusilə peşə-ixtisas təhsilində tətbiq edilir.

**Monitorinq (Monitoring) -** Nəticələrə əsaslanan göstəricilərdən geniş şəkildə istifadə etməklə sistemin fəaliyyətinin nəzarətdə saxlanması.

**Mübadilə proqramları (Exchange schemes)** – Şagirdlərin (tələbələrin) müəyyən edilmiş konkret müddət üzrə ölkələr arasında qarşılıqlı şəkildə mübadiləsini nəzərdə tutan proqramlar. Belə proqramlar çərçivəsində xaricə təhsil almaq üçün göndərilənlər adətən ailələrdə qalır, müxtəlif növ təhsil, mədəni, idman və ictimai fəaliyyət növləri ilə məşğul olurlar.

**Müəllim (Teacher)** - ümumtəhsil məktəblərində yeni yetişən nəslin tərbiyə, təhsil və tədrisini həyata keçirən pedaqoji işçi, metodoloji problemlərinin işlənib hazırlanması, valeoloji baxışları nəzərə almaqla pedaqoji kadrların hazırlanması.

**Müəllimlik fəaliyyəti müddətində təlim (In-service teacher training)** – Pedaqoji fakültələrin məzunlarının əmək fəaliyyətinə başlamazdan əvvəl professional inkişafını nəzərdə tutan proqram.

**Müəllim fəaliyyətinin yekun dəyərləndirməsi (Summative teacher evaluation) -** Müəllimin fəaliyyəti haqqında qərar hazırlanması məqsədilə aparılan qiymətləndirmə. Bu qiymətləndirmə metodist, yaxud mentor tərəfindən deyil, müdiriyyət tərəfindən aparılır.

**Müəllim qiymətləndirilməsi (Teacher evaluation)** – Müəllimin fəaliyyətinin məktəbin missiyası da nəzərə alınmaqla müəyyən edilmiş funksiya və vəzifələr üzrə qiymətləndirilməsi.

**Müəllim sertifikatlaşması (Teacher certification)** - Müəllimin təlim sənətinə yiyələnmiş olmasının dövlət tərəfindən təsdiqlənməsi prosesi.

**Müəllim-tələbə nisbəti (Teacher-student ratio) -** Dərs ilində konkret təhsil səviyyəsi üzrə qeydə alınanların sayının, eyni dərs ilində müvafiq səviyyə üzrə tədris aparacaq müəllimlərin sayına nisbəti.

**Mühit uyğunlaşdırması (Environment accommodation)** - Sinif otağındakı mühitin, parta və oturacaqların düzülüşünün və s. tədrisin məqsədinə uyğunlaşdırılması.

**Mühazirə (Lecture)** – hər hansı bir tədris materialı, sual və elmi-siyasi mövzunun sistematik şifahi olaraq təqdimatı.

**Mühazirəçi/Lektor (Lecturer) -** Ali təhsil müəssisələrində mühazirə deyən mütəxəssis müəllim.

**Müxbir professor (dosent) (Associate professor)** – Ali təhsil müəssisəsində təlim və tədqiqat işlərinə cavabdeh olan müəllim.

**Müxtəliflik (Diversity)** – Təlim metodlarının müxtəlifliyi, eləcə də şagirdlər (tələbələr) arasındakı fərqlər. Bu fərqlər fiziki-psixi imkanlara, qavrama qabiliyyətinə və ən müxtəlif cəhətlərə aid ola bilir.

**Münasiblik (Relevance) -** Konkret test tapşırıqlarının analoji tapşırıqların yerinə yetirilməsi zamanı nə dərəcədə real ölçü meyarı ola bilməsi.

**Münasibət (Attitude)** – Bütün hadisələrin qarşılıqlı əlaqə anı. Münasibətlər mühüm və qeyri-mühüm, zəruri və təsadüfi və s. ola bilər. Öyrənmə prosesinə təsir etdiyinə görə təhsildə münasibət vacib məsələlərdən hesab olunur.

**Müsahibə (Interview)** - əsasən, iki tərəf - müsahibə alan və müsahibə verən arasında gedən söhbətdir. Təlimdə öyrənənin sualları müsahibə şəklində cavablandırması üsulu. Müsahibənin məqsədi yeni biliklərin əldə edilməsi və keçilən materialın təkrarlanmasıdır.

**Müstəqil məktəb (Independent school)** – Xaricdə yayılmış bu tip məktəblər birbaşa və ya hər hansı təşkilatın rəhbərliyi olmadan təsdiqlənmiş proqram əsasında fəaliyyət göstərən təhsil müəssisəsi. Müstəqil məktəblər dövlət, özəl qurumlar, yerli özünüidarəetmə orqanları, qeyri-hökümət təşkilatları, icmalar tərəfindən maliyyələşdirilə bilər.

**Müstəqil namizəd (Private Candidate)** – İmtahana oxuduğu təhsil müəssisəsi tərəfindən göndərilən namizəddən fərqli olaraq, açıq imtahanda iştirakını müstəqil şəkildə maliyyələşdirən namizəd. (Məs., Britaniya Krallığının təhsil sistemində bu qrupa imtahan qeydiyyatından keçmiş amma məktəb sistemindən kənarda özəl şəkildə hazırlanan şəxslər aiddir.)

**Müşahidəedici öyrənmə (Observational learning)** – Xarici aləmin məqsədyönlü və mütəşəkkil qavrayışı əsasında öyrənmə. Müşahidəedici öyrənmə sosial öyrənmə nəzəriyyəsinin mühüm komponenti olub, təqlid etmə (imitasiya) və eyniləşdirmə proseslərini özündə ehtiva edir.

**Müşahidə cədvəlləri (Observation schedules)** – Müşahidənin sistemliliyini, ardıcıllığını, məqsədyönlülüyünü, qrup halında müşahidə zamanı qarşılıqlı olan əlaqəni təmin edən xüsusi cədvəllər. Müşahidə cədvəllərindən təhsil tədqiqatlarında geniş istifadə edilir.

**Müvəffəqiyyət (Achievement)** – Təhsil alanların tədris proqramlarının tələblərinə əsasən professional elm, bilik və bacarıqlara yiyələnməsinin xüsusiyyətləri. Təhsil alanların müvəffəqiyyətinin göstəriciləri, əsasən, cari, cari mövzuya görə, yarımilliklərə əsasən, yekun - yəni, bütün il boyu fənn üzrə beşballıq sistem əsasında olan qiymətlər hesab edilir.

## N

**Nailiyyət (Attainment)** - Müəyyən əlamət üzrə səviyyəni təsvir edən miqyas (ölçü). Ölçünün özünün dəqiq sıfır nöqtəsi və müəyyən yuxarı səviyyəsi yoxdur. Nailiyyət dərəcəsi (norması) fərdlərin rəsmi şəkildə cəlb olunduğu təhsilin ən yüksək səviyyədəki ölçüsüdür. Nailiyyət hədəfi tələbələrın hər bir fənn üzrə gözlənilən bilik və bacarıqlarının formal təsviridir.

**Nailiyyət motivasiyası (Achievement motivation) -** Şəxsin həyatın müxtəlif fəaliyyət sahələrində dəyərləndirilmiş məqsədləri başa vurmaq və müvəffəqiyyətsizlikdən uzaq durmaq üçün həvəsləndirmə səyi.

**Nailiyyət testi (Achievement test) -** Şəxsin bilik və bacarıq dərəcəsinin müəyyənləşdirilməsi və qiymətləndirilməsi məqsədilə sinif təlimatı nəticəsinə əsaslanaraq tərtib olunmuş standart test.

**Nəticə (Outcome) -** Tədris məqsədinə nail olmaq üçün şagirdlərdən tələb olunan bilik və bacarıqların yekun nəticəsi.

**Nəzarət idarəsi (Inspectorate) -** Təhsil keyfiyyətinin qiymətləndirilməsi üçün məsuliyyət daşıyan tam, yaxud müstəqil orqan. Nəzarət idarəsinin ümumi vəzifələrinə nəzarət, qiymətləndirmə, tanıtma və məsləhət vermə daxildir.

**Nəzarətçi (Invigilator)** – Konkret məkanda imtahan prosesinə nəzarət edən və imtahan prosesinin müvafiq tələblərə uyğun keçməsinə cavabdehlik daşıyan şəxs.

**Nizamnamə məktəbi (Charter school)** - Müxtəlif hüquqi şəxslərin nizamnamələri çərçivəsində yaradılan, idarə edilən və maliyyələşdirilən məktəblər.

**Normalaşdırma sistemi (Quota System) -** Təhsil sahəsində müəyyən sosial qrup üçün yaradılan kvotanın əvvəlcədən müəyyənləşdirilməsi sistemi. Məsələn, orta məktəbdə gender bərabərliyinin təmin olunması üçün ümumi şagird yerlərinin 50 faizi oğlanlara, 50 faizi isə qızlara ayrıla bilər.

Balansı qorumaq üçün aparılan ixtisarların isə imtahan qiymətləri əks cinsə mənsub şagirdlərin nəticələrindən aşağı olan bir neçə oğlan yaxud qız şagirdin hesabına həyata keçirilməsi mümkündür.

**Normal bölgü əyrisi (Normal Distribution Curve) -** Ölçmələrin nəzəri bölgüsünü göstərən zəng formalı əyri. Ən müxtəlif faktiki göstəricilər (məs. test qiymətləri) aid edilən bu bölgü əyrisindən şkalaların qurulmasında, həmçinin testlərin keçirilməsində və qiymətləndirmə prosesində əsas kimi istifadə olunur. Normal bölgü əyrisi insan keyfiyyətlərinin ölçülməsi silsiləsində bölgü sıxlığına yaxındır.

**Normal əyri ekvivalent şkalası (Normal Curve Equivalent Score) –** Faiz nisbətlərinin bərabər vahidlərə çevrilməsini nəzərdə tutan şkala. Bu, orta qiymətlərin hesablanması üçün əlverişlidir, belə ki, Normal Əyri Ekvivalent Şkalasının 5 vahidində fərq şkalanın istənilən nöqtəsində eyni müvəffəqiyyət fərqini bildirdiyindən, faiz nisbəti bunu göstərmir. Ancaq dərs ilinin ayrı-ayrı dövrləri üçün müxtəlif Normal Əyri Ekvivalent Şkalaları tələb edilir.

**Normaya istinadən test (Norm Referenced Test (NRT) -** Şagirdin başqa şagirdlərlə müqayisə edildiyi qiymətləndirmə forması. Konkret şagird kontingenti üzrə adətən ümummilli səviyyədə nəticə norması müəyyən edilir, test keçirilir və daha sonra orta qiymətlər, standart kənarlaşmalar, standartlaşdırılmış qiymətlər və faiz nisbətləri hesablanır. Bundan sonra ayrıca bir qiymətin qrupun nəticələri ilə müqayisəsi üçün ekvivalent qiymətlər əldə edilir (bax: **Meyarlarla Əlaqəli Testlər**).

**Normaya istinadən qiymətləndirmə (Norm-Referenced Assessment (NRA) –** Şagirdin cavabının daha böyük qrupla müqayisə olunması üzrə aparılan qiymətləndirmə.

Şagird, məktəb, ərazi, hətta bütövlükdə ölkələr norma qrupuna görə müqayisə olunur və nəticələrə əsasən ardıcıl sıralanır. Bu qiymətləndirmənin əsas məqsədi şagird nailiyyətlərini hər hansı cavab meyarlarına görə qiymətləndirmək deyil, əksinə, şagirdləri seçməkdir.

**Nümunə (Sample)** - 1. Eyni qəbildən olub ayrıca götürülmüş fərd. 2. Tədqiqat təcrübəsində müşahidə edilmək üçün əhalinin seçilmiş bir hissəsi. 3. Eksperimental nümunə əldə etmək üçün sınaq seçimi.

## O

**Obyektiv / Qərəzsiz / Bitərəf (Objective) -** Subyektin şüur, iradə və arzusundan asılı olmayaraq əldə edilən nəticənin səciyyəvi xüsusiyyəti.

**Obyektivlik (Objectivity)** – Cavablar qiymətləndirilərkən qiymətləndirən subyektlərin şüur, iradə və arzusundan asılı olmayaraq, hər hansı kənar səbəblərin təsiri ilə deyil, yalnız müvafiq meyarlar çərçivəsində həmin subyektlər arasında əldə edilən razılaşmanın səviyyəsi.

**Obyektiv test (Objective test) –** Verilmiş müxtəlif cavab variantlarından yalnız bir düzgün cavabın olduğu və obyektivlik prinsiplərinin yüksək səviyyədə təmin edildiyi test.

**Ogiv / Koordinat Əyrisi (Ogive)** - Şagirdlərin toplanmış test qiymətləri arasındakı əlaqəni göstərən qrafikin çəkilməsi nəticəsində əldə edilən **S**-şəkilli əyri.

**Oxuma (Reading)** – İşarə və simvolların mənalandırılması və yeni informasiyanın idraki strukturlarda birləşdirilməsi prosesi.

**Orta Çəki Ölçüsü (Weighting / Weighted Average) -** Qiymətlərin sıralanmasında istifadə olunan ümumi balın formalaşdırılması üçün iki və ya daha artıq komponentin nəticələrinin birləşdirilməsi metodu. Bəzi elementlər vaxt, yaxud qiymətləndirmə prosesinə daxil olan tapşırıqların sayı baxımından daha vacib hesab edilirsə, tapşırığın yerinə yetirilməsinin ümumi səviyyəsinin müəyyən olunmasında bu elementlərə verilən qiymətlərə daha çox diqqət yetirilə və ya onların *"çəkisi"* daha çox götürülə bilər.

**Orta göstərici (Median)** - Artan və ya azalan qiymətlər sırasında orta qiymət.

Orta qiymətdən yuxarı və aşağıda olan bərabər qiymət müvafiq olaraq 50 faiz nisbətinə (prosentil) və 5 desilə uyğun gəlir.

**Orta göstərici xətası (Central Tendency Error) -** Qiymət verənlərin şagirdin cavablarına son qiyməti (mənfi və ya müsbət) vermək istəməməsi. Xüsusilə inşa yazılarını qiymətləndirərkən, müəllimlərin mümkün olan 20 baldan 19, yaxud 20 bal vermək istəməməsi bal qiymətlərinin diapazonunu daraldır və test fərqinin müəyyənləşdirilməsi imkanını məhdudlaşdırır.

**Orta riyazi qiymət (Mean)** - Qiymət komplektlərindəki balların cəminin qiymətlərin sayına bölünməsi ilə əldə edilən statistik göstərici. Riyaziyyatçılar bunu "orta riyazi" göstərici də adlandırırlar.

**Orta təhsil (Secondary education)** – Müvafiq tədris proqramının mənimsənilməsi nəticəsində əldə edilən ümumi və ya professional təhsil səviyyəsi. Orta təhsildə natamam orta (*orta məktəbin IX sinfinədək təhsil*) və tam orta (*11 illik təhsil*) təhsil növləri fərqləndirilir. Əksər ölkələrdə natamam orta təhsil dövlət tərəfindən qəbul edilmiş qaydaya əsasən məcburidir. Orta təhsil müəssisələri *orta məktəb, lisey, gimnaziya və s. adlana bilər.*

**Ortaya çıxarma (Elicitation)** – Tələbənin mənimsədiyini, mövzu ilə bağlı bilik səviyyəsini aydınlaşdırmaq məqsədilə müəllimin verdiyi müvafiq suallar. Bu üsul daha çox öyrənənlərdən məlumatın əldə edilməsini nəzərdə tutur, nəinki ona məlumatın ötürülməsini.

**Oyun və simulyasiyalar (Games and simulations) -** Reallığı modelləşdirmək üçün hazırlanmış təlim və öyrənmə vasitələri. Maarifləndirici oyunlar adətən reallığın imitasiyasına əsaslanır. Simulyasiya situasiyanın aspektləri üzərində cəmlənə və öyrənmə təcrübələri üçün təhlükəli olmayan şəraiti təmin edə bilər.

## Ö

**Ölçmə (Measurement)** – Empirik səviyyədə həyata keçililən, müvafiq vasitələrin köməyi ilə maddi obyektlərin səciyyəvi xüsusiyyətlərinin müəyyənləşdirilməsini əhatə edən idrak üsulu. Məsələn, konkret bacarıqlar şkalası anlayışından istifadə etməklə riyazi bacarıqların kəmiyyət baxımından qiymətləndirilməsi.

**Ölçmə xətası (Error of Measurement) -** Ölçmə nəzəriyyəsinə görə, fərziyyəyə əsaslanan orta qiymətlə faktiki qiymət arasında müşahidə; test və ölçü meyarları üzrə göstəricilərdə ardıcıllığın (yaxud etibarlılığın) olmamasından irəli gələn təqribi fərq.

**Ömürlük öyrənmə (Lifelong learning)** – İnsanlar öyrənməni gündəlik həyat normasına çevirməklə, öz həyatları boyu bilik, bacarıq və təcrübə əldə edə, onları mütəmadi yeniləşdirə, təkmilləşdirə bilərlər.

**Öyrədici proqram tədqiqatı tərzi (Tutorial study mode)** - Fənni yaxşı mənimsəmək məqsədilə, tələbələrin fənn koordinatoru tərəfindən təşkil edilmiş konsultasiyalarda iştirak etdiyi universitetdaxili təlim tərzi.

**Öyrənmə (Learning)** - Məlumatların öyrənənin zehninə köçürülməsindən ibarət olan və fərdin daxili yaradıcılığına əsaslanan idrak prosesi. Təlim verənin müdaxiləsi və ya dəstəyi ilə öyrənənin davranışını sabitlik dərəcəsinə doğru dəyişdirən bu proses müasir nəzəriyyələrə əsasən 7 prinsiplə müəyyənləşdirilir: 1) Öyrənmənin ictimai məzmunu son dərəcə önəmlidir; 2) Bilik ilə cəmiyyət həyatı həmahəngdir; 3) Öyrənmək bir üzvlük fəaliyyətidir; 4) Öyrənmək təcrübəyə bağlıdır; 5) İştirak etmə və səlahiyyət vermə ayrılmazdır; 6) Öyrənə bilməmək iştirakdan uzaq olmağın nəticəsidir; 7) Cəmiyyət ömür boyu öyrənən insanlardan ibarətdir.

**Öyrənmə bacarıqları (Study skills)** - Müvəffəqiyyətli akademik öyrənməyə yönəldilmiş cəhdin tələblərini bilmək. Fərdi xüsusiyyətlərdən asılı olan öyrənmə bacarıqları yaşın və təhsilin bütün

pillələri üçün əhəmiyyətlidir. Bəziləri normal tədris planı daxilində, digərləri isə öyrənmə bacarıqlarının komponentləri daxilində ayrıca rəftardan faydalanmaqla öyrənə bilərlər.

**Öyrənmə birliyi (Learning community) -** Eyni təlim məqsəd və dəyərlərinə kömək üçün müəllim və öyrənənlər arasında şəxsi əməkdaşlığın təmin olunması.

**Öyrənmə çətinliyi (Learning difficulty) -** xüsusi təhsil ehtiyacları olan şagird qrupunun məktəbdə yeni bacarıqlar əldə etdiyi zaman qarşısına çıxan çoxcəhətli problemlər.

**Öyrənmə çətinliyi olan şagird (Student with learning disabilities)** – Tədris prosesində öyrənmə çətinliyi olan şagirdlərdir. Bu şagirdlər tədris olunan fənlər, yaxud da yeni vərdiş və bacarıqları mənimsəməkdə çətinlik çəkirlər və xüsusi təhsil ehtiyacları olan şagirdlər qrupuna aiddirlər.

**Öyrənmə dəstəyi (Learning support) -** Öyrənənlərə müxtəlif forma və vasitələrlə göstərilən əlavə köməyin təmin edilməsi.

**Öyrənmə mərkəzi (Learning centre) -** Sinif daxilində müəyyən məqsədlər üzrə təlim materiallarının yerləşdirildiyi yer.

**Öyrənənə istiqamətləndirilmiş yanaşma (Learner-centered approach) -** Öyrətmə prosesinin fərd üzərində cəmləşməsi. Öyrənənlərin maraq, ehtiyac və imkanları əsasında qurulan təlim.

**Öyrənənin nəzarət etdiyi təlim (Learner-controlled training)** - Öyrənənə, ona ən münasib olan metodlardan istifadə edərək öyrənmə proqramını öz sürətinə görə təyin etməyə imkan yaradan təlim.

**Öyrənmə mühiti (Learning environment)** – Öyrənənin təlim prosesində əhatə olunduğu mühit.

**Öyrənmə nəticələri (Learning outcomes) -** Məktəb təcrübəsi nəticəsində öyrənənlərin əldə etdikləri bilik, bacarıq, fikir və dəyərlər.

**Öyrənmə strategiyası (Study strategy)** – Mövzusu yadda saxlama və xatırlama vərdişlərinin inkişafı üçün müəyyən edilmiş məqsəd və üsullar.

**Öyrənmə tərzləri (Learning styles)** Öyrənmənin əsas mərhələləri və növləri də daxil olmaqla öyrənmə prosesinin ən müxtəlif yollarını ifadə edən termin.

**Öyrətmək (Teach)** - Bilik, bacarıq və vərdişlərin şagird və ya tələbəyə ötürülməsi.

**Öyrətmə strategiyası (Teaching strategy) -** Dərs prosesində müəllimin istifadə etdiyi yanaşma və ya üsul. Məsələn, sualın cavablandırılması üçün müəllimin şagirdə müəyyən vaxt verməsi öyrətmə strategiyasına nümunə sayıla bilər.

**Özəl məktəb (Private school) -** Şəxsi təşkilatçılar tərəfindən təsis edilən, şəxsi büdcədən maliyyələşən ödənişli təhsil müəssisəsi. Özəl məktəblər aid olduğu quruma və yerinə yetirdiyi vəzifələrin əlamətlərinə görə üç növə ayrılır: a) müəyyən müəssisə və ya müəssisələr qrupuna aid olan - kadr tələbatından irəli gələn özəl məktəblər; b) qeyri-hökumət təşkilatı, siyasi partiya, həmkarlar ittifaqı və dini qurumlar yanında fəaliyyət göstərən özəl məktəblər; c) yerli özünüidarəetmə (bələdiyyə) orqanları yanında fəaliyyət göstərən özəl məktəblər.

**Özünü başqa şəxsin yerinə təqdim etmə (Impersonation) -** İmtahan qeydiyyatından keçməyən bir şəxsin imtahan qeydiyyatından keçmiş namizədin əvəzinə imtahanda qeyri-qanuni iştirakı.

**Özünüdərketmə (Metacognition)** – İnsanın şəxsi tələbat və qabiliyyətlərinə, fikir və hisslərinə, davranış və fəaliyyət motivlərinə şüurlu münasibəti. Özünüdərketmə öz-özünə öyrənmə prosesinin nizama salınmasına kömək edir.

**Özünüqiymətləndirmə və özünüdüşünmə (Self-assessment and self-reflection)** – Öyrənən, yaxud öyrədən subyektin öz işinin keyfiyyəti haqqında verdiyi hökm.

# P

**P - göstəricisi (p-value) -** Tapşırığın ***çətinlik dərəcəsini*** müəyyən edən statistik göstərici, *Böyük Britaniyada* çox vaxt tapşırığın ***asanlıq dərəcəsi*** də adlandırılır.

Tapşırığın **p** göstəricisi 1 və ya 0 olarsa, bu, tapşırığa düzgün cavab vermiş subyektlərin payını (və ya faiz nisbətini) göstərir. Subyektlərin cəmi 10 faizinin düzgün cavab verdiyi çətin sualın **p** göstəricisi **0.10** (və ya 10), subyektlərin 80 faizinin düzgün cavab verdiyi nisbətən asan sualın **p** göstəricisi isə **0.80** (və ya 80) olacaq.

**Paralel yoxlama (Double Marking) -** Esse və yazılı tapşırıqların iki nəfərdən ibarət müstəqil ekspert qrupu tərəfindən yoxlanılması. Qiymətlərdəki fərq o qədər də böyük olmayanda, adətən, qiymətləndirmə orta qiymətin çıxarılması ilə, fərq böyük olduqda isə, münsif qismində ekspertin dəvət edilməsi ilə həyata keçirilir.

**Pedaqogika (Pedagogy)** – 1. Tərbiyənin konkret tarixi qanunlarını, cəmiyyətin bu qanunlarla bağlılığını, cəmiyyətin mövcud təlim-tədris qaydalarını öyrənən elm;

2. təlim, təhsil və tərbiyənin əsaslarını öyrənən nəzəri və tətbiqi elmlərin toplusu;

3. ali təhsil müəssisələrində tədris edilən fənn.

**Pedaqoji institutun məzunu olan müəllim (Graduate teacher)** – Məktəbəqədər tərbiyə müəssisələri, ibtidai, yaxud orta məktəblər üçün hazırlanmış mütəxəssis müəllim.

**Pedaqoji kadrların ixtisasartırma təlimi (In-service teacher training) -** İşdən ayrılmamaq şərtilə, müəllimlərə ixtisaslarını təkmilləşdirmək, təhsil sahəsindəki yeniliklərlə tanış olmaq və peşəkar inkişaf imkanları yaratmaq məqsədi daşıyan xüsusi təlim kursları və proqramları

**Pedaqoji şura (Academic board) -** Funksiyası təhsil müəssisəsinin pedaqoji fəaliyyətinə nəzarət etməkdən ibarət olan pedaqoqlar şurası. Şura üzvlərinin bəziləri səsvermə yolu ilə, bəziləri isə tutduqları vəzifəyə görə seçilir.

**Peşə etikası (Code of Conduct)** – Peşəkar davranışı tənzim edən etik qaydalar, normalar. Məs., açıq imtahanların keçirilməsində qiymətləndirmə orqanlarının iş qaydasını tənzimləyən tövsiyə, yaxud təlimatlar.

**Peşə (müəllimlərə aid) etikası (Teachers' Code of Conduct)** – Müəllimlərin peşə fəaliyyətini və davranışını tənzim edən etik qaydalar, normalar.

**Peşə təhsili (Vocational/Technical education)** – Fərdləri əmək bazarına hazırlamaq üçün onların peşə-ixtisas məktəblərində konkret ixtisas və peşə üzrə müəyyən bilik və bacarıqlar əldə etməsini nəzərdə tutan təhsil. İlk peşə-ixtisas məktəbləri XVIII əsrin əvvəllərində Almaniyada, XIX əsrdə Fransada, XIX əsrin 70-ci illərində ABŞ-da yaranmışdır.

**Planlaşdırma (Planning) -** Şagirdin Fərdi Təhsil Proqramından **(FTP)** istifadə etməklə, tədris planı və təlimat strategiyalarının fərdin inkişaf səviyyəsinə, maraq və ehtiyaclarına, üstünlük verdiyi öyrənmə üsuluna əsasən tərtibi.

**Planlaşdırma və qiymətləndirməyə sistemli yanaşma (MAPA Integrated Approach on Planning and Evaluation) -** MAPA, Soros Cəmiyyətinin dəstəklədiyi və Portuqaliya İnkişaf Birliyinə daxil olan bir sıra Cənub-Şərqi Avropa ölkələrinin müxtəlif təhsil müəssisələri üçün hazırlanmış və təşkilati dəyişiklikləri uğurla özündə ehtiva edən vahid planlaşdırma və qiymətləndirmə metodudur.

**Problem yönümlü yanaşma (Problem approach)** - Təhsil planlaşdırması və siyasətinin nəzərdən keçirilməsinin asanlaşdırılması, təhsil prosesini nizama salan qanun və prinsiplərin eyniləşdirilməsi və s. məqsədlərlə tətbiq edilən metodologiya.

**Problemin həlli (Problem solving)** - Problemlərin həlli zamanı öz təfəkkür və inkişaflarının şagirdlər (tələbələr) tərəfindən qiymətləndirilməsinin öyrənilməsi metodu.

Eyni problemlərin həlli strategiyalarını təyin edən strateji müzakirələr və bu strategiyaların tədqiqi zamanı üzə çıxan əlavə problemlərin dəqiq müəyyən edilməsi də bu prosesə daxildir.

**Peşəkar inkişaf (Professional development)** – Təhsildə insan resurslarının, yəni, inzibatçı və texniki işçilər, rəhbərlik və müəllim heyətinin peşəkarlıq səviyyəsinin artırılması.

**Proqramlaşdırılmış öyrənmə (Programmed learning)** – Təlimin, sadədən mürəkkəbə prinsipilə müəyyən edilmiş əsaslar üzərində və təlim proqramları çərçivəsində təşkili.

**Prosentil (Percentile)** - Minimum göstəricisi **1**, maksimum göstəricisi isə **100** olan dərəcə şkalası. Bu şkalada **50** orta qiymət hesab edilir. Prosentil etalon və ya standart qrupda test iştirakçısının qiymətinə bərabər, yaxud bu qiymətdən aşağı qiymətlər alan şagirdlərin faiz nisbətini göstərir. Prosentil düzgün cavabların faiz nisbətini deyil, testdə iştirak etmiş şəxsin normal qrup standartına münasibətdəki mövqeyini göstərir.

**Psixometriya (Psychometry / psychometrics)** - eksperimental psixologiyanın bir bölməsi olub, insan davranış və keyfiyyətlərinin kəmiyyət baxımından qiymətləndirilməsi ilə məşğul olan, statistik ölçmə və insan davranışları modellərinə əsaslanan elm sahəsi.

# R

**Rabitə (Communication)** - Hər hansı məlumatın, materialın, siqnalın, işarənin, mənanın bir subyektdən digərinə ötürülməsi.

**Raş Modeli (Rasch Model)** - Corc Raşın şərəfinə adlandırılan, tapşırığın ən sadə, ancaq çox geniş yayılmış cavablandırılması modeli. Raş modelinə əsasən, şagirdlərin verilmiş tapşırıq suallarına uğurlu cavab verməsi ehtimalı fərdin bacarıqları ilə tapşırığın çətinliyi arasındakı əlaqədən asılıdır.

**Real hadisənin öyrənilməsi metodu (Case Study Method)** - Problemin həlli yollarının real hadisələr üzrə müəyyənləşdirilməsi. Bu metodun tətbiqi zamanı müəllim və şagirdlər (tələbələr) faktların öyrənilməsi, təhlili, qrup müzakirəsi vasitəsilə problemləri eyniləşdirməyi öyrənir, onların çoxtərəfli həlli yollarını düşünür, nəticələr haqqında daha dərin fikirləşir, təkliflər verir və mümkün həll yolunu qiymətləndirir, cavablarin düzgün, yaxud səhv olmasından asılı olmayaraq, situasiyaya uyğun hərəkət planları üzərində düşünməyə başlayırlar.

**Resurs mərkəzi (Resource Center)** - Audio-vizual materialların nümayişinə imkan yaradan texniki vasitələrə, çap və digər materiallar toplusuna malik olan *Resurs mərkəzi "audio-vizual mərkəz","təlim materialları mərkəzi", "öyrənməyə yardım laboratoriyası", "ictimai-informasiya resurs mərkəzi "* və s. adlar altında fəaliyyət göstərir.

**Risk qrupunda olan uşaqlar\təhlükəyə məruz qalan uşaq və gənclər (Children and youth at risk)** – Maddi imkansızlıq, erkən hamiləlik, əlillik, cinayət, zorakılıq, spirtli içki / narkotik istifadəsi və təhsil üçün əlverşsiz olan digər sosial-iqtisadi çətinliklərlə üzləşmiş uşaq və gənclər. Bu qrupa daxil olan uşaqlar tədris prosesində xüsusi diqqət və yanaşma tələb edən şagirdlərdir (valideyn himayəsindən məhrum olan uşaqlar, küçə uşaqları, qaçqın və məcburi köçkün uşaqları və s.). Bu qrupa həm təlim keçməyən, həm də təlimdə xüsusi ehtiyacları olan şagirdlər aiddir. Məs. 15 yaşlı uşağın oxumağı, yazmağı bacarmaması və s. vərdiş və ya bacarıqlarının olmaması.

**Roma İştirak Proqramı (Roma Participation Programme) -** 1997-2007-ci illərdə Mərkəzi və Şərqi Avropa ölkələrinin inteqrasiya prosesində Romanın qeyri-maliyyə sektorunun inkişafını dəstəkləməklə Roma əhalisinə köməyini təmin etmək məqsədilə hazırlanmış proqram.

2008-ci ildə öz fəaliyyətini Roma Təşəbbüskar Qrupu ilə birləşdirən bu program, romalılara öz həyatlarını qurmaq, ehtiyaclarını müstəqil şəkildə təmin etmək, onlarla bağlı qərarların qəbulunda iştirak etmək, demokratik proseslərdə bərabər əsaslarla öz iştirakının təmin olunmasını dövlətdən tələb etmək səlahiyyəti verir.

**Rubrika (Rubric) -** Tapşırığın yerinə yetirilməsi səviyyəsinin müəyyənləşdirilməsi üçün differensial dərəcələnməyə əsaslanan qiymətləndirmə vasitəsi.

## S

**Sağlamlıq təhsili (Health education) -** İnsan sağlamlığı üzrə təhsil; məktəbdə şagirdlərin sağlamlığının təmin olunması ilə bağlı aparılan tədris fəaliyyəti.

**Saxlama norması (Retention rate) -** Konkret tədris ilində qeydiyyata alınan şagirdlərin sayının növbəti ildə tədris kursunu davam etdirəcək şagirdlərin sayına nisbəti.

**Savadlanma (Literacy) -** Yaşlıların işdə, evdə, yaxud ictimai biriklərdə qarşılaşdığı məsələləri həll etmək üçün lazım olan oxu və yazı bacarıqları da daxil olmaqla informasiyanı qəbul etmək və ötürmək bacarığı.

**Savadlanma norması/ Savadlı əhali faizi (Literacy rate) -** İstənilən dildə sadə xəbəri yazmağı və oxumağı bacaran insanların sayının əhalinin ümumi sayına faiz nisbəti.

**Savadlı insan (şəxs) (Literate) -** Öz ana dilində oxumaq və yazmağı bacaran və bu imkandan reallığı öyrənmək vasitəsi kimi istifadə edən insan.

**Savadsızlıq (Illiteracy) -** Oxumağı və yazmağı bacarmamaq. Bir zamanlar adını yaza bilməyənlər savadsız hesab olunurdusa, hal-hazırda savad testlərinin minimal nəticəsi imkanı kimi gündəlik tapşırıqları yerinə yetirmək bacarığı ilə müəyyənləşir məs., insanların avtobusun vaxt cədvəlini oxuyub-oxuya bilməmək, istafadə etmə bacarıqsızlığı (funksional savadsızlıq).

**Seçmə fənn (Elective subject) -** Proqramda tələb olunmasa da, kredit üçün qəbul edilmiş təlim kursunun xüsusi qrupu daxilindən seçilən fənn.

**Seçim (Selection) -** Ayrı-ayrı şəxslərin seçilməsi və gələcəkdə onlara təhsil almaq, yaxud iş imkanları məhdud olduğu təqdirdə işə düzəlmək imkanının yaradılması məqsədilə imtahan nəticələrindən istifadə. İnkişaf etməkdə olan bir çox ölkələrdə şagirdlərin növbəti təhsil pilləsi üçün seçilməsində də imtahan nəticələrindən istifadə olunur.

**Semantik xəritələşdirmə (Semantik mapping)** - Mənaca bir-birinə bağlı sözlər silsiləsinin qrafik nümayişi. Lüğət ehtiyatının yaradılması mərhələsində xüsusi əhəmiyyəti olan semantik xəritə məntiqi təfəkkür elementlərini, oxu və yazı bacarıqlarını inkişaf etdirir.

**Semestr (Semester)** - Ali və orta ixtisas təhsili müəssisələrində akademik tədris ilinin hər biri 15-18 həftədən ibarət olmaqla iki hissəyə bölünməsi.

**Sertifikat/ Şəhadətnamə (Certification) -** İmtahan nəticələri əsasında tədris kursunun məzununa təqdim edilən və onun təhsil nailiyyətlərini təsdiqləyən rəsmi sənəd.

**Səbəb-nəticə əlaqəsi (Cause-effect relationship) -** Biri digərinin yaranma şərti olan və yaxud olması ehtimal edilən hadisələrin zəruri genetik əlaqəsi, bəzən səbəbiyyət (kazuallıq) də adlandırılır. Bu əlaqələr universal əhəmiyyətə malik olsa da, aralarındakı qarşılıqlı asılılıq həmişə səbəb-nəticə əlaqəsini nəzərdə tutmur.

**Səhmdar / Payçı / Tərəfdaş  (Stakeholder)** - Müəyyən sektor və ya sistem  üzrə iqtisadi, sosial və s. maraqları olan fiziki və ya hüquqi şəxs, müəssisə, təşkilat və ya qruplar.

**Səmərəlilik (Efficiency)** - Konkret bir sahədə müəyyən məqsədə nail olmaq üçün bacarıq, qabiliyyət və səriştə kimi müvafiq vasitələrin tətbiqi ilə keyfiyyətli nəticə əldə edilməsinə yönələn imkanlar.

**Səmərəlilik əmsalı / Faydalı iş əmsalı (Coefficient of efficiency)** - Şagird (tələbə) kontingenti üçün tələb olunan təhsil mərhələsinin konkret anında başlanğıc nöqtədə qarşıya qoyulmuş məqsədləri nəzərə almaqla həmin tələbə (şagird) kollektivinin təhsilinə sərf edilmiş müddət və əldə edilmiş nəticələr arasındakı tənasüb üzrə hesablanan əmsal.

**Sərbəst cavab imkanına malik tapşırıq (Free-Response Item) -** Test edilən şəxslərin öz fikirlərini sərbəst şəkildə bildirməsinə əsaslanan tapşırıq. Cavab çox qısa (məsələn, bir söz) yaxud geniş (məsələn, bir-iki cümlə) ola bilər.

**Səthi etibarlılıq (Face Validity)** - Testin ancaq araşdırmaya əsasən qiymətləndirilməsi. Məsələn, testin formatı onun əsli ilə olan müvafiqlik xüsusiyyətinə, yaxud qəbul edilmiş tədris praktikasına uyğunluq dərəcəsinə görə yoxlanıla bilər. (bax: **Etibarlılıq**).

**Sınaq xarakterli tətbiq etmə (Pilot) -** Qiymətləndirmə sistemini tam şəkildə tətbiq etməzdən əvvəl, onu eksperimental məktəbdə nisbətən geniş miqyasda təcrübədən keçirməklə sistemdəki nöqsan və çatışmazlıqların aşkara çıxarılaraq aradan qaldırılması.

**Sızma (Leakage) -** İmtahan materiallarının, yaxud məlumatların rəsmi açıqlanma tarixindən əvvəl icazəsiz olaraq açıqlanması.

**Simvolların optik tanınması cihazı (OCR) -** İCR (Simvolların İntellektual Tanınması) proqram təminatına malik skaner vasitəsi ilə kompütere avtomatik şəkildə daxil edilən geniş diapazonlu məlumatların (şagird haqqında məlumatlar, çoxsaylı seçim imkanına malik cavab və qısa cavab) simvollarının (rəqəm, hərf, qiymətlər) oxunması və tanınmasına imkan verən xüsusi cihaz.

**Sinif dili (Classroom language)** - Forma və funksiyasına görə sinifdənkənar şəraitdə istifadə edilən dildən fərqlənən təlimatverici, yaxud öyrədici dil.

**Sinif ekvivalenti (Grade Equivalent) -** Şagirdin nəticələrini verilmiş sinif səviyyəsində orta şagird nəticələri baxımından xarakterizə edən qiymət. Məsələn, ABŞ-da 5.5. ekvivalent sinif qiyməti o deməkdir ki, şagirdin qiyməti V sinifdə beş ay ərzində təhsil alan və orta səviyyəli tapşırığı yerinə yetirən orta şagird qiyməti ilə eynidir. Bu qiymət siniflər arasında nəzəri və ya təqribi müqayisə aparmaq imkanı yaradır. Qiymətləndirmə uşaq bağçasında birinci ilin sentyabr ayından orta məktəbin son ilinin iyun ayına qədər olan bütün tədris müddətini əhatə edir. Dərəcələmə prosesində qiymətləndirmə üçün konkret faydası olan sinif ekvivalentləri ancaq siniflərin təqribi müqayisə vasitəsi kimi istifadə oluna bilər. Bu halda belə bir ekvivalent şagirdin dərs ilinin ortasında V sinfə veriləcək testdə məhz hansı qiyməti alacağını göstərməyə bilər.

**Sinif menecerliyi (Classroom management)** – Sinfin təşkili və idarə olunması. Səmərəli və təsirli təlimatlara, şagirdlərin müsbət  davranışlarını təmin etməyə kömək edən təşkilatçılıq, nizam-intizam fəaliyyəti metodları.

**Sinfin şəraiti (Classroom climate)** – Şagirdlərin (tələbələrin), müəllimlərin və sinfin maddi-texniki atributlarının, sanitar-ekoloji vəziyyətinin qarşılıqlı əlaqəsi.

**Sinif kitabxanası (Classroom library)** Sinif auditoriyasının istifadəsi üçün xüsusi seçilmiş və vaxtaşırı dəyişdirilən kitablar toplusu.

**Sinif qiymətləndirilməsi (Classroom assessment)** - Xüsusi ərazidə fərdi, yaxud qrup şəklində şagirdlərin əldə etdikləri bilik, bacarıq və vərdişləri xal verməklə qiymətləndirmək məqsədilə müəllimlər tərəfindən tətbiq olunan, vaxtaşırı inkişaf etdirilən, qiymətləndirmə.

**Sinif müəllimi (Classroom teacher)** - Körpələr evi, ibtidai və ya orta məktəb müəllimi.

**Sinif rəhbəri (Mainstream class teacher) -** Hər bir şagirdin cəmiyyət üçün yararlı şəxsiyyət kimi yetişdirilməsində, onun fərdi keyfiyyət və tərbiyəsinin formalaşdırılmasında məktəbə yardım edən mütəxəssis-müəllim və şagirdlərlə cəmiyyət arasında mədəniyyət mübadiləsini həyata keçirən vasitəçidir.

Təlim-tədris prosesində həlledici rol oynayan sinif rəhbəri müəllimlərin birgə səyi ilə bütün sinfə müxtəlif tərdris üsulları ilə elmi biliklərin aşılanması üçün çalışır, şagirdin fərdi inkişafına bilavasitə nəzarət edir, sinfin ümumi səviyyəsini nəzərə alaraq əlverişli psixoloji şərait yaradır.

**Sistemli islahat (Systematic reform)** - Təhsil prosesinin bütün səviyyələrini əhatə edən və ardıcıl sürətdə bir-birini tamamlayan islahat.

**Situativ təqdimat** (**Situational Presentation**) - Yeni dərsi sadə hekayə, yaxud bu məqsədlə yaradılan situasiyalar vasitəsi ilə təqdim etmək üsulu. Situasiyaların yaradılması üçün müəllim müvafiq şəkillərdən də faydalana bilər.

**Siyahıyaalınma (Enrolment)** - Cari tədris ili ərzində konkret sinifdə təhsil alacaq şagirdlərin siyahıya alınması. Belə bir siyahıyaalma adətən, əhali sıxlığı, miqrasiya prosesi, maliyyə dəstəyinin səviyyəsi, siyahıya alınmış məktəbyaşlı uşaqların ərazilər üzrə paylanma nisbəti, tədris planının növü və s. amillər də nəzərə alınmaqla aparılır.

**Sokrat/Erasmus (Socrates/Erasmus)** - Əsası 1987-ci ildə Avropa Birliyi tərəfindən qoyulmuş proqram.

Bu proqramın əsas məramı Avropada ali təhsilin keyfiyyətini artırmaq və Avropa standartlarını gücləndirməkdən ibarətdir. Proqrama cəlb edilmiş ölkələrin universitetləri arasında əməkdaşlığın təşviqi, şagird və pedaqoqların qarşılıqlı mübadiləsinin təmin olunması, proqram ölkələrində verilən diplomların qarşılıqlı şəkildə tanınması, təhsil sahəsində şəffaflığın artırılması Sokrat/Erasmus proqramının məqsədlərinə daxildir.

**Sorğu vərəqəsi (Questionnaire) -** Təhsil üzrə peşəkar fəaliyyətin ən müxtəlif cəhətləri haqqında məlumat və rəylərin toplanması üçün istifadə edilən, məqsədəuyğun sualların əks olunduğu vərəqələr.

**Sosial ayrı-seçkilik (Social discrimination)** - İrqi, cinsi, etnik, dini və sosial-iqtisadi mənsubiyyətinə görə bir tərəfin digər tərəf ilə müqayisədə üstün, yaxud aşağı tutulması; ona qarşı qeyri-obyektiv münasibət göstərilməsi; sosial ədalətsizlik.

**Sosial bacarıqlar (Social skills) -** Sosial və fərdlərarası bacarıqlar. Bunlar bir-birilə qarşılıqlı əlaqədədir. İctimai bacarıqlar təhsil müəssisələrində və iş yerlərindəki mövcud sosial münasibətlərin iştirakçıları arasında həssas və səmərəli əlaqəni təmin edir. Şagirdlər (tələbələr) insan-cəmiyyət münasibətləri, ünsiyyət etiketi qaydaları və s. kimi bacarıqları təcrübədən keçirməlidirlər. (bax*:* **Birgə/kooperativ qrup işi / şəxsi** və **sosial təhsil**)

**Spesifikasiya şəbəkəsi (Specification Grid) -** Sual tapşırığının, yaxud digər qiymətləndirmə komponentinin formatını əks etdirən plan və ya cədvəl. Bir qayda olaraq, spesifikasiya şəbəkəsində hər bir mövzu və bacarıq sahəsi üzrə testin keçirilməsi üçün daxil ediləcək tapşırıqların miqdarı göstərilir.

**"Stanayn" - Doqquz ballıq şkala üzrə qiymətləndirmə (Stanine - (*Standard*+*Nine* ) -** Ümumi göstəricini doqquz qrupa bölən standart qiymətləndirmə şkalasının vahidi. Burada, ***"stanayn" 5*** – orta göstəricidir. ***"Stanayn"*** sözü – doqquz ballıq şkala üzrə standart qiymətləndirmə sözündən əmələ gəlmişdir.

***Stanayn və prosentillərin müqayisəli cədvəli :***
**Stanaynlar – Təqribi prosentillər**
**İmtahan olunanların faiz nisbəti:**

| | | | | |
|---|---|---|---|---|
| ***9*** | - | ***Ən yüksək səviyyə*** | ***96 - 99*** | ***4%*** |
| ***8*** | - | ***Yüksək səviyyə*** | ***90 - 95*** | ***7%*** |
| ***7*** | - | ***Orta göstəricidən çox yuxarı səviyyə*** | ***78 - 89*** | ***12%*** |
| ***6*** | - | ***Orta göstəricidən yuxarı səviyyə*** | ***60 - 77*** | ***17%*** |
| ***5*** | - | ***Orta səviyyə*** | ***41 - 59*** | ***20%*** |
| ***4*** | - | ***Orta göstəricidən bir az aşağı səviyyə*** | ***23 - 40*** | ***17%*** |
| ***3*** | - | ***Orta göstəricidən çox aşağı səviyyə*** | ***11 - 22*** | ***12%*** |
| ***2*** | - | ***Aşağı səviyyə*** | ***5 - 10*** | ***7%*** |
| ***1*** | - | ***Ən aşağı səviyyə*** | ***1 - 4*** | ***4%*** |

**Standartlar (Standards) -** Şagirdlərin nəticələrinin keyfiyyətini, tədris metodları və tədris proqramını dəyərləndirmək üçün istifadə olunan razılaşdırılmış meyarlar.

**Standart qiymət (Standard Score) -** Sərbəst orta və standart kənarlaşmanı əldə etmək üçün miqyaslaşdırılan törəmə qiymət (bax, *Z* ***-qiyməti*** və ***T-qiyməti***).

**Standart kənarlaşma (Standard Deviation)** - Qiymətin toplanılması yolu ilə qrupdakı bütün qiymətlərin orta göstəricisi arasındakı fərqin ifadəsi üçün istifadə olunan statistik göstərici. Normal bölgüdə qiymətlərin təxminən 2/3 hissəsi (68.3%) orta göstəricidən yuxarı bir standart kənarlaşma həddində və orta göstəricidən aşağı bir standart kənarlaşma həddində olur. Qiymətlərin 1/6 hissəsi orta göstəricidən bir standart kənarlaşma həddinə qədər yuxarı, yaxud aşağı olur.

**Standartlaşdırma (Standardization) -** Qiymətləndirmənin planlaşdırılması və keçirilməsi, həmçinin balların verilməsi üçün nəzərdə tutulan ardıcıl üsullar sistemi. Standartlaşdırmanın məqsədi bütün şagirdlərin eyni şərtlərlə qiymətləndirilməsini, onların qiymətlərinin eyni əhəmiyyətə malik olmasını və ayrı-seçkiliyə məruz qalmamasını təmin etməkdir. Qiymətlər ayrı-ayrı şəxs və ya qrupların müqayisə olunması üçün istifadə edilərkən standartlaşdırılmış prosedurlar çox böyük əhəmiyyət kəsb edir.

**Standartlaşdırılmış test (Standardized Test)** – Bir şagirdin (yaxud şagirdlərin) bilik və bacarıqlarının dəyərləndirilməsi üçün tətbiq edilmiş eyni ölçü vasitəsinin digər şagirdlərin də öyrənmə bacarıqlarının müəyyənləşdirilməsi zamanı tətbiqi.

Standartlaşdırılmış qiymətlər (məsələn, *orta, standart kənarlaşma, prosentillər*) silsiləvi test imtahanlarında iştirak edən şagirdin öz qiymətləri və həmin qiymətlərə nəzərən öz inkişaf mərhələləri arasında müqayisə apara bilməsi üçün işlənib hazırlanmışdır. SAT, GRE, GMAT, LSAT, MCAT, TOEFL və s. imtahanları buna misal göstərmək olar.

**Struktur yanaşma (Structural Approach) -** Tədris proqramının qrammatik strukturlar əsasında tədrisi.

**Strukturlaşdırılmış sual (Structured Question) -** Ümumi məzmun, yaxud stimulyasiyaedici materialın bir hissəsi ilə əlaqəli bir neçə alt sualdan (element) ibarət olub verilmiş variantlardan seçim etməyi tələb edən tapşırıq. Alt suallar bir-birindən asılı olmaya bilər, yaxud namizədlərə daha mürəkkəb tapşırıq vermək üçün müəyyən sıra üzrə düzülə bilər.

**Suala hərtərəfli yanaşma (Lateral thinking) -** Ənənəvi üsullardan fərqli olaraq, qeyri-ardıcıl və qeyri-məntiqi vasitələrlə müxtəlif problemlərin dörd tənqidi faktor əsasında həll edilməsi üzərində cəmlənən yanaşma. Bu faktorlar aşağıdakılardır: *1. Problemin dərk edilməsinə, başa düşülməsinə əks olan dominant ideyaları tanımaq; 2. Nəticələr üçün müxtəlif yanaşmalar axtarmaq; 3. Düşünmənin möhkəm olmayan nəzarəti; 4. Alternativ ideyaların istifadəsi.* Bu yanaşma yaradıcılıq anlayışı ilə əlaqəlidir.

**Subyektiv rəy (Subjective) -** Konkret bir insana xas olan fərdi, şəxsi, bəzən qeyri-obyektiv fikir və düşüncələrin ifadəsi.

Məsələn, sinifdə qiymətlərin verilməsi, adətən, müəllimin subyektiv mövqeyindən asılı olur.

**Subyektiv tapşırıq (Subjective item) -** Qiymət verəndən cavabın keyfiyyətinə (məsələn, şəxsin ədəbi və ya rəsmin bədii xüsusiyyətləri) dair şəxsi fikrin yürüdülməsini tələb edən tapşırıq. Subyektiv rəy və reallıq arasındakı fərqləri azaltmaq üçün qiymət verənin mühakiməsi qiymətləndirmə sxemləri və təsviredici icra elementləri ilə məhdudlaşdırıla bilər.

**Summativ qiymətləndirmə (Summative assessment) -** Tədris prosesinin müəyyən mərhələlərində (məs., tədris vahidinin, yarım ilin və ilin sonunda) şagirdlərin əldə etdikləri nəticələrinin yoxlanılması məqsədilə keçirilən qiymətləndirmə növüdür. Summativ qiymətləndirmə şagirdlər tərəfindən məzmun standartlarının mənimsəmə səviyyəsinin etibarlı göstəricisidir. Şagirdin təlim nailiyyətlərinin konkret standart və ya standart qrupunda nəzərdə tutulan məqsədlərə nail olma dərəcəsini müəyyənləşdirib rəqəmli qiymət qoymaq imkanını verir.

**Sürət testi (Speed Test)** – Qiymətləndirmənin müəyyən vaxt müddətində düzgün yerinə yetirilən tapşırıqların sayına əsasən aparıldığı test. (bax: **Bacarıq Testi**).

## Ş

**Şagirdlərin (Tələbələrin) Beynəlxalq Qiymətləndirilməsi üzrə Proqram (PİSA-Programme for International Students Assessment)** - İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının əsasən Cənub Qərbi Avropa ölkələrində tətbiq etdiyi könüllü beynəlxalq proqram. **PİSA** proqramı bu ölkələrə yeni əsrdə şagirdlərin (tələbələrin) bacarıq və biliklərinə nəzarət etmək, təhsil sistemlərində aparılan islahatlar haqqında müqayisəli şəkildə məlumat toplamaq imkanı yaratmaqla bərabər məktəblərin şagirdlərin gələcəkdə qarşılaşa biləcəyi çətinliklərə onları necə hazırlaşdırdığını araşdırmağa cəhd göstərir. **PİSA** - 3 sahəni əhatə edir: 1) oxuma savadı (2002); 2) riyazi savad (2003); 3) elmi savad (2006).

**Şagirdlərin son sinfə çatma nisbəti (Cohort survival rates)** – Təlim prosesinin ilk mərhələsinə qoşulan şagirdlərin ümumi sayının, təlim prosesinin son mərhələsinədək təhsilini davam edən şagirdlərin ümumi sayına olan nisbəti.

**Şagirdyönümlü məktəb (Child-centered school)** – Təlimin şagirdlərin fərdi maraq, ehtiyac və imkanları üzərində qurulduğu, öyrənmə prosesində əsasən təcrübəyə üstünlük verilən məktəb.

**Şagird-dərslik nisbəti (Student-textbook ratio)** – Müvafiq dərs ilində tələbələrin ümumi sayının fənlər üzrə kitabların ümumi sayına olan nisbəti.

**Şagirdlik\istehsalat şəraitində təhsil** (**Apprenticeship) -** Öyrənən subyektin peşəkar inkişafı üçün cavabdehliyi öz üzərinə götürmüş usta, sənətkar, yaxud mütəxəssis-müəllimlərin rəhbərliyi altında həyata keçirilən və xüsusilə də konkret bir sahədə təcrübi bacarıqların mənimsənilməsinə yönələn təlim prosesi.

**Şəffaflıq (Transparency) -** İmtahan sistemi ilə əlaqədar proseslərə dair ictimaiyyətin, xüsusən məktəblərin, müəllimlərin və şagirdlərin məlumatlılıq səviyyəsi.

**Şərhlər rubrikası (Annotated rubric)** – Çox vaxt aprobasiyadan (bəyənmə, təsdiqləmə) və ya ilkin qiymətləndirmədən sonra qiyməti müəyyən edən heyət tərəfindən irəli sürülən mülahizələr. Bu qeydlərdə meyarların mənası, rubrika və meyarlar arasındakı fərqlər izah olunur, şərhlər qiymətin etibarlılığı və yekdilliyi bacarığının aşılanması üçün vacib vasitə kimi tətbiq edilir.

Böyük Britaniyada "qiymətin şərhlərlə verilməsi sxemi" terminindən mümkün cavabların araşdırılması ilə əldə edilən nəticələrə əsaslanan ilkin qiymətləndirmə sxeminə uyğun olaraq işlənib hazırlanmış «yekun» qiymətləndirmə sxemini bildirmək üçün istifadə olunur.

# T

**T-qiymət (T-score)** - Orta göstəricisi 50, standart kənarlaşması 10 olan standart qiymət. Yəni, T-qiyməti 50 olan şəxsin nəticəsi orta qiymət səviyyəsində, T-qiyməti 60 olan şəxsin nəticəsi isə, orta qiymətdən bir standart kənarlaşma pilləsi qədər yuxarı hesab edilir.

T-qiyməti standartlaşdırılmış test normalarını müəyyən etmək üçün istifadə edilir, normallaşdırılmış standart qiyməti müvafiq qiymətlərə dəyişməklə alınır.

**Tam Hərəki Cavab (Total Physical Response - TPR) -** Yeni lüğətin müəllimlər tərəfindən göstərişlər/əmrlər vasitəsi ilə təqdim olunması üsulu. Tələbələr müəllimin göstəriş və əmrlərini olduğu kimi yerinə yetirirlər. Məs: Kitablarınızı açın/örtün və s. Bu metoddan daha çox dilin öyrədilməsinin başlanğıc mərhələsində istifadə edilir.

**Tam kurikulum (Whole curriculum)** - Məktəbin tam tədris planı və bütün digər tədris planı materiallarının cəmi.

**Tanıma tapşırığı (Recognition Item) -** Test edilən şəxsdən iki və ya daha artıq cavab variantlarından düzgün olan cavabı seçməsini tələb edən tapşırıq (bax: **Yada salma tələb edən tapşırıq**).

**Tapşırıq (Item) -** Təhlil və ya qiymətləndirmə vasitəsi olan ayrıca sual və ya çalışma.

**Tapşırıq bankı (Item bank)** – Konkret göstəricilər (tapşırığın növü, mövzusu, həmin tapşırıqla qiymətləndirilən bacarıq, çətinlik dərəcəsi və s.) üzrə kateqoriyalara ayrılmış tapşırıqlar toplusu. Bankdan götürülən tapşırıqlar əvvəlcədən müəyyən edilmiş xüsusiyyətlərə uyğun olaraq testin işlənib hazırlanmasında istifadə edilir.

**Tapşırığa cavab nəzəriyyəsi (və ya gizli xüsusiyyətlər nəzəriyyəsi, TCN (Item Response Theory, IRT)** – Şagirdin tapşırığa düzgün cavab vermə ehtimalını onun bacarıqları və tapşırığın çətinliyi ilə əlaqələndirmək üçün ən sadə formada riyazi modeldən istifadə edən psixometrik vasitə.

Bu nəzəriyyə, tapşırıqların mütləq ölçmə şkalasında standartlaşdırılmasına imkan verir.

**Tapşırığa əsaslanan öyrətmə (Task-based Learning, TBL) -** Müəllimin şagirdlərə daha çox məna kəsb edən tapşırıqları həll etdirməklə öyrətmə üsulu. Müəllim şagirdlərə verilmiş tapşırıqları yerinə yetirərkən istifadə etdikləri sözlər, ifadələr və s. haqqında rəy söyləməyi tapşıra bilər, amma onların əsas fikri tapşırıq üzərində cəmlənməlidir. Sərbəst işlər tapşırıq əsaslı öyrətməyə nümunə hesab edilə bilər.

**Tapşırıq təhlili (Task analysis)** - Qavrama bacarıqlarının yüksək qaydalarından imtina etməklə mürəkkəb bacarıqların daha sadə, kiçik, növbəti yarım bacarıqlara keçirilməsi.

**TEMPUS (TEMPUS) -** Əsası 1990-cı ildə qoyulmuş Ali Təhsildə Əməkdaşlığın trans-Avropa proqramı.

Mərkəzi və Şərqi Avropa ölkələrində (PHARE) və keçmiş Sovetlər Birliyi respublikalarında və Monqolustanda (TACİS) iqtisadi və sosial islahatlara köməyi təmin edən proqramların bir hissəsi. TEMPUS bu ölkələrdə ali təhsil sistemini yenidən qurmaq üçün onları bazar iqtisadiyyatının tələblərinə uyğunlaşdırmaq məqsədi daşıyan Avropa Birliyinin kömək sxemidir.

**Test (Test)** - 1. Şagirdin bilik və bacarıq səviyyəsini yoxlamaq üçün izah edilə bilən işin (icranın) kəmiyyətini müəyyən edən cavabların əldə olunması məqsədilə hazırlanan sistemli məsələ, yaxud suallar silsiləsi. 2. Ölçü, misal üçün: dinləmə testi, statistik test. 3. Bir şeyin həqiqiliyini və dəqiqliyini müəyyən edən meyar. 4. Fərziyyənin məntiqə uyğun olduğunu müəyyən etmək üçün tətbiq edilən üsul.

**Test bəndi (Test item)** – Test, yaxud yoxlamada imtahan verənin cavabını aydınlaşdırmaq üçün hazırlanmış fərdi sual, problem və ya tapşırıq.

**Test dərsliyi (Test manual) -** Xüsusi test cavablarını izahlı şəkildə aydınlaşdıran məlumat kitabı.

**Testə meyllilik (Test bias) -** Ölçülən konstrukta əsasən müqayisə edilən iki və ya daha çox qrupun test qiymətlərində və ya həmin qiymətlərə dair proqnozlarda olan fərqlər (bax: **Yanlış Olan İlkin Qənaət**).

**Test növləri (Test types):** İstifadə məqsədinə görə adlandırılan testlər. Test növləri aşağıdakı kimi təsnif edilir:

*A) Nailiyyətlər testi (Achievement test)* **-** Sinifdə öyrədilən materialın öyrənənlər tərəfindən necə mənimsənilməsini müəyyən etmək üçün istifadə edilən test növü. Bu növ testlər çox vaxt ya rübün / semestrin ya da dərs ilinin sonunda keçirilir.

*B) Diaqnostik test (Diagnostic test)* - Dil öyrənənlərin problemlərini müəyyən etmək üçün istifadə edilən test növü. Bu testin köməyi ilə müəllim öyrənənlərin biliklərinin güclü və zəif tərəflərini diaqnoz edərək öyrənir ki, bu da müəllimə gələcəkdə nəyi öyrətməyi planlaşdırmaqda yardımçı olur.

*C) Məqsədli test (Objective test)* –İmtahan verənin fikrini nəzərə almadan onun cavablarının qiymətləndirilməsi. Belə testlərdə öyrənən düzgün hesab etdiyi cavablardan birini işarələyir.

*D) Yerləşdirmə testi (Placement test)* –Dərs ilinin əvvəlində şagird və ya tələbələrin bilik və bacarıq səviyyələrini müəyyənləşdirməklə onları öz səviyyələrinə uyğun qrup, yaxud siniflərə təyin etmək üçün istifadə edilən test növü;

*E) Sumativ test (Summative test)* **–** Təlimin sonunda istifadə edilən ümumiləşdici test növü;

*İ) İnkişaf testi (Progress test)* - Mənimsəmənin hansı səviyyədə olmasını müəyyən etmək məqsədi ilə təlim ərəfəsində istifadə edilən test növü.

**Test - Təqdimat - Test (Test - Teach - Test, TTT)** –Yeni dərs və ya mövzunun öyrədilməsi üsulu.

*İlkin sınaq* mərhələsində - tələbələrin müəyyən materialı hansı səviyyədə bilmələrini təyin etmək məqsədilə verilən tapşırıq müəllimin köməyi olmadan yerinə yetirilir.

*Öyrətmə* mərhələsində - yeni material müəllim tərəfindən təqdim edilir.

*İkinci sınaq* mərhələsində - tələbələrə öyrədilən yeni material əsasında tapşırıq verilir və mənimsəmənin dərəcəsi müəyyən edilir.

**Testin yerinə yetirilməsində müdriklik (Test-wiseness) - "**test suallarına dair məlumatlı olmaq" da adlanır;

Doğru cavabı bilmədən testi yerinə yetirmək bacarığı və o qədər də səriştəsi olmayan test müəlliflərinə üstün gəlmək bacarığı. Məsələn, çoxsaylı seçim imkanı olan tapşırıqlarda çaşdırıcı variantları aşkar edib onları kənara qoymaqla vaxt qazanmaq (vaxta qənaət etmək) bacarığı. Belə ki, bu cür variantlar çoxsaylı seçim imkanı olan tapşırıqların hazırlanma qaydalarını pozur.

**Tədqiqat metodu (Research method**) - Nəzərdə tutulan fənn, yaxud problem ilə əlaqəli müvafiq yeni fakt və prinsipləri kəşf etmək, fərqləndirmək və bir daha nəzərdən keçirmək üçün həmin fənn və ya problemə sistemli sorğunun tətbiqinin bir neçə ümumi növlərindən hər hansı biri.

**Tədrisin etibarlılığı (Instructional Validity) -** Faktiki tədris edilən məsələlərin testin məzmununda tam əks olunmasının sübuta yetirilməsi. (bax: **Etibarlılıq**).

**Tədrisin məqsədi (Teaching Objective / Curriculum Objective) -** Tədris proqramının konkret qısamüddətli məqsədi.

**Tədris proqramı (Syllabus)** - Fənn sahəsi və ya fənlər qrupu üzrə yerinə yetirilən proqram. *Kurikulum* və ya *Tədris proqramı* terminlərini bir-birindən fərqləndirmək çətindir. Məsələn, biz tarix proqramı, 5-ci sinif proqramı və ya məktəb proqramından danışarkən eyni yolla V sinif və ya tarix kurikulumu da deyə bilərik.

**Tədrisdə təcrid etmə (Segregation in schooling)** - Məhdudlaşdırılmış ərazidə məcburi könüllü yaşayış yeri vasitəsilə irqin, sinfin, cinsin və ya etnik qrupun məkanca ayrılması və ya təcrid edilməsi.

**Tədris məqsədi (Educational aim)** – Tədris proqramı çərçivəsində nəzərdə tutulan və tam, yaxud qismən yerinə yetirilən uzunmüddətli məqsəd. Qismən yerinə yetirilən tədris məqsədinə tam əldə edilməsi məktəb mühitindən kənarda mümkün olan məqsədlər aiddir. Məsələn, şagirdlərin özlərinə inanmalarına, yaradıcı, məhsuldar və sadiq vətəndaş kimi yetişmələrinə yardım etməkdən ibarət olan tədris məqsədi buna nümunə sayıla bilər.

**Tədris prosesi (Educational process)** – təhsil məsələləri, şagirdlərin inkişaf və təhsillə bağlı məsələlərinin həll olunduğu müəllim və şagirdin məqsədyönlü fəaliyyəti.

**Tədris ləvazimatı (Educational materials) -** 1) müxtəlif müəllif mövqeyindən müəyyən bir fənnin elmi əsaslarını izah edən kitablar; 2) metodiki materiallar, izahatlar, müxtəlif fənlər barədə tövsiyələrdən bəhs edən müəllim və ya şagirdlər üçün kitablar; 3) təlim-tədris prosesində mənbə kimi istifadə edilən xüsusi hazırlanmış fənn materialları.

**Tədris ili (School year) -** təhsil müəssisələrində dərsin başlanmasından tətil vaxtına qədər davam edən müddət. İlk dəfə Qərbi Avropa məktəblərində tətbiq olunub, XVI əsrin sonuna qədər il boyu davam etmişdir.

**Tədrisin mövcud səviyyəsi (Present level of education performance)** Şagirdin (tələbənin) akademik nailiyyətinin səviyyəsi, ünsiyyət bacarıq və vərdişləri, davranışı və başqa fəaliyyət sahələri haqqında məlumatı özündə əks etdirən Fərdi Təhsil Planlaşdırması komponenti.

**Təhsil (Education)** – Sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsi prosesi və əsas təhsil üzrə ümumi təlim nəticələri.

**Təhsildə məlumat bazası idarəetmə sistemləri (Database management systems in education)** - Dəqiq və həqiqi maarifləndirici məlumatla təmin və idarə edən sistem. Məlumat bazası idarəetmə sisteminin məqsədi müəyyən fəaliyyət sahəsinə uyğun olan məlumatı toplamaq, emal etmək, yeniləşdirmək, qorumaq və həmin məlumatla əlaqəli spesifik suallara cavabları təmin etmək üçün ondan faydalanmağı bacarmaq, analiz etmək və məlumat mübadiləsini təmin etməkdir. Məlumat bazası idarəetmə sistemləri, kiçik mikrokompüterlərdən böyük mərkəzi blok sistemlərə qədər olan kompüter sistemlərində etibarlıdır, bir istifadəçi tərəfindən digər istifadəçinin əldə etdiyi nəticələrə təsir etmək ehtimalını istisna edir.

**Təhsildən yayınmaq (Drop out) -** Təhsili müəyyən mərhələni tam başa vurmadan aralıq mərhələdə tərk etmək.

**Təhsildən yayınma səviyyəsi (Drop-out rate) -** İl ərzində konkret məktəb, yaxud ərazi üzrə təhsildən yayınan şagirdlərin (tələbələrin) ümumi sayının təhsilə davam edən şagirdlərin (tələbələrin) ümumi sayına nisbəti.

**Təhsilin bakalavr pilləsi (Bachelor of Education BEd)** – Müvafiq ixtisaslar üzrə geniş profilli mütəxəssis hazırlığını təmin edən və məzunlara bakalavr dərəcəsi verən ali peşə-ixtisas təhsilinin birinci səviyyəsi.

**Təhsilin Beynəlxalq Standart Təsnifatı (International Standard Classification of Education-ISCE) -** Ölkənin milli təhsil sisteminin quruluşu, təhsil siyasətinin təhlili və qərar qəbulu üçün hazırlanmış çoxməqsədli sistem.

Təhsilin Beynəlxalq Standart Təsnifatından müxtəlif istiqamətlər üzrə təhsilin statistikasının aparılması, məsələn, şagirdlərin (tələbələrin) qeydiyyatı, təhsilin inkişafı ilə bağlı intellektual və maliyyə resurslarının formalaşdırılması və s. məqsədlərlə istifadə edilə bilər.

**Təhsildə bərabərlik (Equality to education) -** İrqi, cinsi, yaşı, dili, səhhəti, sosial-maddi vəziyyəti, yaşayış yeri, siyasi əqidəsi, məhkum olması, milli və dini mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşların təhsil almaq üçün eyni imkanlarla təmin olunması. Bərabərlik heç də

həmişə eyni cür davranmaq yaxud rəftar etmək mənasını vermir; təhsildə bərabərlik bu sahədə müxtəlif ehtiyaclara, zərurətlərə ünvanlanır.

**Təhsilin dayaqları (Pillars of education)** - Avropa Komissiyasının keçmiş Prezidenti Jak Delors 1996-cı ilin aprelində **UNESCO**-ya XXI əsr üçün Beynəlxalq Komissiyanın Təhsil üzrə məruzəsini təqdim edərkən təhsilin 4 dayağını diqqətə çatdırmışdır:
*1)Bilmək üçün öyrənmək; 2) Qurub-yaratmaq üçün öyrənmək; 3)Birgə dinc yanaşı yaşamaq üçün öyrənmək; 4) Yaşamaq üçün öyrənmək.*

İnsan həyatının bu dörd dayağa söykənməsi üçün insanın təhsil mühitində olması məqsədilə müxtəlif dövr və sahələrin bir-birini tamamlaması və onların qarşılıqlı əlaqəsi labüddür.

**Təhsil fəlsəfəsi (Educational philosophy)** - Təhsil və fəlsəfənin vəhdəti olub, təhsil sisteminin tədris proqramlarının əsas istiqaməti (yəni onun mahiyyəti, inkişafı, məqsəd və vasitələri) üzərində qurulması.

**Təhsil idarəçiliyi (Educational management)** – Təhsillə bağlı qarşıda duran məqsədlərdən asılı olaraq, bütün işlərin koordinasiyası, pedaqoji heyətə mümkün səhvlər barədə xəbərdarlıq etmək və onlara lazımi köməyi göstərmək.

Təhsil idarəçiliyinin **prinsipləri**: *xəbərdaredici xarakter, planauyğunluq, əsaslılıq, hərtərəflilik, nəzəri və metodoloji hazırlıq, məktəbdə təlim-tədris prosesinin hərtərəfli tədqiqi və analizi.*

Təhsil idarəçiliyinin **obyektləri**: *tədris prosesi, tərbiyə prosesi, metodiki iş, elmi və təcrübi fəaliyyət, uşaq və pedaqoji kollektivin psixoloji vəziyyəti, təlim-tədris prosesinin zəruri şərtlərlə təmin edilməsi.*

Təhsil idarəçiliyinin **növləri**: *nəzarəti həyata keçirənin əlamətləri (kollektiv, qarşılıqlı idarə, özünüidarəetmə, planlı və planlaşmamış inzibati idarəetmə.*

İdarə edilən obyektlərin **əhatəsi**: *sinif ümumiləşdirici – eyni sinifdə oxuyan şagird və müəllimlərin işinin təhlili, ümumi – bütün istiqamətlər üzrə işlərin ümumi vəziyyətinin dərin tədqiqi və analizi, tematik – təlim-tədris prosesinin konkret istiqamət üzrə öyrənilməsi, şəxsi – ayrı-ayrı müəllimlərin fəaliyyətinin hərtərəfli tədqiqi, icmal – məktəbdəki vəziyyətin dərin tədqiq edilmədən təhlili.*

Təhsil idarəçiliyinin **metodları**: *dərs və təlim məşğələlərinə gəlmək və onları təhlil etmək, məktəb sənədlərinin və şagirdlərin işlərinin təhlili, müəllim, şagird və valideynlərlə söhbət, inzibati yoxlama tədbirlərinin və sorğularının aparılması; anketləşdirmə, testləşdirmə, xronometraj və s.*

**Təhsil islahatı (Educational reform)** - Mövcud olan təhsil sistemini tədricən dəyişərək təkmilləşdirmək cəhdi. Hər hansı bir məktəbdə konkret fənn üzrə təlim metodunun inkişaf etdirilməsi və ölkənin bütöv məktəb sisteminin nəzərdən keçirilməsi kimi kiçik yaxud geniş miqyaslı müxtəlif proseslər *təhsil islahatı* hesab edilə bilər.

**Təhsildə qiymətləndirmə (Educational assessment) –** bax: **Qiymətləndirmə**.

**Təhsilin dəyərləndirilməsi (Educational evaluation)** – Təhsilin müxtəlif aspektlərinin, və yaxud tətbiq olunan layihələrin, proqramların dəyərləndirmə prosesi və ya müəssisələr ilə əlaqəli yerinə yetirilən tədqiqat.

**Təhsilin istorioqrafiyası / tarixi (Historiography of education) -** Öz metod və nəzəriyyələrinin, üzərlərinə düşən vəzifələrin, təhsil sistemindəki bütün dəyişikliklərin təhsil tarixçiləri tərəfindən təyin edilməsi və sistemləşdirilməsi.

**Təhsil media resursları (Educational media)** - Müxtəlif növ kommunikativ təlim materialları, məsələn, filmlər, diafilmlər, fotoşəkillər, lent yazıları, çap materialları, qrafiklər, CD-ROMlar, kompüter və digər rəqəmli vasitələr.

**Təhsil Nailiyyətlərinin Milli Qiymətləndirilməsi (National Assessment of Educational Progress (NAEP) -** 1969-cu ildən etibarən dövlət və özəl tipli ibtidai və orta məktəblərdə ABŞ şagirdlərinin oxu, riyaziyyat, təbiət elmləri, yazı, tarix və coğrafiya da daxil olmaqla bir sıra fənlər üzrə bilik və bacarıq səviyyəsinə dair məlumatların toplanılması və nəşr edilməsi ilə məşğul olan

ABŞ Təhsil Departamenti yanında Təhsil Statistikası üzrə Milli Mərkəzin Layihəsi. Bu, "ölkənin müvəffəqiyyət cədvəli" adlanır. Layihə 1992-ci ildən genişləndirilmişdir və hazırda böyüklərin savadlılıq səviyyəsi məsələsini də əhatə edir.

**Təhsil psixologiyası (Educational psychology)** – Psixologiya elminin insan psixikasının inkişaf qanunauyğunluqlarını təhsil müstəvisində öyrənən sahəsi.

**Təhsilin pillələri (Levels of education)** – Təhsil sisteminin müstəqil tərkib hissəsi (məktəbəqədər təhsil müəssisələri, ümumtəhsil məktəbi, ibtidai, əsas orta təhsil müəssisələri). Təhsil pillələri bir-biri ilə üzvi şəkildə bağlıdır və bu, təhsildə, ardıcıllığın, inkişafın təmin olunmasına kömək göstərir.

**Təhsil sistemi (Education system)** – Müxtəlif istiqamətli təhsil proqramlarının və dövlət standartlarının qarşılıqlı əlaqəsinin cəmi; onları həyata keçirən müxtəlif hüquqi bazaya, növə, tipə malik olan təhsil müəssisələrinin şəbəkəsi; təhsil idarəetmə orqanları sistemi. Təhsil sisteminin növü ölkənin sosial-iqtisadi inkişaf səviyyəsi, mədəni-tarixi və milli-xüsusiyyətləri ilə müəyyən olunur.

Təhsil sisteminin 4 pilləsi vardır: *(a) öyrənmə-təcrübə pilləsi; (b) öyrənilmiş təcrübələri həyata keçirən təlimatverici sistem; (c) təlimatverici sistemi dəstəkləyən inzibati sistem;*
*(d) bütün bu təlim-təhsil müəssisələrini tanıyan, idarə edən və maliyyələşdirən idarəedici sistem.*

**Təhsil siyasətinin öyrənilməsi (Educational policy studies)** – Təhsillə əlaqəli alternativ ictimai qaydaların təbiəti, növü, səbəb və nəticələri ilə bağlı təhlillər. Belə təhlillər qaydalarla bağlı problemlərin əməkdaşlıq mühitində həllinə, alternativ qaydalar arasından ən yaxşısının seçilməsi və səmərəli istifadəsinə zəmin yaradır.

**Təhsil tədqiqatı (Educational research)** - Nəzarət altında olan laboratoriya eksperimentlərində müşahidəçi iştirakçıdan tədqiqatçı fəaliyyətinə, tarixi fənlərdən məntiqi təhlilə aparan tədqiqat metodu. Təhsil tədqiqatı öz məzmununda müşahidələrin aparılmasından başlayaraq nəticələrin əldə edilməsi, qərarların hazırlanmasına qədər geniş biliklər toplusunu əks etdirir.

**Təhsilin məqsəd və vəzifələri (Educational objectives)** – Təhsilin məqsəd və vəzifələri təhsil alanda elm, bilik və bacarıqların yaradılması, insanda mədəniyyətin formalaşdırılması, onun əməyə hazırlanması ilə müəyyən olunur. Təhsilin məqsəd və vəzifələrində başlıca yeri şəxsiyyətin fərdi yaradıcı potensialının aşkar edilməsi tutur. Məktəbdə son zamanlar üstün mövqe əsasən təlim və tədrisdən daha çox şəxsiyyəti formalaşdıra bilən tərbiyəyə, yeni dövrün tələblərinə cavab verən ekzistensional dəyərlərə keçmişdir. Lakin, burada tərbiyə anlayışı altında elə şərtlərin yaranması nəzərdə tutulur ki, onlar təhsil alanın şəxsiyyətinin üstünlük və bacarıqlarını üzə çıxarmağa yardım etsin. Beləliklə, təhsilin məqsəd və vəzifələri fərdi üstünlük və bacarıqların formalaşması və ya təkmilləşdirilməsi prosesi kimi çox mürəkkəb və çoxşaxəlidir. Təhsilin məqsəd və vəzifələrini iki cəhətdən, yəni təhsil alana və təhsil müəssisəsinə, təhsil sisteminə münasibət cəhətlərindən öyrənəmək lazımdır. Təhsil sistemlərinin fəaliyyətinin ən mühüm məqsədi müasir istehsalatda xidmət edə biləcək sosial öhdəlik daşıyan işçilərin hazırlanmasıdır. Təhsil alanın şəxsiyyətinə nəzərən təhsilin aşağıdakı məqsəd və vəzifələrini qeyd etmək lazımdır: şəxsiyyətin individual keyfiyyətlərinin aşkar edilməsi, elm və mədəniyyətin əsası barədə sistemləşmiş biliklər əldə etdikdən sonra təhsil alanın dünyəvi və milli mədəniyyətə uyğunlaşması; maddi tərbiyə və dünyaya maddi baxış sistemi, insanın dünyadakı yeri barədə tərbiyə; fiziki və mənəvi tərbiyə; əmək hazırlığına ümumi və peşəkar hazırlıq; şəxsiyyətin özünütərbiyə və özünüinkişaf səviyyəsinə çatması, tədris və peşəkar fəaliyyətin yaradıcı və əxlaqi azadlığın əsası kimi qəbul edilməsi.

**Təhsil keyfiyyəti (Educational quality)** – Təhsil prosesi və onun nəticələrinin uyğunluğunu, prosesin necə adlandırılmalı və hansı məqsədlərə xidmət etməli olduğu anlayışlarının cəmiyyətdə yayılmasının hüdudunu göstərən inteqral xarakteristikadır. Bu sahədə fikirlər nəzərə çarpacaq dərəcədə ayrıldığına görə bu terminin izahları da üst-üstə düşmür. Bütövlükdə müasir təhsilin keyfiyyəti onun sosial effektivliyinə xidmət edən bir sıra faktorlarla müəyyən olunur. Bu faktorlar aşağıdakılardır: a) fəaliyyətin bu və ya digər sahəsində təcrübə və mənəvi mədəniyyətin ən yüksək nailiyyətlərinə imkan verən məzmun; b) pedaqoji heyətin və digər maarifçilərin yüksək səriştəliliyi;

c) yeni təhsil texnologiyaları və onlara müvafiq olan maddi-texniki təchizat; d) humanist istiqamət; e) əhalinin bilik, anlayış və bacarıq ehtiyaclarının tam ödənilməsi.

**Təhsilin standartları (Educational standards)** - 1) tədris fənni üzrə son nəticələrin göstərildiyi hər bir təhsil pilləsi üzrə tərtib edilən əsas sənəd. Standartın strukturuna təhsilin məqsəd və vəzifələri, termin və qanunauyğunluqları, bilik və düşüncələri, bilik və bacarıqları, təhsilin nəticələrinin yoxlanması texnologiyası daxildir. 2) orta məktəb təhsilində nəticə əldə etmək üçün tədrisin nüvəsi onun tərkibinə daxil olur və təhsilin məzmununun optimal minimumunu göstərir.

**Təhsil sistemi (Educational system)**- Müxtəlif istiqamətli təhsil proqramlarının və dövlət standartlarının qarşılıqlı əlaqəsinin cəmi; onları həyata keçirən müxtəlif hüquqi bazaya, növə, tipə malik olan təhsil müəssisələrinin şəbəkəsi; təhsil idarəetmə orqanları sistemi. Təhsil sisteminin növü ölkənin sosial-iqtisadi inkişaf səviyyəsi, onun siyasi rejimi, mədəni-tarixi və milli xüsusiyyətləri ilə müəyyən olunur.

**Təkdərəcəli sinif (Monograde class) -** Yalnız bir pilləli tədris planı/kurikulumu olan, bir və ya bir neçə müəllim tərəfindən idarə olunan sinfə aid edilir.

**Təkmilləşdirmə (Re-training)** – Məqsədi dəyişməkdə olan cəmiyyətdə şəxsiyyətlərarası və professional hazırlığı inkişaf etdirməkdən ibarət interaktiv təlim növü. Kadrların peşəkarlıq səviyyəsinin artırılmasında, o cümlədən müəllimin professional hazırlığında ən mühüm metodlardan biri hesab edilir.

**Təkrar sinifdə qalan tələbə (Repeater)** - Eyni sinifdə ikinci il qalan tələbə. **UNESCO** -nun Təhsil Planlaşdırılması üzrə Beynəlxalq İnstitutunun şərhinə görə *"sinifdə qalan tələbə"* dərs ilinin əvvəlində eyni standartlarla siyahıya alınan və əvvəlki tədris ilində keçilənləri növbəti dərs ilində yenidən keçən tələbədir.

**Təkrar sinifdə qalma dərəcəsi (Repetition rate) -** Eyni tədris ili və eyni sinifdə bir dəfədən artıq qeydiyyata alınan tələbələrin sayının keçən il ərzində həmin sinifdə olan və siyahıya alınan tələbələrin ümumi sayına olan nisbəti.

**Təkrar testləşdirmə nəticələrinin etibarlılıq əmsalı (Test-retest reliability coefficient)** - Eyni testin (sınağın) uyğun olan ayrı-ayrı vaxtlarda ikinci dəfə keçirilməsindən alınan balların bir-birilə əlaqələndirilməsindən əldə edilən etibarlılıq əmsalı. Şagird və ya tələbənin nəticələrinin artıb-artmamasını əks etdirir.

**Təqdimat, Məşq, Nəticə (Presentation, Practice, Production –PPP) -** Yeni dərsin izahı üsulu. Müəllim yeni sözləri və ya qrammatik qaydanı izah (təqdim) edir, tələbə/şagirdlər yoxlama tipli tapşırıq, yaxud çalışmalar vasitəsilə təqdim edilmış material üzərində məşq edir, sonra isə müəllim öyrəndiklərinin kommunikativ yolla praktikada tətbiqi üçün onlara tapşırıq verərək nəticəni yoxlayır.

**Tələb əsaslı qiymətləndirmə (On-demand Assessment) -** Konkret bir tarixdə və konkret bir məkanda şagirdlər üçün eyni şərtlərlə onlayn üsulu ilə keçirilən testlərin qiymətləndirməsi. ABŞ-da tələb əsaslı qiymətləndirməyə nümunə kimi məktəb dairələri və ştatlar səviyyəsində keçirilən SAT (*Təhsil Nailiyyətləri Testi*) testlərini göstərmək olar.

**Tələbə (Student)** - Ali məktəb tələbələri, bəzi ölkələrdə isə orta məktəb şagirdləri. Qədim Romada elmi proseslə məşğul olan əksər şəxsləri tələbə adlandırırdılar. XII əsrdə universitetlərin yaradılması ilə bu ad həmin müəssisələrdə təhsil alanlara verilir. Azərbaycan Respublikasında isə, əsasən orta məktəblərdə təhsil alanlar *şagird*, ali və orta-ixtisas məktəblərində təhsil alanlar *tələbə* və *dinləyici*, hərbi məktəblərdə təhsil alanlar isə *kursant* adlanır.

**Təhsil proqramı / kurikulum (Curriculum)** - Təhsilin hər bir pilləsi üzrə təlim nəticələri və məzmun standartlarını, tədris fənlərini, həftəlik dərs və dərsdənkənar məşğələ saatlarının miqdarını, pedaqoji prosesin təşkili, təlim nəticələrinin qiymətləndirilməsi və monitorinqin aparılması sistemini özündə əks etdirən dövlət sənədi.

**Tələbə / şagird yoldaşı (Student-cohort)** - Şagird nailiyyətlərinə yardım edən bir qrupda təhsil alan tələbə/şagirdlər; (dərs ili ərzində tələbə öz arzusu ilə qrupa daxil ola və ya onu tərk edə bilər).

**Təlimat (Instruction)** – Təhsil alanın yerinə yetirməli olduğu göstərişlər toplusu; hər hansı bir elm sahəsində bilik, bacarıq, məlumat və göstərişlərin ardıcıl surətdə ötürülməsi prosesi.

**Təlim (Training)** – Müəllim və ya hər hansı bir şəxsin (tərbiyəçi, valideyn, təşkilatçı və s.) rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü təhsilvermə və tərbiyəetmə prosesi. Bu proses öyrədən və öyrənənin qarşılıqlı fəaliyyətinin vəhdətinə əsaslanır.

**Təlimat məqsədləri (Instructional goals)** – Konkret fənn, kurs, proqram və ya dərsin təhsil alanlara verəcəyi yeni bilik, bacarıq, vərdişlərlə bağlı plan.

**Təlimat strategiyası (Instructional strategy)** – Maksimum dərəcədə təlim məqsədlərinə çatmaqdan ötrü qarşıya qoyulmuş zəruri uzunmüddətli hərəkətlərin ümumiləşdirici modelləri.

**Təlimatın vəzifələri (Instructional objectives) -** Müəllimin tələbə qarşısında qoyduğu qısamüddətli məqsəd və ya təlimat nəticəsində onun davranışında əmələ gələn dəyişiklikləri müşahidə etmək arzusunun aydın və dürüst təsviri.

**Təlimatlandırma modeli (Coaching model)** – Təlimatçı müəllimin rəhbərliyi və nəzarəti altında fərdi yaxud qrup məşğələlər şəklində keçirilən təlim modeli.

**Təlim təcrübəsi (Teaching practice)** - Təhsil müəssisəsində müvafiq vaxt müddətində təcrübəçi-müəllimlərin təlim bacarıqlarının təcrübədən keçirilməsi; bəzən məktəb təcrübəsi də adlandırılır.

**Tənqidi dinləmə (Critical listening)** - Danışanın şifahi nitqinə diqqəti artırmaq və dəqiq anlama vərdişini formalaşdırmaq məqsədilə eşitməyə nəzarətin təmin edilməsi; şagird (tələbə) eşitdiklərini dərk edir, öz tənqidi münasibətini bildirməklə onları dəyərləndirir.

**Tənqidçi şəxs (Critical person)** - İntellektual bacarıq və qabiliyyətlərə, tənqidi təfəkkürə malik olub, məsələlərin mahiyyətini dərk edərək onlara analitik münasibət bildirməyi bacaran şəxs.

**Tənqidi təfəkkür (Critical thinking)** - İdeyaları bir-biri ilə əlaqələndirmək şərti ilə onlara müxtəlif nöqteyi-nəzərdən münasibət prosesi; tənqidi oxu və yazı bacarığını artırmaq üçün zəmin yaradır.

**Tənqidi Təfəkkür üçün Oxumaq və Yazmaq (Reading and Writing for Critical Thinking, RWCT) -** 1997-ci ildə Nyu-York Açıq Cəmiyyət İnstitutu tərəfindən əsası qoyulan, Mərkəzi və Şərqi Avropa, habelə Orta Asiyanın 30-dan çox ölkəsində həyata keçirilən şəbəkə layihəsi. Bu layihənin əsas məqsədi tələbələrin fəal tənqidi təfəkkürünün inkişafına, onların müstəqil düşüncə tərzinə, hərtərəfli oxu və yazı qabiliyyətlərinə yiyələnməsinə nail olmaqdan ibarətdir. İxtisasartırma və təkmilləşdirmə üzrə layihə müəllimlərin, inzibatçıların və universitet professorlarının cəlb olunduğu seminarlara əsaslanır.

**Tənqidi yazı (Critical writing)** – tənqidi oxu ilə sıx əlaqədar olan ardıcıl, əlaqəli və müqayisəli münasibət və düşünmə tərzi tələb edən yazı.

**Tərtibatın etibarlılığı (Construct validity) -** Nəzəri tərtibatla həmin tərtibatı qiymətləndirmək üçün tətbiq edilən test meyarları arasındakı uyğunluq.

*"Oxu hazırlığı", "Öyrənmə arzusu", "Davamlılıq"* və s. nəzəri tərtibata misal sayıla bilər. *(*bax: **Etibarlılıq***)*

**Təsadüfi bal (Chance Score) -** Daha çox ehtimal nəticəsinə əsaslanan bal. Məsələn, düzgün cavab seçiminə əsaslanan və 4 cavab variantına (A, B, C, D) malik 60 sualdan ibarət test üçün nəzəri ehtimal səviyyəsi (təsadüfi bal) 15 ola bilər.

**Tətbiqi təlim (Application teaching) -** Ən əsas və sadədən başlayaraq mürəkkəbə doğru olan ideyaların öyrədilməsi prinsipinə əsaslanan konstruktivist yanaşma.

Tətbiqi təlimdə müəllim gözlənilən nəticələrin tələbələr tərəfindən yaradılmasını təmin edir.

**Tətbiqi tədqiqat (Applied research)** – Nəzəri bilikdən daha çox, təcrübi tətbiq qaydalarını müəyyənləşdirmək üçün aparılan araşdırma.

**Törəmə qiymət (Derived Score) -** Bir şkalanın kəmiyyət, yaxud keyfiyyət qiymətindən digər şkalanın vahidlərinə keçirilən qiymət (məsələn, standart qiymət).

## U

**Uşaqlıq (Childhood)** – Uşaqlıq BMT-nin "Uşaq hüquqları haqda" konvensiyası, beynəlxalq normalara əsasən insanın doğumdan, çağalıq dövründən yeniyetməliyədək (18 yaşa qədər) olan inkişaf dövrüdür. Pedaqogikada təyin edilmiş yaş dövrünə uyğun olaraq uşaqlıq 11 yaşa qədər olan dövrü əhatə edir və tərkibinə daxildir: körpəlik - 1 yaşa qədər; erkən uşaqlıq – 3 yaşa qədər; məktəbəqədərki dövr – 6 yaşa qədər, aşağı sinif yaşı -10-11 yaşa qədər.

**Uşağın inkişafı (Child development)** - Fasiləsiz və ya davamlı şəkildə uşaqda baş verən təbii dəyişiklik. Belə fasiləsiz inkişaf prosesi anadangəlmə, irsi amillərin təsiri altında olan yetkinləşməyə və ətraf mühitin təsirləri ilə bağlı olan maraqlara gətirib çıxarır.

**Uşağa qarşı zorakılıq (Child abuse)** - Valideynlər, tərbiyəçilər, müəllimlər və b. tərəfindən uşağa qarşı fiziki, verbal (sözlü), emosional xarakterli təhqiredici davranış.

**Uyğun element (Matching Item) -** Bir siyahı üzrə hər bir bəndin digər siyahının hər bir bəndi ilə düzgün şəkildə əlaqələndirilməsini tələb edən test tapşırığı.

**Uyğunlaşmalar (Accommodation)** – Şəraitə, müəyyən xüsusiyyətlərə uyğun olaraq testin keçirilməsi, təlimatlandırma və s. qaydalarla bağlı dəyişikliklər. Uyğunlaşdırma zamanı dəyişikliklər testin konseptual qaydalarında, meyarlarında deyil, daha çox, test suallarının tərtibi, təqdimatı, cavabın formatı, testin yerinə yetirilməsi üçün müəyyən edilmiş müddəti və s. məsələləri əhatə edir. Uyğunlaşmalar biliyin nümayişi üçün bərabər imkanların yaradılması məqsədinə yönəlir.

**Uyğunlaşdırma və Tətbiq edilmə (Accommodations and Adaptations)** – Xüsusi Qayğıya ehtiyacı olan uşaqlar\şagirdlər üçün tapşırıqların yerinə yetirilməsini əlverişli etmək məqsədilə qiymətləndirmənin planlaşdırılmasında və həyata keçirilməsində dəyişikliklərin aparılması. Bu cür uyğunlaşdırmaya və ya tətbiq edilməyə misal kimi görmə qabiliyyəti zəif olan şagirdlər üçün daha böyük ölçülü şrift və ya Brayl əlifbasından istifadə, yaxud, ana dili tədris dili hesab edilməyən şagirdlər üçün ana dilində (milli azlıqların dilində) testlərin tətbiq edilməsini və s. göstərmək olar.

## Ü

**Üçüncü dərəcəli təhsil (Tertiary education) -** Orta ümumi təhsildən sonrakı və ali təhsili əhatə edən təhsil səviyyəsi.

**Ümumi etibarlılıq (Concurrent validity) -** İki test üzrə bal qiymətlərinin bir-birinə uyğunluq dərəcəsi. Nümunə: yeni və ya artıq sınaqdan keçirilmiş testdə, yaxud da qabiliyyət və nailiyyət testində eyni bir xüsusiyyətin üst-üstə düşmə dərəcəsi (bax: etibarlılıq).

**Ümumiləşdirmə bacarığı (Generalizability)** - Test nəzəriyyəsində "bütün müşahidələrin ümumiləşdirilməsi ilə davranış seçiminin qiymətinə" əsasən yekun rəyin qəbul edilməsi.

Ümumiləşdirmə bacarığı ölçmə xətasında həqiqi qiymət anlayışının nəzəri alternatividir. Ümumiləşdirmə bacarığı nəzəriyyəsi səhvlərin bir neçə formasının olduğunu və alternativ ümumiləşdirmə formalarını qəbul edir. (bax: **Ölçmə Xətası**)

**Ümumiləşdirilmiş qiymət (Aggregated scores)** – Bir qayda olaraq, balların toplanması nəticəsində əldə edilən qiymət (bir neçə test üzrə müəyyən bir şəxsin topladığı ballar və ya bütün şagirdlərin toplam balları (məsələn, bütün üçüncü sinif şagirdlərinin).

İmtahan qiymətlərinin verilməsi qaydası çox vaxt bir neçə qiymət komponenti üzrə balların cəmindən alınan qiymətlərə əsaslanır. Məsələn, dil imtahanı üzrə qiymət dinləmə, oxu, yazı və danışığa əsaslanan testlərin ballarının cəmlənməsi ilə əldə edilə bilər. Qiymətlərin cəmlənməsi toplanan balların yüksək tutuşdurma və müqayisə səviyyəsinə malik qiymət elementlərindən hasil olunmasını tələb edir. Ən yaxşı variant kimi, ballar eyni şərtlərlə verilən bərabər qiymətə əsaslanmalıdır.

# V

**Valideyn Müəllim Assosiasiyası - VMA (Parent-Teacher-Association - PTA)** – Valideynləri məktəblə əməkdaşlığa cəlb edən şagirdlərin valideynləri və müəllimlər tərəfindən yaradılan birlik.

**Valideyn Təşkilatları (Parents Organizations)** - Təhsil alanların valideynləri tərəfindən yaradılan birliklər. Valideyn təşkilatları məktəblərin inkişafı üçün cəmiyyətin dəstəyini təmin edə, yerli, yaxud milli səviyyədə təhsil sistemində aparılan islahatlara təsir göstərə bilər.

**Validlik (Validity)** – Test, yaxud ümumilikdə imtahanın məqsədini müəyyən edən meyar.

**Vasitəçilik (Moderation)** – İmtahan keyfiyyətinin yoxlanılmasına imtahan edən orqanlar tərəfindən vasitəçi ekspert qruplarının cəlb edilməsi. Ekspert qrupunun vəzifəsi imtahan tapşırıqlarını araşdırmaqdan ibarətdir. Məktəb səviyyəsindəki qiymətləndirmə prosesində vasitəçilik təhsil şöbəsi nümayəndəsinin məktəbin işi ilə tanış olmaq, müəllim və şagird heyəti ilə söhbət aparmaq üçün məktəbə gəlməsindən ibarət ola bilər. Bu çərçivədə araşdırılmaq üçün şagirdlərin şəxsi işlərinin təhsil şöbəsi rəhbərliyinə göndərilməsi də mümkündür.

**Vətəndaşlıq (Citizenship)** – Konkret dövlətin ərazisində yaşamaq və dövlətin qanunvericiliklə təmin etdiyi bütün hüquqlardan istifadə etmək imkanı verən hüquqi status.

Vətəndaşlıq statusu dövlət və cəmiyyət münasibətlərində qarşılıqlı hüquq və öhdəliklər, bərabərlik, müxtəliflik və sosial ədalət ideyalarını özündə ehtiva edir.

**Vətəndaş təhsili (Civic Education)** - Vətəndaşların cəmiyyətdə və dövlətin idarə olunmasında fəal iştirak etməsi üçün əhəmiyyətli olan bilik, vərdiş və bacarıqların öyrədilməsidir.

# Y

**Yada salma tapşırığı (Recall Item)** - Test edilən şəxsin düzgün cavabı yada salmasını tələb edən tapşırıq (bax: **Tanıma tapşırığı**).

**Yaş ekvivalenti (Age equivalent)** - Standart testdə ümumən yaş həddini bildirən törəmə bal göstəricisi. Həmin testdə imtahan edilən müəyyən bal toplayır. Məsələn, oxu bacarığı üzrə konkret testdə qiymət 45 bal olarsa, bu 8,5 «yaşa uyğun bal göstəricisi» deməkdir (bax: sinif ekvivalenti).

**Yaşlıların təhsili (Adult education)** – Fasiləsiz təhsil sisteminin tərkib hissəsi olmaqla, vətəndaşların cəmiyyətdə və iqtisadiyyatda daim baş verən dəyişikliklərə uyğunlaşmasını təmin etmək məqsədilə çevik tədris proqramları əsasında həyata keçirilən təhsil prosesi. Yaşlıların təhsilinin hədəf qrupu artıq yetkinlik yaşını keçmiş, müəyyən həyat təcrübəsi və bir çox hallarda peşəsi olan insanlardır. Bu təhsil sahəsinin elmi əsaslarını öyrənən andraqogika elmi yaşlıların təhsilinin hədəf qrupunun xüsusiyyətlərini nəzərə alan xüsusi metodika və didaktikaya malikdir. Avropa ölkələrində yaşlıların təhsili insanların davamlı məşğulluğunu və fəal vətəndaş mövqeyini təmin edən təhsil sistemi kimi qəbul edilmişdir. Yaşlıların təhsili ilə ənənəvi təhsil arasında müəyyən

fərqlər mövcuddur. Ənənəvi təhsil sisteminin vəzifəsi cəmiyyət üçün layiqli vətəndaş və iqtisadiyyat üçün lazımi kadr hazırlamaqdırsa, konkret olaraq yaşlıların təhsilinin vəzifəsi artıq ənənəvi təhsil sistemindən çıxmış vətəndaşların cəmiyyətdə və iqtisadiyyatda daim baş verən dəyişikliklərə uyğunlaşmasını təmin etməkdir. Bu təhsilin daha bir spesifik əlaməti isə androqoji prinsiplərə əsaslanan çevik tədris proqramları vasitəsilə həyata keçirilməsidir. Yaşlıların təhsili prosesinə aşağıdakı sosial-demoqrafik qruplar cəlb edilə bilər: əmək funksiyalarının məzmununda baş vermiş dəyişikliklər və yeniliklərlə əlaqədar ixtisasartırma və ixtisasdəyişməyə cəlb edilən peşəkar əmək sahəsi işçiləri; şəxsi təsərrüfat və fərdi əmək fəaliyyəti ilə məşğul olanlar; məşğuliyyət sahəsi və ya peşəsini dəyişmək fikrində olan şəxslər; uzunmüddətli fasilədən sonra, o cümlədən analıq məzuniyyətindən sonra peşəkar əmək fəaliyyətinə qayıdanlar; müstəqil həyata yeni başlamış mütəxəssislər; peşəsi olmayanlar; yeni peşəyə yiyələnməyə və ya ixtisasını artırmağa ehtiyacı olan işsizlər; hərbi xidmətdən tərxis olunanlar; həbsdə olanlar və keçmiş məhbuslar; məcburi köçkün və qaçqınlar; adi şəraitdə tədris materiallarını qavraya bilməyən və sağlamlığı məhdud olan şəxslər; müxtəlif səbəblərdən yeni sosial-mədəni şəraitə uyğunlaşmağa məcbur olan şəxslər; şəxsi keyfiyyətlərini inkişaf etdirmək və ya bilik dairəsini genişləndirmək arzusunda olan şəxslər və s.

**Yayındırıcı variant (Distractor)** – Seçim üçün müxtəlif cavab variantları təqdim edən, yaxud iki əks cavab üzrə (*Doğru, Yanlış*) yerinə yetirilən tapşırıqda doğru olsa da, səhvən yanlış hesab edilən cavablardan hər hansı biri; bəzən “yanlış yol”, “alternativ”, yaxud “variant” da adlandırılır.

**Yeni / Təzə müəllim (New teacher)** - Pedaqoji məktəbi yenicə bitirmiş, tanışlıq, sınaq və peşəkarlığın erkən inkişaf dövrünü keçən şəxs.

**Yerinə yetirmə standartı (Performance Standard) -** Təhsil alanın müəyyən məharət səviyyəsini təsdiqləməsi üçün tələb olunan davranış və ya hərəkətləri nümayiş etdirməsi.

**Yerli normalar (Local Norms)** - Məhdud seçmə tapşırığının yerinə yetirilməsinin orta, yaxud adi nəticələrini göstərən test qiymətlərinin diapazonu.

**Yerli Təhsil Orqanları (Local Education Authority - LEA)** – Konkret regionda icbari təhsil və təhsilin növbəti mərhələləri üçün məsul olan səlahiyyətli orqanlar.

**YUNESCO (UNESCO)** – BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı. 16 noyabr 1945-ci ildə yaradılmış bu təşkilatin nizamnaməsi 1945-ci ildə London konfransında qəbul edilmiş, 4 noyabr 1946-cı ildə qüvvəyə minmişdir. **YUNESCO** - nun tərkibinə dünyanın müxtəlif regionlarında yerləşən 67 büro və altbölmələr daxildir. Hazırda 191 ölkə bu təşkilatın üzvüdür. Mərkəzi Parisdə yerləşən və Ümumi Konfrans, İcra Şurası, Katiblik olmaqla üç orqanı özündə birləşdirən Y**UNESCO** təhsil, elm və mədəniyyət sahələrində irəli sürdüyü məqsədləri, üzv dövlətlərdə qurulmuş Milli Komissiyalar vasitəsilə reallaşdırmağa çalışır. Y**UNESCO**-nun əsas məqsədi – irqi, milli mənsubiyyəti, cinsi, dili və dinindən asılı olmayaraq təhsil, elm və mədəniyyət sahələrində xalqların əməkdaşlığını genişləndirmək yolu ilə sülh və təhlükəsizliyin möhkəmlənməsinə kömək göstərməkdən ibarətdir. Bu təşkilat Təhsilin Planlaşdırılması üzrə Beynəlxalq İnstitut vasitəsilə təhsil planlaşması, kurikulumun inkişafı ilə də məşğul olur. Y**UNESCO** ibtidai, orta və ali təhsil sahəsində beynəlxalq araşdırmaları istiqamətləndirərək təhsilin inkişafına kömək göstərir və dünya ölkələrinin təhsil sistemlərinin illik statistik icmallarını nəşr etdirir.

**Yüksək səviyyəli düşünmə (Higher-order thinking)** – Düşünmənin təhlil, təsnifat, dərk olunan keyfiyyət və ya əlaqələrin təşkili ilə nəticələnən kompleks pilləsi; ideya, anlayış və prinsiplərin şifahi şəkildə birləşdirilməsi, situasiya üçün məqbul olan fikirlərin əhatə edilməsi, yaxud ümumiləşdirmələrin aparılması.

**Yüksək səviyyəli öyrənmə (Higher-order learning)** – Əsas meyarların ayırd edilməsi, anlayışların tədqiqilə faktın dəyərinin öyrənilməsi.

**Yüksək səviyyəli suallar (Higher-order questions) -** Yalnız bir cavab seçməyi deyil, ətraflı düşünməyi, təfsir etməyi, mülahizə yürütməyi, rəy söyləməyi, müqayisə etməyi tələb edən suallar. Məs: “Göy qurşağı hansı rənglərdən ibarətdir?” tipli suallar müşahidə etmək bacarığını yoxladığı halda, “Göy qurşağının faydası nədir? ” kimi suallar qoyulmuş məsələnin həlli üçün nisbətən dərin düşüncə və tənqidi yanaşma tələb edir.

# Z

**Z-qiyməti (Z-score) -** Orta göstəricisi 0, standart kənarlaşması 1 olan standart qiymət.

Z-qiyməti **"0"** olan şəxs orta göstərici səviyyəsində, Z-qiyməti **+1** olan şəxs isə orta göstəricidən bir standart kənarlaşma pilləsi qədər yuxarı səviyyədə hesab edilir.

Z-qiymətləri arasındakı fərq öyrənmə ilə qabiliyyət arasındakı fərqi daha dəqiqliklə ifadə edir.

**Zəkaya əsaslanan təlim. (Brain based teaching/learning)** – Şagirdin (tələbənin) öz fitri istedadını dərk etməsinə və müəllimin ona bu istiqamətdən yanaşmasına yönəlmiş təlim.

Müəllim *12 prinsipə* əsaslanan və öz səmərəliliyini təcrübədə təsdiqləyən bu təlimi şagirdin şəxsi həyat təcrübəsi və reallıqla əlaqələndirmək imkanına malik olur.

**Zənginləşmə (Enrichment)** – şagirdlərin istedad və maraqlarını inkişaf etdirmək, sağlam şəraitdə qarşılıqlı münasibətlər yaratmaq məqsədilə məktəbdən əvvəl yaxud sonra təşkil edilən xüsusi təhsil fəaliyyəti və layihələrə, konsert proqramlarında iştiraka, muzey səfərlərinə və s. əsaslanan sinifdənxaric təlim.

**Ziqzaq (Jigsaw)** Birgə öyrənmə strategiyası. İlk mərhələdə öyrənənlər təcrübəli qrupda iştirak edərək fənnin ayrı-ayrı aspektləri haqqında öyrənir, öz komandalarına qayıdaraq əldə etdikləri məlumatı qrupun hər bir üzvü ilə paylaşır və onu ümumi məqsəd üçün tətbiq edirlər.

# İSTİNADLAR

## a. Kitablar

**Prof. Abdül Əlizadə**
Müasir Azərbaycan Məktəbinin psixoloji porblemləri – Bakı Pedaqoqika, 2004 (385 s.)

**Blake, D. & Hanely, Vincent.** (1995) The dictionary of Educational Terms. Great Britain: Arena (1991) European Education Thesaurus. (English version). Office for Offical Publication of the European Communities: Luxembourg (2001) European Glossary on Education, Volume 3, Teachings staff. Belgium: Eurydice.

**Husen, T & Poslethwaite, N. T.** (Eds) (1994) The International Encyclopedia of Education. Great Britain: Pergamon

**Winch, Christopher & Gingell, John.** (1999) Key Concepts in The philosophy of Education. Great Britain: Routledge.

**Harris, Theodore L & Hodges, Richard E.** (1995) The Literacy Dictionary. The Vocabulary of Reading and Writing. USA: International Reading Association.

**Reber, A. S.** (1995) Dictionary of Psychology. London: Penguin Group.

**Stratton, P. & Hayes, N.** (1993) A student's Dictionary of Psychology. United Kingdom: Edward Arnold.

**b. Internet resursları**

http: //aucc.ca/en/international/bulletins/declaration.pdf
http://cuaes.cornell.edu/Preporoposals/glossary.htm
http://creest96.cse.ucla.edu/CREEST/pages/glossary.htm
http://culture.core.fr/her/engrecoconov.htm
http:/devdata.worldbank.org/edstats/ summaryeducationprofiles/comparativeP/cd2-2.html
http:// europa.eu.int/comm/ education/recognition/diploma.html#1
http://gats-info.eu.int/
http://glossary.eea.eu.int/EEAGlossary/S/stakeholder (EEA-Glossary)
http://glossary.plasmalink.com/glossary.html (Glossary of Instructional Strategies)
http://hagar.up.ac.za/catts/learner/ameyer/glossaryoflearningtheory.htm (Glossary of Learning Theory)
http://highered.mcgraw-hill.com/sites
http://members.aol.com/Svennord/ed/GiftedGlossary.htm (A Glossary of Gifted education)
http://stednet.sei.dost.gov.ph/surveys/DECS/10-28-02/DESC_Definition_2002.htm (Definition of terms. Department of Education)

http://user.mc.net/ckwentz/eduspeak.html (Eduspeak Terms and Glossary)
http://usinfo.state.gov/topical/global/develop/02112901.htm
http://www,blolgna-berlin2003.de/pdf/bologna_declaration.pdf
http://civics-online.org/glossary/allterms.cfm (Civics Online - Srec Envisioning the Democratic Community)
http://criticalthinking.org/university/gloss (an Educator'guide to Critical Thinking Terms & concepts)
http://dpempis.org/webpages/concept%20for%20web/Main_K_index.htm (Concepts & Definitions in Educational Planning – School Efficiency)
http://www.ed.gov/legislation/ESEAO2/pg65.html
http://www.eurydice.org/Doc_intermediairies/term_tools/en/glossaries.htmlGlo#3
http://europa.eu.int/comm/education/
http://eyeoneducation.tv/glossary/#top (Glossary of Educational Terms)
http://www.ewa.org/gloss.html (Glossary of Educational Terms)
http://.ibo.org/
http://.isic.de/
http://www.ncler.org/srds/areas/misc/glossary.htm
http://www.nifl.gov/lincs/collections/eff/eff_glossary.htm
http://www.nwrl.org/scpd/sirs/9/c017.html
http://www.nscb.gov.ph/ru12/DEFINE/DEF-EDUC.HTM (Definition of terms-education and Manpower Development)
http://www.ohn.gov.uk/glossary (OHN Glossary)
http://www.osi.hu/
http://www.schoolwisepress.com/smart/dict/dict.html (Glossary of Educational Terms)
http://www.unesco.org/
http://www.uis.unesco.org/